# Budur İSLAM

Dünyada ən sürətlə yayılan
din barədə fikirlərin





Müsəlmanların, Allahın İbrahimə inşa etməsi-ni, müsəlmanlara isə harada olsalar namazlarında ona tərəf yönəlmələrini buyur-duğu Kəbəni təvaf etmələrinin səmadan görüntüsü.

# Budur İSLAM

Dünyada ən sürətlə yayılan
din barədə fikirlərin

Fəhd Salim Bahammam

**Birinci nəşr**
**2021**

Bütün hüquqlar qorunur
**Müasir bələdçi şirkətinə məxsusdur**



- **Məgər ətrafındakı** kütləvi informasiya vasitələrində ən çox müzakirə edilən dini daha aydın şəkildə görmək sənin üçün maraqlı deyilmi?
- **Məgər bir anlıq dayanıb,** beynəlxalq statistik məlumatlara əsasən ən çox yayılan və ən tez qəbul edilən yeganə dinin dərinliyini öyrənməyə dəyməzmi?
- **Məgər həyat,** din və kainatla bağlı başqalarının mədəniyyətini və onların fəlsəfi fikirlərini araşdırıb öyrənməklə rahatlıq tapmırsanmı?
- **Niyə İslam** dini haqqında doğru-düzgün məlumatları öz mənbələrindən əldə etmək, sonra da, buna dair öz məntiqin və öz ağlınla qərar vermək üçün özünə fürsət vermirsən?

Əgər bu deyilənləri, yaxud bunların bir qismini mühüm və maraqlı hesab edirsənsə, bu kitab sənə istədiyini tapmağa kömək edəcək.




## Quran haradan gəlib? — 82

Müsəlmanların müqəddəs kitabı barədə söhbət açılarkən adamın ağlına gələn ilk məntiqi sual belə olur: “Quran, Muhəmməd – aleyhissalətu vəssəlam.. Niyə biz müsəlmanların bu mövzuda olan hekayəsini qəbul etməliyik? Məgər bizim buna dair suallar verməyə haqqımız yoxdur?”


# Kitabdakı mövzular


**Hamımızı narahat edən suallar.. — 12**
- İslam dini
- İslam kəlməsinin mənası
- İslam, bütün rəsulların dinidir

**İslamın ümumbəşəriliyi — 16**
- Ətraf mühitin qeydinə qalmaq imanın bir hissəsidir
- Elm dini
- İslam insana aid olan bütün sahələri əhatə edir
- Qarşılıqlı əlaqə qurma və birgə iş görmə dini

**Tək xaliq... Tək məbud — 30**
- Təbiət qanunu ilə şəriət qanunu arasında
- İslamda ruhanilik yoxdur
- İslamı qəbul etmək üçün xüsusi bir mərasim varmı?

**Həqiqətdə rəsullar kimlərdir? — 38**
- Rəsulların insan olması
- Rəsulların məqamına dair orta mövqe
- Rəsullar xüsusunda İslamın mövqeyi

**İslamın İsa aleyhissəlam barədə mövqeyi — 42**

**İslamın rəsulu kimdir? — 48**
- İslam rəsulu Muhəmməd – aleyhissəlamı – tanımaq üçün ötəri baxış

**Muhəmməd insaflı insanların nəzərində Allahın rəsuludur — 54**

Rəsulullah Muhəmməd – aleyhissəlamın – başına gəlmiş hadisələrdən və onun əxlaqından (misallar) — 60

- Təvazökarlığı
- Mərhəməti
- Ədaləti
- Yaxşılıq etməsi və səxavətli olması
- Səbir etməsi və mülayim olması
- Dünyadakı zahidliyi
- (Əhdə) vəfa etmək

Muhəmməd – aleyhissəlamın – dediyi sözlərdən bəzisi — 70

Qurani Kərim İslamın əbədi möcüzəsidir — 76

- Quranın qorunmasının möcüzə olması
- İnsana bilmək istədiyini) izah edən və içindəkindən xəbər verən möcüzə

Quran haradan gəlib? — 82

- Təkrar edilən ittihamlar
- Niyə biz bunu adi bir dahilik saymırıq
- Sanki Peyğəmbər – aleyhissəlam – özünün gətirdiyi kitabda əvvəlki kitabların üslubunu təkrar etmişdir
- (Haqqı nahaqdan) ayırd edən tarixi həqiqət
- “əl-Fatihə” surəsi

İslama aid olan ibadətlərin həqiqi mənası nədir? — 92

- İslamın rüknləri
- (İnsanın) mükəlləf olması və sınağa çəkilməsi nə üçündür?
- Namaz
- Zəkat
- Oruc
- Həcc

İslamda ailə — 108

- İslam dini evliliyə qədəm qoymağa və ailə qurmağa təşviq etmişdir
- İslam, ailə üzvlərinin hər birinə, – istər kişi olsun, istər qadın, – kamil şəkildə ehtiram göstərir
- İslam, ata-anaya layiqincə dəyər vermək və onlara ehtiram göstərmək, habelə, ölənədək onların qayğısına qalmaq və onların əmrinə itaət etmək prinsipini möhkəm qurmağa təşviq edir
- İslam dini, oğulun və qızın haqlarını qorumağı, var-dövlətdən onlara xərclədikdə aralarında ədalətlə rəftar etməyi əmr edir
- İslam dini müsəlmana qohumlarla əlaqə saxlamağı vacib buyurmuşdur




# İslamda ailə 108

Hazırki əsrdə bir çox ailələrdə qəbul edilir ki, ailə – əllərində bir evin açarları olan fərdlərdən ibarət bir toplumdur.




Din və ağıl 134

Bəziləri elə güman edirlər ki, din ağılın ziddinə və elm öyrənməyin əleyhinədir. Çünki onların nəzərində din, xam xəyalların, əfsanələrin və xurafatların mənbəyidir.

Qadının İslamda yeri — 114
- Qadına ehtiram göstərmək mövzusu ilə əlaqəli əhkamların bəzisi bunlardır
- İslamın, qeydinə qalmağı buyurduğu qadınlar
- İslamda bu iki cinsin bir-birilə mübarizə aparmasına yer yoxdur
- Kiş-iqadın münasibəti
- İslamda kişi-qadın münasibətinin keyfiyyəti
- Nə üçün İslam qadına yad kişlərin yanında hicabda olmağı əmr etmişdir?
- Kişi ilə yad qadın arasındakı münasibətin tənzimlənməsi üçün qoyulmuş qaydalar

Yemək-içmək xüsusunda İslamın qanunu — 124
- Donuz
- Sərxoşedicilər və spirtli içkilər
- Quran spirtli içkiyə və sərxoşediciyə necə münasibət bəsləyir?

Xəta və tövbə — 130

Din və ağıl — 134
- Quranın aydın bildirdiyi, sağlam təfəkkürə mane olan amillər (bunlardır)

İslam sülh dinidir — 140
- Bu gün İslam ən sürətlə yayılan bir dindir
- Məgər İslam dini insanlara məcburən qəbul etdirilib?

İslam dini ilə bəzi müsəlmanlar arasında olan reallıq — 146
- Yeni nöqteyi-nəzər



# Hamımızı narahat edən suallar..

Hansı birimiz ömründə bir dəfə də olsun özünə sual verməyib ki.. Nələr baş verir? Mən kiməm? Haradan gəlmişəm? Hara gedəcəm? Axırım necə olacaq? Bütün bu yaradılışda məqsəd nədir? Və əgər sonumuz ölüm, torpaq və yox olmaqdırsa, onda dünyadakı bütün bu zəhmətlər nə üçündür?

Müsəlmanlar və səmavi dinləri təmsil edənlər inanırlar ki, insanın, ədalətli Xaliqin mövcud olduğuna, habelə, yaxşı işlər görən kimsənin öz mükafatını, pis iş görən kimsənin də, öz cəzasını alacağı digər həyatın mövcudluğuna iman gətirmədən yaşaması, mənasız boş əyləncədir, üstəlik, bu cür yaşamaq səmərəsi olmayan əzab və əziyyət, habelə, nəticə verməyən və qazanc gətirməyən xətərli bir işdir.

Yaradan, adil, müdrik və hər şeyi idarə edən Rəbbimizə iman gətirmədən, həyatda baş verən təzadlı hadisələri, habelə, yaşayışın çətinliyinin, verilən doğru və ya yanlış qərarların və bir də mənəvi iztirabların hikmətini başa düşmək mümkün deyil. Allah bu həyatı fani yaratmışdır ki, o, sona yetişdikdən sonra hər kəs etdiyi əməllərə görə nəsibini alsın.

O zaman yalnız dərin iman, dəvət etdiyimiz adillik, məhəbbət, qarşılıqlı xoş münasibət, doğruluq, səbir və rəhmət kimi – dəyər və düşüncələrimizlə bərabər həqiqi mənada nəfslə uzlaşacaq. O zaman artıq bu çağırışın mənası, nailiyyətin dadı, səbrin də şirinliyi olacaq.

Biz görürük ki, müsəlmanların müqəddəs kitabı Quranı Kərim buna işarə edir. Allah bu kitabda ağıllı və düşüncəli insanlar haqqında bizə belə xəbər verir: “O kəslər ki, göylərin və yerin yaradılışı haqqında düşünər və deyərlər: “Ey Rəbbimiz! Sən bunları əbəs yerə yaratmamısan. Sən pak və müqəddəssən” (Ali-İmran, 191).

> Yaradan, adil, müdrik və hər şeyi idarə edən Rəbbimizə iman gətirmədən, həyatda baş verən bir-birinə zidd hadisələri, habelə, yaşayışın çətinliyinin, verilən doğru və ya yanlış qərarların və bir də mənəvi iztirabların hikmətini başa düşmək mümkün deyil.

## İslam dini:

Yer üzündəki dinlərin çoxu, ya bir şəxsə, ya bir ümmətə, ya da o dinin meydana gəldiyi yerə nisbət edilir. Məsələn, məsihilər özlərinin dininə verdiyi adı İsa Məsih aleyhissəlatu vəssəlamın adından götürüblər, yəhudilik Yəhuza qəbiləsinə mənsub edilir, buddizm onu təsis etmiş Buddanın adına bağlanır, hindular da Hindistana nisbət edilir və s.

İslam dininə gəldikdə isə, o, nə məxsusi bir şəxsə, nə bir qəbiləyə, nə bir irqə, nə də bir ümmətə nisbət edilir. Axı bu din bəşəriyyətdən hansısa bir ümmətə məxsus deyil ki, ona da mənsub olsun, yaxud bir bəşər övladı tərəfindən ixtira olunmayıb ki, onun adı ilə əlaqələndirilsin. Ona yalnız İslam adı verilib.

## İslam kəlməsinin mənası:

Biz ərəb dilində İslam kəlməsinin əslinə baxanda, görürük ki, o, təslim olmaq, boyun əymək, itaət etmək, ixlaslı olmaq, əmin-amanlıq və arxayınlıq kimi bir neçə mənanı özündə ehtiva edir.

İslam: Yaradan və mülkün sahibi olan Rəbbə kamil şəkildə itaət etmək və təslim olmaq, üstəlik, Ondan başqasına yönəldilən hər növ ibadətdən qurtulmaq deməkdir.



Məhz bu mənalar Quranda bir çox ayələrdə öz təsdiqini tapmışdır.

Quran bizə xəbər verir ki, kim öz qəlbi və bütün əzaları ilə Allaha tərəf yönələrsə, Ona itaət edər və Ona təslim olarsa, üstəlik əmrləri yerinə yetirər və qadağalardan çəkinərsə, heç vaxt qırılmayan nicat ipindən möhkəm tutmuş və hər bir xeyirə nail olmuş olar (Loğman, 22).

Belə olduğu halda, İslam, kamil şəkildə Allah ibadət etmək, üstəlik, Ondan başqasına itaət və ibadət etməkdən qurtulmaq deməkdir. Müsəlman isə öz ibadətində ixlaslı olan bir insandır. O kimsə ki, özü sülhsevər olmaqla yanaşı, bunu ətrafındakılara da yayır.

**Məgər bu deyilənlər, bütün rəsulların gətirdiyidirmi?**

## İslam, bütün rəsulların dinidir:

Quran təsdiq edir ki, ayrı-ayrı əsrlərdə yaşamış ümmətlərin hamısına, özlərinə Allahın dinini öyrədən elçilər göndərilmişdir. Quranda Muhəmməd aleyhissəlama belə xitab edilir: “Həqiqətən, Biz səni haqla müjdə verən və xəbərdar edən olaraq göndərdik. Elə bir ümmət yoxdur ki, ona xəbərdar edən bir elçi gəlmiş olmasın” (Fatir, 24). Elçilərin hamısı haqq dini gətirmişlər. Onlar iman risaləsində, əhkamların əsaslarında və əxlaq xüsusunda ixtilaf etməmişlər.

Min dörd yüz il bundan əvvəl peyğəmbərlərin sonuncusu Muhəmməd aleyhissəlatu vəssəlamın gətirdiyi İslam, əvvəlki elçilərin hamısının gətirdiyi dinin davamıdır. Belə ki, Quran müsəlmanlara İbrahim, İshaq, Yaqub, Musa və İsa kimi əvvəlki elçilərin iman gətirdiyinə iman gətirməyi əmr edir (əl-Bəqərə, 136).

Diqqət çəkən məqamlardan biri də budur ki, Quran, peyğəmbərlərin atası İbrahimin öz oğullarına, eləcə də, Yaqubun ölüm yatağında ikən öz oğullarına etdiyi vəsiyyəti bizə belə xəbər verir: Həqiqətən, Allah bu haqq dini sizin üçün seçmişdir. Elə isə ölüm sizi haqlayanadək İslam dini üzərində sabit qalın! (əl-Bəqərə, 132).

Bu din, Allahın bütün peyğəmbərlərinin dininin davamıdır. Əqidələri birdir və bu əqidənin həqiqi təməli dəyişmir. Dəyişən sadəcə ayrı-ayrı əsrlərdəki vəziyyətlərə uyğun şəriət qanunları və əhkamların təfsilatları olmuşdur. Bu isə sonuncu rəsul Muhəmməd aleyhissəlam bütün bəşəriyyət üçün son şəriəti təsdiqləməkdən ötrü peyğəmbər göndərilənədək davam etmişdir.

Beləliklə, Quran aydın şəkildə təsdiqləyir ki, din birdir və bu da İslamdır. Səmavi dinləri təmsil edən kimsələr arasında etiqad xüsusunda müşahidə etdiyimiz ixtilaf isə yalnız onları peyğəmbərlərinin gətirdiyi etiqaddan uzaqlaşdıran təhriflərdir (Ali-İmran, 19)

> İslam dininə gəldikdə isə, o, nə məxsusi bir şəxsə, nə bir qəbiləyə, nə əsil-nəsəbə, nə də bir ümmətə mənsub olunur. Axı bu din bəşərdən hansısa bir ümmətə məxsus deyil ki, ona da mənsub olsun, yaxud bir bəşər tərəfindən meydana gəlməyib ki, onun adı ilə əlaqələndirilsin. Ona yalnız İslam adı verilib.



# İslamın ümumbəşəriliyi

Qəribədir

Qəribədir ki, Quran ərəblərin dilində nazil olsa da, bu kitabda "ərəb" sözü zikr edilməmişdir. Habelə, Allahın rəsulu Muhəmməd səllallahu aleyhi və səlləm ərəblərə peyğəmbər göndərilməsinə rəğmən, bu gün biz müsəlmanlar arasında ərəblərin az sayda olduğunu, hətta, müsəlmanların ümumi sayının 20 faizindən azını təşkil etdiyini görürük. Ən böyük İslam dövləti Asiyanın uzaq cənubşərqində yerləşən İndoneziyadır; hətta, təkcə Hindistandakı azlıq təşkil edən müsəlmanların sayı, ən böyük ərəb dövlətindən təqribən iki dəfə çoxdur.

İslam dini, müxtəlif mədəniyyətləri, irqləri, adətləri və ölkələri olan bütün xalqların rəhmət və hidayət olaraq gəlmişdir. Quranda zikr edildiyi kimi: “Biz səni aləmlərə ancaq bir rəhmət olaraq göndərdik.” (əl-Ənbiya, 107).

İslam, digər qanunlarda bilinməyən və dünya xalqlarına məlum olmayan yollarla, bəşəri müxtəliflik üçün görünüş təqdim edir.

Gəlin Quranın bu xitabını təhlil edək. Elə bir xitab ki, təkcə ərəblərə deyil, habelə, təkcə müsəlmanlara da deyil, əksinə, bütün bəşəriyyətə – hər bir irqə və məzhəbə olan bir xitabdır. Allah Quranda buyurur: “Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah hər şeyi biləndir, hər şeydən xəbərdardır.” (əl-Hucurat, 13).

Beləliklə, Quran təkidlə bildirir ki, rəngindən və irqindən asılı olmayaraq bütün bəşəriyyət Adəm və Həvva aleyhiməssəlamın nəslindəndir, habelə, aralarındakı müxtəliflik və fərqlilik onların birinin digərindən üstün olması üçün yox, sadəcə bir-birini tanımaq, bir-birinə yoldaş olmaq və bir-birinə kömək etmək üçündür. Fəzilət və hörmət isə ancaq Allaha ibadət edən və Ondan qorxan kimsələrə aiddir.

Quran, onu da, nəzərimizə çatdırır ki, insanların rəng və surətlərinin müxtəlifliyi, habelə, onların dillərinin və mədəniyyətlərinin cürbəcürlüyü, Allahın nemətlərindən, Onun dəlillərindən və bu kainatda yaratdığı möcüzələrdəndir. Üstəlik, bu yaradılış, onun əzəmətini və əhəmiyyətini, göylərin və yerin yaradılışı ilə müqayisə etmək üçündür. Buna isə yalnız bilik və düşüncə sahibləri diqqət edərlər (ər-Rum, 22).

> İslam, digər qanunlarda bilinməyən və dünya xalqlarına məlum olmayan yollarla, bəşəri müxtəliflik üçün görüş təqdim edir.



**Muhəmməd aleyhissəlam İslam elçisidir.**

“Ey insanlar! Diqqət edin! Həqiqətən də, Rəbbiniz Təkdir. Bilin ki, hamınızın atası birdir. Nə ərəb əcəmdən, nə də əcəm ərəbdən, eləcə də, nə qırmızıdərili adam qaradərili adamdan, nə də qaradərili adam qırmızıdərili adamdan üstün sayıla bilər. Yalnız təqvalı olmaq istisnadır.”



**Ümumdünya insan hüquqları bəyannaməsi**

O bəyannamə ki, insanların azadlıq, hüquq və ləyaqətlərinin bərabər olduğunu təsdiq edir.

Miladi tarixlə 630-ci il — Miladi tarixlə 1948-ci il



Ən önəmli və ən birinci bəndində insanların azadlıq, hüquq və ləyaqətlərinin bərabər olduğunu qərara alan ümumdünya insan hüquqları bəyannaməsi məhz 1948-ci ildə rəsmi şəkildə qəbul edilmiş, bundan sonra da o bəyannamədə qərara alınanlar tətbiq edilməyə başlamışdır. Halbuki İslam elçisi Muhəmməd – aleyhissəlam – 1400 il bundan əvvəl insanların bərabər hüquqlu olduğunu ucadan elan etmiş və bəşəriyyət üçün yeni dövrün başlandığını qeyd etmişdir. O zaman o, insanlara xitab edərkən demişdir: “Ey insanlar! Diqqət edin! Həqiqətən də, Rəbbiniz Təkdir. Bilin ki, hamınızın atası birdir. Nə ərəb əcəmdən, nə də əcəm ərəbdən, eləcə də, nə qırmızıdərili adam qaradərili adamdan, nə də qaradərili adam qırmızıdərili adamdan üstün sayıla bilər. Yalnız təqvalı olmaq istisnadır” (Əhməd, 23489).

## Ətraf mühitin qeydinə qalmaq imanın bir hissəsidir

Bəzi fəlsəfi nəzəriyyələr insanın mütləq şəkildə bu kainatın ağası olub, orada öz məsləhətinə və istəklərinə uyğun hərəkət etdiyini və onun başı üzərində heç bir hesab çəkənin və ya nəzarət edənin olmadığını hesab edir. Hətta bunlar, kainatın bir hissəsinin fəsada uğramasına və ya məxluqatın bir qisminin məhvinə gətirib çıxarsa belə. Bunun tam əksi olaraq, bəzi nəzəriyyələr insanın o biri məxluqlardan heç bir üstünlüyünün olmadığını, sadəcə milyonlarla müxtəlif məxluqlardan biri olduğunu söyləyir. Bəs İslam dini insanın kainatla əlaqəsinə necə baxır?

İslamın baxışına görə, insanın kainatla təbii əlaqəsi iman və nəzəriyyə təsəvvürləri üzərində qurulur, insan, heyvan, torpaq və təbii ünsürlərlə əlaqələri möhkəmləndirmək üçün olan təfsilatlı əhkamlarıyla da sona yetişir.

O əlaqənin fəlsəfəsində, araşdırıcının diqqətini çəkən ilk məqam, Quranın təsdiqlədiyi müvazinətdir. Belə ki, Allah insanı şərəfləndirmiş və onu digər məxluqlardan fərqli yaratmış (əl-İsra, 70), üstəlik, ətrafındakı məxluqları və kainatı onun ixtiyarına vermişdir ki, onlardan istifadə etsin və onları idarə etsin (İbrahim, 32-33). İnsan milyonlarla digər məxluqlar içində adi bir məxluq deyil ki, onun başqasından fərqi olmasın. Əksinə, o, şərəfli və hörmətə layiq bir məxluqdur. Təbiət insan üçün ram edilmişdir ki, o, ondan istifadə etsin (əl-Bəqərə, 29).

Lakin bunun müqabilində, Quran bizə təkidlə bildirir ki, insan bu kainatın mütləq ağası deyil ki, orada istədiyini etsin. Bir də ki, onun belə bir məqamda durması və digər məxluqlardan fərqli olması, ona kainatda fəsad törətməyə və təbii resurslara xor baxmağa haqq vermir. Çünki mülkün sahibi hər şeyi yaradan İlahdır. İnsanın rolu və onun yeri isə sadəcə Allahın onu kainatda xəlifə bərqərar etməsinə söykənir. Yəni, Allah onu qəyyum etmiş, ona təbii resurslardan faydalanmaq və istifadə etmək haqqı vermiş, üstəlik, ona, insanlara və başqa məxluqlara zərər yetirmədən və fəsad törətmədən, inkişaf və tərəqqiyə nail olmaq üçün səy göstərməyi əmr etmişdir (Hud, 61; əl-Bəqərə, 30)

İslam şəriəti bunu təsdiqləmək üçün yüzlərlə qanunlar və təfsilatlı göstərişlər vermişdir ki, insanla onun ətrafında olan məxluqlar arasındakı o möhkəm əlaqəni tənzimləsin. Aşağıdakıları buna misal çəkmək olar:

## 1. Heyvanların qeydinə qalmaq:

Muhəmməd – aleyhissəlamdan – heyvan haqlarını qorumağa çağıran və onlara yaxşılıq edən kimsənin axirətdə böyük mükafat alacağını xəbər verən, həmçinin, onlara əziyyət verməyi qadağan edən və bunu edən kimsənin çox şiddətli ilahi əzaba düçar olacağını bildirən bir çox hədislər varid olmuşdur.

Heyvan haqlarını qoruyan ilk təşkilat miladi tarixlə 1824-cü ildə, "Heyvan haqlarını qoruyan kral təşkilatı" adı ilə Britaniyada təsis edilmişdir. Müasir dövrdə isə, heyvanlara əziyyət verməyin cinayət olduğunu bildirən ilk qanun miladi tarixlə 1949-cu ildə Britaniyada təsdiq edilmişdir. Halbuki, İslam 14 əsr bundan əvvəl, heyvanlara əziyyət verməyi haram buyurmuş və bu əməli cinayət adlandırmışdır. Belə ki, ayrı-ayrı hədislərdə, Muhəmməd – aleyhissəlamdan, – heyvanı ac saxlamağın, yaxud ona əzab verməyin, yaxud onu taqətindən artıq yükləməyin, yaxud əylənmək məqsədilə ona əziyyət verməyin, hətta, onun üzünə vurmağın haram buyurulmasına dair, habelə, İslam fiqhinə aid yazılmış kitablardakı buna bənzər məşhur əhkamlarla bağlı bir çox misallar zikr edilmişdir.

Ola bilsin ki, oxucu, Muhəmməd – aleyhissəlamın – insanlara dediyi sözə nəzər salmaqla, İslam dininin heyvanla nə dərəcədə yumşaq davranmağa diqqət yetirdiyini başa düşsün. O, demişdir: "(İslamda ən böyük haramlardan sayılan) zinaya aludə olmuş bir qadın, susuzluqdan az qala öləcək bir köpək gördü və onun halına acıyaraq ayaqqabısını çıxardıb onunla quyudan su çıxartdı və o suyu itə içizdirdi. Buna görə də Allah onu bağışladı" (əl-Buxari, 3280).




## 2. Bitkilərin qeydinə qalmaq:

İslam dini, insanı, – istər öz xeyri üçün olsun, istərsə də, bu kainatdakı bəşərdən və məxluqlardan olan başqalarının xeyri üçün olsun, – bitkinin qeydinə qalmağa və əkinçiliyə təşviq etmişdir.

Muhəmməd – aleyhissəlamın – bizə xəbər verdiyi bu hədis də buna aiddir: kim (ağac, taxıl və s.) əkər və ya məxluqatın istifadə etməsi məqsədilə, bu işdə iştirak edər, daha sonra quşlar, insanlar və heyvanlar onun məhsulundan yeyərsə, bu onun üçün sədəqə sayılar (əl-Buxari, 2320).

Üstəlik, möhtərəm Peyğəmbər – aleyhissəlam – müsəlmanı, ən ağır və ən çətin hallarda, hətta, zəhmətinin bəhrəsini görməyəcəyini yəqin etmiş olduğu halda belə, ətrafdakıların qeydinə qalmaq, torpağı canlandırmaq və onu əkib-becərmək xüsusunda əlindən gələni əsirgəməməyə çağırıb demişdir: "(Kainatda baş verəcək ən əzəmətli hadisə) Qiyamət qopduğu zaman sizdən birinizin əlində körpə xurma ağacı olarsa və onu əkməyə macal taparsa, qoy, onu əksin ki, bu onun üçün sədəqə sayılsın!" (Əhməd, 12981).

İslam dini, ən ağır və ən çətin hallarda belə, torpağı əkib-becərməyi və onu canlandırmağı, vəziyyət nə qədər ağır olsa da, onu baxımsız buraxmamağı, məqsədə və ibadətə aid etmişdir.

## 3. Təbii resursların qeydinə qalmaq:

İslam, ətraf mühiti qorumağı, təbii resurslara xor baxmamağı, təbiəti çirkləndirməməyi və onu korlamamağı buyurur. O, həmçinin, bəşəriyyətə "Müalicədən öncə qorumaq" prinsipinə uyğun kamil proqram təqdim edir. Buna, şəxsi təmizliyə baxmağı və onun xırdalıqlarına riayət etməyi, habelə, təbii resursları qorumağı, ondan istifadə etdikdə qənaət etməyi, onu korlamağın və çirkləndirməyin cinayət olduğunu aid etmək olar. Aşağıdakıları buna misal çəkmək olar:

- İslam, təbii resurslardan istifadə etdikdə israfa yol verməyi haram buyurmuşdur. Bu sərvətlərin ən dəyərlisi su hesab olunur. Hətta Allaha ibadət məqsədilə dəstəmaz aldıqda (namazdan əvvəl müəyyən əzaları yuyanda) belə israfa yol vermək haramdır.
- İslam, həmçinin, güc və nüfuz sahiblərinə təbii sərvətlərin istifadəsində möhtəkirlik etməyi qadağan etmişdir. Çünki bu iş başqalarına zərər verir. (Məsələn, təbii sərvətlərdən) suyun, (enerji mənbələrindən) odun, (bitkilərdən də) otun inhisarını haram etmişdir (Əbu Davud, 3477).
- O, həmçinin, ətraf mühiti korlayan hər bir şeyi qadağan etmişdir. Məsələn, durğun suya bövl etmək. Səbəbi də budur ki, sidik o suyu çirkləndirir. Yaxud, kölgəliklərdə və yollarda təbii ehtiyacı rəf etmək. Səbəbi də budur ki, o yerlər insanların gediş-gəliş yoludur, yaxud onların səfər yorğunluğunu çıxarmaq və çətinliyini aradan qaldırmaq üçün dincəldikləri yerlərdir.

Bunlar sadəcə misal çəkdiyimiz az bir şey, üstəlik də, dində qəribə sayılmayan işlərdir. İslamın möhtərəm elçisi, ətraf mühiti çirkablardan təmizləməyi və əziyyət verən şeyləri yoldan kənarlaşdırmaqla yaxşı işlər görməkdə iştirak etməyi, saleh əməl saymaqdan əlavə, həm də, iman mahiyyətinin bir hissəsi hesab etmişdir (Muslim, 35)

## Elm dini:

Qurandan Peyğəmbər – aleyhissəlama – nazil edilmiş ilk sözün “Oxu!” kəlməsi olması, təsadüf olmamışdır. Qurani Kərimdə və Allahın rəsulu Muhəmməd – aleyhissəlamın – kəlamında, İslamın, bəşəriyyət üçün faydalı olan hər növ elmin öyrənilməsinə dayaq verdiyini təkid edən ayələr və hədislər varid olmuşdur. İş o yerə çatmışdır ki, müsəlmanın elm və mərifət öyrənmək məqsədilə getdiyi yol, onu Cənnətə aparan yol hesab edilmişdir. Bu xüsusda Peyğəmbər – aleyhissəlam – demişdir: “Kim elm öyrənmək məqsədilə yola çıxarsa, Allah bunun sayəsində onun üçün Cənnətə gedən yolu asanlaşdırar” (Muslim, 2699)

Möhtərəm Peyğəmbər heyrətamiz bir müqayisə ilə belə bir açıqlama vermişdir: sözsüz ki, alimin ibadətə sarılan kimsə üzərində olan fəziləti, möhtərəm peyğəmbər Muhəmmədin, fəziləti ən az olan insan üzərindəki üstünlüyü kimidir (Tirmizi, 2685).

Odur ki, başqa dinlərdən fərqli olaraq, İslam heç vaxt dinlə elmin arasına ədavət salınmasına yol verməmişdir. Qaranlıq əsrlərdən fərqli olaraq, (İslam tarixində) alimlər dünyəvi elmlərə aid irəli sürdükləri rəylərə və çıxardıqları nəticələrə görə heç vaxt mühakimə edilməmişlər. Tam əksinə, İslam dini, özü elmin çırağı olmuş, ona dəstək vermiş, öyrənmək və öyrətmək xüsusunda elmə dəvət etmişdir. Elm və mərifət bəşəriyyətə xeyir verdiyi müddətcə, məscidlər hər növ xeyirli elm və mərifət yoluna nur saçan çıraqlar olmuşdur.

Belə olduğu təqdirdə, biz təbiət elmləri ilə məşğul olan alimlərin çoxunun müsəlmanlar olduğuna təəccüblənmirik. O alimlər ki, həyatlarına Quranı öyrənmək və onu əzbərləməklə, habelə, dini öyrənməklə başlamış, daha sonra isə elmi fəaliyyətlərinə və dəqiq ixtisaslarına qədəm qoymuşlar.

Allah insanlara xeyir öyrədən alimin şənini ucaltmış və ən yüksək səviyyədə onun başına tac qoymuşdur. Hətta Peyğəmbər – aleyhissəlam – demişdir ki, bütün məxluqat insanlara xeyir öyrədən alim üçün dua edir (Tirmizi,2685).



**Təbiət və tibb elmləri ilə məşğul olan alimlərin əksəriyyəti müsəlmanlardır. O alimlər ki, həyatlarına Quran öyrənməklə başlamış və elə Quran da onları digər elmlərlə dərindən məğul olmağa dəvət etmişdir.**

**Müsəlman alimlərindən bəzisi bunlardır:**



1. **əl-Xarəzmi** (miladi 790-850 Bağdad), riyaziyyat, həndəsə və astronomiya alimi, üstəlik, cəbr elminin banisidir. Onun kitabları vaxtından tez tərcümə edilib digər mədəniyyətlərə keçmiş, hətta, onun sayəsində الجبر-Algebra və الصفر-Zero kimi bəzi ərəb kəlmələri latın dilinə keçmişdir.



2. **İbn əl-Heysəm** (miladi 965-1040 Qahirə), fizika və həndəsə alimidir. O, Əzhar universitetinə bağlı olmuş və optika (fizikanın işıq bəhsi) elminə dair ən böyük tədqiqatı təqdim etmişdir. Fotokameranın ilk formasının ixtirası ona nisbət edilir. Tədqiqatçıların çoxu təsdiqləyir ki, bir çox dillərdə yayılmış "kamera" sözü, məhz ərəbcə "qumra" sözündən götürülmüşdür. Qumra: İbn əl-Heysəmin ixtira etdiyi işıq otağının adıdır.



3. **əl-Biruni** (miladi 973-1048 Xarəzm), böyük astronomiya alimidir. O, yerin öz oxu ətrafında fırlandığını deyən, üstəlik, yerin cazibə qüvvəsi olduğuna işarə etmiş ilk astronomdur.





4. **əz-Zəhravi** (miladi 936-1013 Əndəlüs), müsəlman təbib və cərrah. Cərrahiyyə elmi onun sayəsində inkişaf etmişdir. O, hətta, yüzlərlə cərrahiyyə aləti ixtira etmiş və onları öz kitablarında təsvir etmişdir. Nəhayət, sonrakı əsrlərdə onun kitabları müxtəlif dillərə tərcümə edilərək tibb və cərrahiyyə sahəsində əsas mənbəyə çevrilmişdir.



5. **İbn Sina** (miladi 980-1037 Buxara), beynəlxalq aləmdə Avisenna kimi tanınmış, məşhur təbib və filosofdur. O, bir çox tibbi təzahürləri (naməlum xəstəlikləri) və onların müalicəsini müəyyən etməkdə digərlərini qabaqlamışdır. O, həmçinin, öz araşdırmaları və tibbi tədqiqatları ilə elmi təcrübə sahəsində yüksək məqama çatmışdır. O tədqiqatlar ki, ona dəqiq nəticələr əldə etməyə yol açmış, bunun sayəsində o, digərlərini qabaqlamış və o tədqiqatlar günümüzə qədər gəlib çatmışdır. Bu nailiyyətlər onun "əl-Qanun" adlı kitabında aydın şəkildə özünü büruzə verməkdədir. O kitab ki, düz yeddi əsr tibbin öyrənilməsində əsas mənbə olaraq qəbul edilmiş və on yeddinci əsrin ortalarınadək Avropa universitetlərində tədris olunmuşdur.

İbn Sina tibb sahəsində məşhurlaşdıqdan sonra öz insani baxışlarına görə, həm də, Allahın ona bəxş etdiyi elm və mərifətə şükür əlaməti olaraq, xəstələri havayı müalicə etməyə başlamışdır .



6. **İbn ən-Nəfis** (miladi 1213-1288 Dəməşq), şəriət və fiqh elmlərinə yiyələnmiş, eyni zamanda da, ən böyük tibb alimlərindən olmuş və bədən orqanlarının gördüyü işləri bilməklə tarixə düşmüşdür. Belə ki, o, kiçik qan dövranını incəliklərinə qədər kəşf etmiş, onu dəqiqliklə müəyyən etmiş və bir neçə tibbi nəzəriyyə qoyub getmişdir ki, indiyədək, həmin nəzəriyyələrin çoxuna əməl edilir.

## İslam insana aid olan bütün sahələri əhatə edir:

İnsanların çoxu biləndə ki, İslam dini onların tanış olduqları digər dinlərdən fərqli olaraq, təkcə ayinlərdən, əməllərdən və əxlaqla bağlı ümumi göstərişlərdən ibarət deyil, buna təəccüb edirlər.

İslam, əsl həqiqətdə, müsəlmanların ancaq məscidlərdə dua etmək və namaz qılmaqla yerinə yetirdikləri ruhi tələbatlardan da ibarət deyil.

O, həmçinin, təkcə dinlə əlaqəli rəylərdən, etiqadi məsələlərdən və dindarların inandıqları məntiqdən də ibarət deyil.

Habelə, təkcə təkmilləşmiş iqtisadi qaydalardan, yaxud ətraf mühitlə bağlı nizamlardan da ibarət deyil.

Eləcə də, təkcə nizam-intizam yaratmaq və cəmiyyəti düzəltmək üçün qoyulmuş qayda-qanunlardan və nəzəriyyələrdən də ibarət deyil.

Həmçinin, ancaq əxlaqi davranışlardan və başqalarına qarşı olan davranış tərzlərindən ibarət bir bağlama da deyil.

Lakin İslam həyatın, – hər bir səviyyə dərəcəsi və görüş dairəsi də daxil olmaqla, – bütün sahələrinə aid olan mükəmməl bir yoldur. Hərçənd, İslam, bunların hamısını və bundan başqasını də əhatə edir, lakin bununla belə, o, insanlara, onların həyat tərzini asanlaşdıracaq azadlığını məhdudlaşdırmır ki, onlar ixtira etmək, bina inşa etmək və mədəniyyət sahəsini inkişaf etdirmək kimi görəcəkləri işlər üzərində fikirlərini cəm edə bilsinlər. Bu da Allahın öz qullarına bəxş etdiyi ən böyük nemətlərdən biridir. Necə ki, Quran buna təkid edir (əl-Maidə, 3).

Bir zaman qeyri-müsəlmanlardan birisi istehza edərək, möhtərəm Peyğəmbərin Salman əl-Farisi adlı səhabəsinə: "Dostunuz (yəni Rəsulullah) sizə hər şeyi, hətta, təbii ehtiyaclarınızı rəf etməyi də öyrədib?"– demiş, hörmətli səhabə də ona: "Bəli, bunu da öyrədib"– deyə cavab vermiş, sonra da, bu məsələyə dair İslam əhkamlarını və ədəblərini ona bildirmişdir (Muslim, 262).



## Dünya və axirət:

Qədim misirlilər ölünü mumiyalayar, sonra, onun bütün qiymətli əşyalarını onunla birlikdə sərdabəyə qoyar və elə güman edərdilər ki, ölümdən sonra gələn o biri həyatında onun bu əşyalara ehtiyacı olacaq.

Bunun tam əksinə, Tibetdə elə tayfalar olub ki, onlar ölülərinin cəsədlərini tikə-tikə edər, sonra da, o ət parçalarını quşlara və vəhşi heyvanlara yem olaraq hündür yerlərə qoyardılar.

Hindular indi də, ölülərinin cəsədlərini yandırır və etiqad edirlər ki, bu, ölülərinin ruhlarını xilas edən yeganə yoldur.



Bunlar sadəcə ölüyə yas qurma və onunla vidalaşma mərasimlərinə dair gətirdiyimiz bəzi bəsit misallardır. Ayrı-ayrı zamanlarda və məkanlarda, bu mərasimlər insanların ölümdən sonrakı həyat xüsusundakı dini baxışlarına və etiqadlarına görə dəyişmiş və fərqli qaydalarda yerinə yetirilmişdir. Bu hadisələrlə bağlı cavabını axtardığın bəzi dərin suallar bunlardır... Ölümdən sonra başqa bir həyat varmı? O həyatda yaşayış necədir? Orada bizim nəyə ehtiyacımız olacaq?

Bu ona görədir ki, ölümdən sonrakı həyata inansaq da, gördüyümüzə və duyğu orqanlarımızla toxunduğumuza əsasən düşüncələrimiz məhdud olsa da (yəni ölümdən sonrakı həyata inanmasaq da), habelə, gələcək ölüm anını qarşılamaq üçün hazırlıq görsək də, bir çox əyləncələr və məşğuliyyətlər sayəsində onu unutmağa və ondan qafil olmağa can atsaq da, fərqi yoxdur, insanların hamısı ölümün ən böyük həqiqət olduğunu və heç bir istisnasız hər kəsi gözlədiyini tərəddüdsüz qəbul edir.



Axıra elə bir sual qalır ki, qəflətin və unutqanlığın bütün növlərinə əks təsir göstərir və insan hər dəfə öz nəfsi ilə təklikdə qaldıqda, bu sualı təkrar-təkrar özünə verir: Məgər bu həyat sondurmu, bundan sonra heç nə yoxdurmu? Məgər bizim mövcudluğumuz boş-boşunadırmı?

Ağlımıza tez-tez elə bir sual da gəlir ki, Quran onu müxtəlif üslublarla bizə təkrar-təkrar xatırladır, eyni vaxta da, insanların çoxunun Qiyamət günü peşman olacağını və heyifsilənəcəyini xəbər verir. Çünki onlar bu suala cavab verəcəkləri barədə heç düşünməmiş və dünyadan köçməyə hazırlıq görməmişlər. Həmin gün bəziləri deyəcək: Kaş axirət həyatım üçün əvvəlcədən hazırlıq görəydim; başqaları da belə deyəcək: Kaş torpaq olaydım, (əl-Fəcr, 24, ən-Nəbə, 40).

Məlumdur ki, səmavi dinləri təmsil edənlərin hamısı axirət həyatına, üstəlik, o həyatda veriləcək mükafata və cəzaya inanır. Çünki bu, bütün peyğəmbərlərin gətirdiyi (risalətlərin) mənasıdır, üstəlik, ağıl da təsdiq edir ki, hər bir insanın sorğusuala çəkiləcəyi, sonra da, etdiyi xeyir və ya şər əməllərə görə mükafatını və ya cəzasını alacağı axirət həyatı olmasa, nə

dünya həyatının, nə dinin, nə də ki, əxlaqi dəyərlərin mənası ola bilər.

Bununla belə, insanların çoxu elə güman edir ki, din və ibadətlə yanaşı var-dövlət qazanmaq, həyatdan zövq almaq və dünyəvi işlərdə inkişaf etməklə məşğul olmaq mümkün deyil. Gecə ilə gündüzün bir araya gəlməsi mümkün olmadığı kimi, bu ikisinin də, eyni zamanda bir araya gəlməsi mümkün deyil. Ya burada olmalıdır, ya da orada...

Bu insaların heyrəti bitmir, hətta onların bəzisinə, İslam əqidəsində ibadətlə, həyatdan zövq almaq arasında və ya ibadətlə, var-dövlət qazanmaq arasında heç bir maneənin mövcud olmadığını təsdiqləmək ağır gəlir. Möhtərəm rəsul Muhəmməd – aleyhissəlam – bizə xəbər verir ki, əgər insan yaxşı niyyətlə, istənilən bir sahədə saleh əməl etsə, axirət günü bu əməlin mükafatını alar, hətta, bu, insanların yolundan tikanı kənarlaşdırmaq, yaxud, həyat yoldaşının ağzına loxma qoymaq olsa belə (əl-Buxari, 56).

Möhtərəm rəsul Muhəmməd – aleyhissəlam – xeyir qapılarının çoxşaxəli olub sonu olmadığını xəbər verərkən, bir əməli misal çəkmiş və bu misal onun səhabələrini heyrətə gətirmişdir. O vaxt ki, o: “Sizdən biriniz öz zövcəsi ilə yaxınlıq etdikdə, ona savab yazılır”– demiş, səhabələri də ondan: “Yaxınlıq etməyin savab qazanmaqla nə əlaqəsi var?”– deyə soruşmuşlar. Onda möhtərəm rəsul onlara belə demişdir: “Məgər haram yolla yaxınlıq etdikdə, buna görə günah qazanmır?” Onlar: “Bəli!”– deyə cavab verdikdə, o: “Bu işi görmək üçün halal yol seçdiyinə görə də, ona savab yazılır”– demişdir (Muslim, 1006).

Odur ki, İslamla tanış olmaq istəyən hər kəs ilk baxışdan, dünya həyatı ilə axirət həyatı arasında tarazlıq olduğunu sezə bilər. Necə ki, Quran bunu vəsf edir: belə ki, o, eyni vaxtda, insanları, həm axirətdə savab qazanmaları üçün ibadət etməyə, həm də, Allahın lütfünə nail olmaq üçün dünyada səy göstərməyə təhrik edir (əl-Cumuə, 9-10); beləcə, adam gördüyü dünyəvi işlərdə Allahın rizasını qazanmağı qəsd etdiyinə görə əcr və savab qazanmağa layiqdir. Müsəlmana əmr edilmişdir ki, öz vəzifəsində və öz işində çalışarkən, ruzi qazanarkən, övladlarını tərbiyə edərkən, öz sağlamlığının, ətrafındakıların və cəmiyyətin inkişafının qeydinə qalarkən Allaha ibadət etdiyini qəsd etsin. Necə ki, namaz qılarkən, sədəqə verərkən və oruc tutarkən Allaha ibadət etdiyini qəsd edir.

Can rahatlığının və daxili arxayınlığın sirlərindən biri də, elə budur. O rahatlıq ki, müsəlman kəs öz həyatı ilə axirəti arasındakı, habelə, dünya zövqü ilə ibadəti arasındakı tarazlığı saxlamaqla onu hiss edir. Bunları nə tam şəkildə bir-birindən ayırmaq, nə də, tam şəkildə bir-birinə calamaq, sadəcə birini digəri ilə tamamlamaq gərəkdir.

Beləcə, Quran bizim üçün müsəlmanın, İslam ideologiyasını özündə cəm edən şüarını təsdiqləyir və müsəlmana onu ucadan bu şəkildə elan etməyi buyurur: “Mənim bütün həyatım cəmi əhvalı ilə bərabər Allah üçün ibadətdir. Təkcə namazım və ibadətim Allah üçün olduğunu deyil, üstəlik, həyatımın bütün sahələrinin Allah üçün olduğuna ümid edirəm. Mən öləndən sonra Allah əməllərimə görə məni mühakimə edəcək və onların əvəzini mənə tam verəcək. Məhz bu etiqadla Allahın əmrinə və Onun İslam dininə sarılıram” (əl-Ənam, 162).



## Qarşılıqlı əlaqə qurma və birgə iş görmə dini:

Müsəlman səyyahı Əhməd ibn Fədlanın Rusiya, Danimarka və Skandinaviya ölkələrinin bir çox yerləri barədə təsviri, bu ölkələrdə yaşayan insanların həyat tərzi və onların xasiyyəti haqqında dünyaya məlum olan ilk dəqiq təsvir və təhlil sayılır.

Belə ki, Əhməd ibn Fədlan miladi tarixlə 921-ci ildə, orta əsrlərdə sivilizasiyalararası əlaqələr yaradan, ən mühüm səfərlərdən sayılan maraqlı bir səyahəti həyata keçirmişdir. O, orta əsrlərdə elm və mədəniyyətin beşiyi sayılan Bağdaddan yola çıxmış, bir çox məmləkətlərdən və qəbilələrdən ötüb-keçmiş və nəhayət, öz müşahidələrini və yaşadığı hadisələri öz “Risalə”sində qeyd etmişdir. Bu risalə ilk dəfə 1923-cü ildə, Rusiyada tapılmış əlyazmaya əsasən çap edilmişdir.

Amerikalı alim Maykl Kraytonun dediyinə görə, İbn Fədlanın qeydlərinin əhəmiyyətli olmasının səbəbi budur ki, Bağdaddakı müsəlmanlar özlərinin dininə möhkəm bağlı olmalarına rəğmən, şəhərin qapıları, xarici görkəm, məslək və əqidə baxımından bağdadlılara yad olan digər xalqların üzünə həmişə açıq idi. O dövrdə bağdadlıları geridə qalmış xalq adlandırmaq olmazdı. Elə buna görə də, onların xarici mədəniyyətlərə aid müşahidələri olduqca dəyərli hesab olunur.

Maykl Krayton “Ölüləri yeyənlər”

İslam dini insanların mədəniyyətlərinin və dinlərinin fərqli olmasına baxmayaraq, onları inşaat və mədəniyyət sahəsində, islahat işlərində, bir-birinə qaynayıb-qarışmaqda və bir-birilə qarşılıqlı münasibət qurmaqda ən ali əxlaqi davranışlar və ən gözəl rəftarlar nümayiş etdirərək birgə çalışmağa çağırır. Həmçinin, bildirir ki, insanlardan ayrılmaq və uzaq durmaq doğru İslamın yolu deyil. Elə buna görə də Rəsulullah Muhəmməd – aleyhissəlam – insanlara qaynayıb-qarışan, üstəlik, onların əziyyətlərinə və xətalarına səbir edən kimsəni, insanlardan ayrılan və onlardan uzaq duran kimsədən daha xeyirli hesab etmişdir (İbn Macə, 4032).



# Tək xaliq... Təkməbud

İslam dini təkidlə bildirir ki, nəzəri etiqadın olması, (qəlbdə) imanın olması üçün kifayət deyil. Əgər Allah vahid yaradandırsa, onda Onun vahid ilah və vahid məbud olması da, labüddür.

**Ərəb dilində "Allah" kəlməsi, bir-birilə əlaqəli olan üç mənanı ifadə edir:**

- məbud; (o ibadət edilən ilah) ki, insanlar öz namazlarını və oruclarını, qəlblərindən keçənləri və ibadətlərinin hamısını, ixlasla məhz Onun rizasını qazanmaq üçün yerinə yetirirlər.
- həm zatı, həm sifətləri, həm şəni əzəmətli olan bir İlah. Belə ki, bu əzəmət barədə düşündükdə ağıl heyrətə gəlir və onu dərk etməkdə aciz qalır.
- o ilah ki, qəlblər Ona bağlanır, könüllər Ona qovuşmağa çalışır və Onu zikr etməklə tənhalığa son qoyur, üstəlik, Ona yaxınlaşmaq və Ona ibadət etməkdən zövq alır.

Quran təkidlə bildirir ki, Allah barədə təsəvvürü doğru istiqamətə yönəltmək, üstəlik, onu Allahın böyüklüyünü və əzəmətini kiçildən bütün təhriflərdən və iftiralardan təmizləmək labüddür.

Quran izah verdiyi kimi – Allah kainatı yoxdan yaradan və onu nizama salan Xaliqdir. Kiçikliyindən asılı olmayaraq kainatda nə əmələ gəlirsə, bu, Onun yaratdığıdır və məhz Onun istəyi, əzəli hökmü və elmi ilə hasilə gəlir. Onun xəbəri və istəyi olmadan məxluqatdan heç bir dişi nə hamilə qalar, nə də barı-həmlini yerə qoyar. Həmçinin, yerə enən elə bir damla yağış, yaxud bu kainatın istənilən bir yerində gecə və ya gündüz, gizlində və ya aşkarda baş verən elə bir hadisə yoxdur ki, Allah onu öz elmi, qüdrəti və rəhməti ilə əhatə etmiş olmasın (Fussilət, 47, əl-Ənam, 59).

Pak və müqəddəs Allahın sifətlərinin hamısı ən gözəl, ən kamil və ən yaraşıqlı sifətlərdir. O, gücünə heç kəsin gücü çatmadığı qüvvət sahibi, öz rəhməti ilə hər şeyi əhatə edən mərhəmət sahibi və heç bir nöqsanı olmayan əzəmət sahibidir.



Quran təsdiq edir ki, hər bir şey, hətta, yağış damlaları və ağac yarpaqlarının yerə düşməsi Allahın elmi və qüdrəti ilə hasil olur.



İslamda gün kimi aydın məsələlərdən biri də, Allahdan qeyrisinə yox, tək Allaha ixlasla ibadət etməyin vacibliyidir. Bu da, Quranın təsdiq etdiyi kimi, bütün peyğəmbərlərin dəvətidir.

Bəziləri iddia edəndə ki, Allah göyləri və yeri altı günə yaratmış, sonra da, yeddinci gün istirahət etmişdir, Quran bu iddiaları aydın şəkildə belə təkzib etmişdir: "Biz göyləri, yeri və onların arasında olanları altı gündə yaratdıq və Bizə heç bir yorğunluq üz vermədi" (Qaf, 38). Bu iddia və buna bənzər iftiralar sadəcə insan ağlının Allahı məxluqata bənzətməsindən irəli gəlir. Yoxsa ki, Allah Xaliqdir, Ondan savayı nə varsa, hamısı məxluqdur. Belə olduğu təqdirdə, məxluq Xaliqinə necə bənzəyə bilər?! "Onun heç bir bənzəri yoxdur. O, Eşidəndir, Görəndir" (əş-Şura, 11).

Pak və müqəddəs Allah, heç kəsə zərrə qədər zülm etməyən ədalətli hakimdir. Bu həyatda Allah tərəfindən nə görürüksə, hamısı bizə Onun hikmətini və lütfünü göstərir. Necə ki, uşaq valideynləri ilə öz arasındakı düşünmə qüdrətinin olduqca fərqli olduğuna görə, onların gördüyü bəzi işlərin hikmətini görmür, o işlərin nə mahiyyətini anlaya bilir, nə də buna izah verə bilir, eləcə də, insan ağlı Allahın bəzi məxluqatı nə üçün yaratdığının və niyə belə istədiyinin hikmətini dərk edə bilmir.

İslam dini təkidlə bildirir ki, nəzəri etiqadın olması, (qəlbdə) imanın olması üçün kifayət deyil. Əgər Allah vahid yaradandırsa, onda Onun vahid ilah və vahid məbud olması da, labüddür. Elə isə istənilən ibadəti və duanı Allahdan qeyrisinə yönəltmək düzgün deyil, əksinə, heç bir vasitəçi və ya şəfaətçi tutmadan, ixlasla yalnız pak və müqəddəs Allaha ibadət etmək gərəkdir. Çünki yaradan Allah daha əzəmətli və daha böyükdür (vasitəçiyə və şəfaətçiyə ehtiyacı yoxdur).

Hərçənd dünyadakı padşah və ya başçı, ehtiyaclı və zəif insanları tanımaq, sonra da, onlarla görüşmək üçün, əlbəttə ki, yalnız öz müavinlərinə, köməkçilərinə və özünə yaxın olanlara müraciət edir ki, rəiyyətin halından xəbər tutsun, onlara yardım etsin və onlara düzgün istiqamət versin, lakin pak və müqəddəs Allah aşkarda və gizlində olan hər şeyi bilir. Qüvvətli, mülkün sahibi və hər şeyə qadir olan da, məhz Odur. Bütün kainat Onun əlindədir və Onun idarəçiliyi altındadır. O, bir şeyin olmasını istədikdə, ona sadəcə: "Ol!"- deyir, o da olur. Elə isə başqasına üz tutmaq nəyə gərəkdir?

Quran təsdiqləyir ki, müsəlman bəndə Rəbbinin hüzurunda durub öz ehtiyaclarını yalnız Ondan istəməyincə, nə tam şəkildə qəlbi rahatlıq tapa bilər, nə də ki, köksü açılıb genişlənə bilər. Allah hər şeyə qadirdir, əzəmətlidir, öz qullarına xeyir istəyəndir, onlara lütf edəndir və onlara yaxındır. O Allah ki, qullarının Ona dua etməsinə sevinir, Ona sığındıqları və Ona müti olduqları qədər, onlara yardım edir və onları mükafatlandırır (əl-Bəqərə, 28, ən-Nəml, 62-63).

Odur ki, İslamda gün kimi aydın məsələlərdən biri də, Allahdan qeyrisinə yox, tək Allaha ixlasla ibadət etməyin vacibliyidir (ən-Nəhl, 36). Bu da, Quranın təsdiq etdiyi kimi, bütün peyğəmbərlərin dəvətidir. Nə bir rəsul, nə bir mələk, nə də bir övliya, nə qədər əməlisaleh olursa olsun, onların Allahla qulları arasında vasitəçi olduqlarına etiqad edib onlara dua etmək olmaz. Çünki son nəticədə onların hamısı Allahın yaratdığı məxluqlar və Onun qullarıdır. Allah isə öz qullarına yaxındır, onların dediklərini eşidir və nə vaxt ixlasla Ona – pak və müqəddəs Allaha ibadət edirlərsə, onların dualarını qəbul edir.

Heç ola bilərmi ki, Allaha ixlasla ibadət edən kəs, səadət və sevincin şirinliyini dadmasın?! Bu işdə nə dağınıqlıq, nə də ziddiyyət ola bilər. Mülkün sahibi də təkdir, yaradan da təkdir, məbud da təkdir. Odur ki, başqasına yox, yalnız pak və müqəddəs Allaha yönəlmək və yalnız Ona sığınmaq gərəkdir.

Bu deyilənlər, Quranın ən əzəmətli və ən məşhur surələrindən biri olan kiçik bir surənin mənasıdır. Bu da, "əl-İxlas" surəsidir.

### "əl-İxlas" surəsi

Allah öz peyğəmbəri Muhəmmədə buyurur ki, sanki: "Kimdir Allah?" sualına cavab verirmiş kimi, bu surəni aydın şəkildə elan edib desin:

- Şübhəsiz ki, Allah təkdir və ibadətdə Onun heç bir şəriki yoxdur.
- Yaradılanların hamısı yalnız Allaha etimad etməli və öz ehtiyaclarını istəmək üçün yalnız Ona sığınmalıdır.
- Allah övladı olmaqdan və ya doğulmaqdan (bu bəşəri xüsusiyyətlərdən) uzaqdır. O, özündən əvvəl heç bir şey olmayan əl-Əvvəldir.
- Allahın zatında və sifətlərində Onun heç bir tayı-bərabəri və bənzəri yoxdur. Belə ki O, Xaliqdir, Ondan savayı nə varsa, hamısı məxluqdur.







### Təbiət qanunu ilə şəriət qanunu arasında

Bədənimizdəki kiçik hüceyrələrdən, hətta bundan da, kiçik şeylərdən başlayıb, qalaktikanın ən uzaq nöqtəsində, – rəsəd borusu (teleskop) vasitəsilə müşahidə edilən, – olduqca dəqiq, həm də, kamil və heyrətamiz nizamla hərəkət edən göy cisimlərində sonu görünən, içində yaşadığımız bu kainatı, Allah yoxdan yaratmışdır. Onsuz bu həyatın və təbiətin düzəlməsi mümkün deyil. Təbiətşünasların çoxu təsdiq edir ki, kainatda qurulmuş bu nizamda, azacıq da olsa, bir pozuntu əmələ gələrsə, hökmən dağılıb altüst olar.

Müsəlman inanır ki, dəqiqliyi və kamilliyi adamı heyran edən bu heyrətamiz nizamı yoxdan yaradan Xaliq – məhz O, şəriət qaydalarından, əhkamlardan və həyat qanunlarından nəyin öz yaratdıqları üçün daha məsləhətli olduğunu yaxşı bilir. Onun yer üzündə qanunlaşdırdığı bu din, yeganə nizamdır ki, onun sayəsində bəşəriyyətin güzəranı düzəlir və onların bir qismi digərinin zülmündən yaxa qurtarır. Allah Quranda bildirir ki, kainatı və bəşəriyyəti yaradan xaliq, onların güzəranını düzəldəcək işləri daha yaxşı bilir: "Heç ola bilərmi ki, yaradan Allah, hər şeyi incəliyinə qədər bildiyi, hər şeydən xəbərdar olduğu halda, gizlində və aşkarda olanları bilməsin?!" (əl-Mulk, 14).



## İslamda ruhanilik yoxdur

Biz görürük ki, bir çox dinlərdə bəzi fərdlərə dini işlər xüsusunda digər dindarlar üzərində üstünlük verilib, üstəlik, onların ibadəti və imanı həmin fərdlərin razılığına və istəyinə bağlanıb. O dinlərə görə, bu fərdlər, sıravi dindarlarla ilah arasında vasitəçi sayılırlar. Onların etiqadlarına görə, bu fərdlər günahları bağışlamağı bacarır, bəzən qeybi də, bilirlər. Sıravi dindarlar o ruhanilərə müxalif olmağı açıq-aydın xəsarətə uğramağa səbəb hesab edirlər.

İslama gəldikdə isə, bu dində əsla “ruhani” deyilən bir vəzifə yoxdur. Bu din insanı şərəfləndirmiş, onun şənini ucaltmış və onu Allahla öz arasında vasitəçilik edəcək istənilən mənəvi hökmranlıq asılılığından azad etmiş, üstəlik, insaların səadətinin, onların tövbəsinin və onların ibadətlərinin müəyyən şəxslərə, – o şəxslər nə qədər fəzilətli və necə əməlisaleh olsalar belə, – bağlı olmasını batil hesab etmişdir.

O, həmçinin, insanı, özünün məxsusi olaraq dini elmlərə sahib olduğunu iddia edən istənilən elmi hökmranlıq asılılığından da, azad etmişdir. Biz görürük ki, Quran dini öyrənməyi və Quranı başa düşməyi insanlar üçün sadəcə bir öhdəlik yox, əksinə, bunu onlara vacib hesab etmiş, bütün müsəlmanlara Quran oxumağı, onu başa düşməyi, ayələrin mənası barədə düşünməyi, sonra da, ona əməl etməyi buyurur (Sad surəsi, 29).

İbadətlər və iman, insanla öz Rəbbi arasında olur. Odur ki, bu xüsusda heç bir insanın nə bir üstünlüyü, nə də bir vasitəşilik haqqı ola bilər.

> İslam insanı şərəfləndirmiş, onun şənini ucaltmış və onu Allahla öz arasında vasitəçilik edəcək istənilən mənəvi hökmranlıq asılılığından azad etmiş, üstəlik, insanların səadətinin, onların tövbəsinin və onların ibadətlərinin müəyyən şəxslərə, – o şəxslər nə qədər fəzilətli və necə əməlisaleh olsalar belə, – bağlı olmasını batil hesab etmişdir.



Belə ki, Allah subhanəhu öz qullarına yaxındır, qulunun duasını eşidir, ona cavab verir, onun ibadətini və namazını görür və ona əməlinin əvəzini verir. Bəşər övladından heç kəs günahları bağışlamağa və tövbəni qəbul etməyə qadir deyil. İnsan nə zaman Allaha ixlasla tövbə etsə, Allah onun tövbəsini qəbul edər və onun günahlarını bağışlayar. Allah öz qullarına yaxındır, nə vaxt Ona üz tutub dua etsələr, onların duasını qəbul edər. Necə ki, Quranda Allah buyurur (əl-Bəqərə, 186).



> Quran təsdiq edir ki, Allah öz qullarına yaxındır, nə vaxt Ona üz tutub dua etsələr, onların duasını qəbul edər.

### İslamı qəbul etmək üçün xüsusi bir mərasim varmı?

Müsəlman olmaq istəyən kimsənin İslamı qəbul etməsi üçün xüsusi bir mərasim deyilən bir şey yoxdur. Həmçinin, bunu xüsusi bir yerdə və ya ayrıca bir şəxsin hüzurunda yerinə yetirməyə də, lüzum yoxdur. Əksinə, adam müsəlman olmaq istədiyi zaman kifayətdir ki, şəhadət kəlmələrinin mənasını başa düşüb onlara yəqinliklə iman gətirdiyi və onların tələblərini qəbul etdiyi halda onu tələffüz etsin. Şəhadət kəlməsi belədir:

“Əşhədu ən lə ilahə illəllah” yəni “Mən şəhadət verirəm və etiqad edirəm ki, Allahdan başqa ibadətə haqqı olan məbud yoxdur. Və mən heç biri şəriki olmayan tək Allaha ibadət edirəm.

“Əşhədu ənnə Muhəmmədən rəsulullah” yəni “Mən, Muhəmməd – aleyhissəlamın – Allahın bütün insanlara göndərdiyi rəsulu olduğuna, üstəlik, onun əmrlərinə itaət edəcəyimə və qadağan etdiklərindən çəkinəcəyimə, habelə, onun şəriətinə və sünnəsinə müvafiq şəkildə Allaha ibadət edəcəyimə şəhadət verirəm.



# Həqiqətdə rəsullar kimlərdir?

Allah insanları Ona ibadət etmək üçün yaratmış, və onlara rəsullar göndərmişdir ki, bu rəsullar Allahın şəriətini onlara öyrətsin və Onun dinini onlara xatırlatsın, üstəlik, insanların dinini və dünyasını düzəltsinlər, öz ümmətlərinə gözəl nümunə olsunlar, batil inancların qarşısını alsınlar və insanları doğru yola dəvət etsinlər ki, insanların imanı tərk etdiklərinə bəraət qazandırmaq üçün əllərində heç bir əsasları olmasın. Elə isə, həqiqətdə bu rəsullar kimlərdir?

## Rəsulların insan olması:

Quran bir çox ayələrdə, rəsulların hamısının insan olduğunu, üstəlik, Allahın vəhy və risalət nazil etməklə onları seçib (digər insanlardan) üstün etdiyini təsdiq edir. Bizimlə peyğəmbərlər arasındakı insani cəhətlərdə oxşarlıq olsa da, onlar paklığın və düzlüyün ali dərəcəsində yerləşirlər. Belə ki, Allah öz risalətini və dinini bəşəriyyətə çatdırmaq üçün məhz onları seçmişdir. Necə ki, Quranda buyurulur: “De: “Mən də sizin kimi bir insanam. Mənə vəhy olunur ki,...” (əl-Kəhf, 110).

Rəsulların hamısı insandır. İnsanlar doğulduqları kimi doğulur, öldükləri kimi ölür, xəstələndikləri kimi xəstələnir və ümumiyyətlə, nə bədənlərinin quruluşunda, nə də ehtiyaclarına aid olan işlərdə onlardan fərqlənmirlər.

Bu rəsullarda üluhiyyətdən (ilah sayılmağa dair) heç bir şey yoxdur. Çünki üluhiyyət təkcə Allaha məxsusdur. Bunlar isə sadəcə özlərinə vəhy nazil edilən bir bəşərdir, yəni Allahın əmri mələklər vasitəsilə və ya başqa vasitələrlə onlara yetişir.

Artıq əvvəlki ümmətlər o vəhylərə təəccüb etmiş, Allah isə onların təəccübünü inkar etmiş və bunun başqa yolu olmadığını bildirmişdir. Belə ki, bu, Allahın hidayətini insanlara çatdırmaq və Onun dinini onlara öyrətmək üçün yeganə yoldur (Yunus, 2).

## Rəsulların məqamına dair orta mövqe

Allah öz risalətini təbliğ etmək üçün yaratdıqları arasından ən xeyirlilərini seçmişdir. Belə ki, onlar düz yolla getmək və əməlisaleh olmaq xüsusunda ən yüksək dərəcəyə çatmış kimsələrdir. Quran rəsulların hamısının doğru yolla getdiyini, yaxşı əməl sahibi və əməlisaleh, üstəlik də, seçilmiş və digərlərindən üstün edilmiş kimsələr olduğunu xəbər verir (əl-Ənam, 84-87).

> Quran, rəsulların hamısının insan olduğunu, üstəlik, Allahın vəhy və risalət nazil etməklə onları seçib üstün etdiyini təsdiq edir.

Bu rəsullardan (hər hansı) biri xətaya yol verdiyi zaman, Allah ona o xəta üzərində durmamağı, əksinə, dərhal onu tərk etməyi və ona görə tövbə etməyi buyurardı. Bu da, bilərəkdən Allahın qoyduğu həddi aşmaq məqsədilə deyil, sadəcə ictihad sayəsində rəsulun yol verdiyi bir xəta olardı.

Beləcə, biz Quranın peyğəmbərləri dəqiq vəsflə vəsf etdiyini görürük. Bu vəsfdə nə bir ifrat, nə də bir haqsızlıq var. Bu rəsullar böyük günahlardan uzaqdırlar. Lakin bununla yanaşı onlar sadəcə insandırlar, nə ilah, nə də ilah övladlarıdır. Üluhiyyət (ilah sayılmağın) və rübubiyyət (yaratmaq və idarə etməyin) xüsusiyyətlərindən heç bir şey onlara aid deyil.

Bu məsələyə aydınlıq gətirən dəlillərdən biri də, Allahın Quranda xəbər verdiyi, Qiyamət günü (Allahla öz peyğəmbəri arasında) olacaq söhbətdir. Bu ayədə Allah Öz peyğəmbəri İsa aleyhissalətu vəssəlamı təmizə çıxararaq insanların ona ibadət etməsindən bixəbər olduğunu bildirir: “Allah deyəcək: “Ey Məryəm oğlu İsa! Sənmi insanlara: “Allahı qoyub məni və anamı iki məbud qəbul edin!”– demişdin?” İsa deyəcək: “Sən pak və müqəddəssən! Haqqım olmayan bir şeyi demək mənə yaraşmaz. Əgər bunu demiş olsaydım, əlbəttə, Sən onu bilərdin. Sən mənim qəlbimdə olanları bilirsən, mən isə Sənin Özündə olanları bilmirəm. Şübhəsiz ki, qeybləri bilən Sənsən! Mən onlara ancaq Sənin mənə əmr etdiyini: “Mənim də Rəbbim, sizin də Rəbbiniz olan Allaha ibadət edin!”– demişəm. Nə qədər ki, onların arasında idim, mən onlara şahid idim. Sən məni onların arasından götürdükdən sonra isə onlara nəzarət edən Özün oldun. Sən hər şeyə şahidsən” (əl-Maidə, 116-117).

> Quranı oxuyan hər kəs bilir ki, surələrdən bəzisinə peyğəmbərlərin adları verilib, məsələn, “İbrahim” surəsi, “Yusuf” surəsi, hətta, Allah surələrdən birinə İsa aleyhissəlamın anasının – pak Məryəmin adını verib.



## Rəsullar xüsusunda İslamın mövqeyi

İnsanların bəzisi elə düşünür ki, Quran sadəcə Allahın rəsulu Muhəmməd – aleyhissəlamın – rəvayət etdiyi və xəbər verdiyi hekayələr toplusudur. Onlar biləndə ki, Quran İsa aleyhissəlatu vəssəlamın adını zikr edir, onun şənini ucaldır və ona qarşı olan batil ittihamları 25 kərə rədd edir, habelə, Musa aleyhissəlatu vəssəlamı 136 kərə zikr edir, dəhşətə gəlirlər. Halbuki Quranın nazil edildiyi Muhəmməd aleyhissəlatu vəssəlamın adını cəmi 5 kərə zikr edir.

Halbuki hazırki vaxtda o biri dinləri təmsil edənlərin əksəriyyəti öz peyğəmbərlərindən başqasını qəbul etmir və onların bir qismi digərlərinin peyğəmbərlərinə ədavət bəsləyir. Amma Quranı oxuyan hər kəs görə bilər ki, bir çox ayələr peyğəmbərlərin hamısına iman gətirməyən adamın müsəlman sayılmadığını təsdiqləyir. (Quran onu da) bildirir ki, əgər adam peyğəmbərlərdən birinə küfr edər, yaxud onun peyğəmbərliyinin doğru olmasına şəkk edər və ya onu batil bir işdə ittiham edərsə, İslamdan xaric olmuş sayılar. Quran təsdiqləyir ki, Allahın rəsulu və ona iman gətirənlər Allahın göndərdiyinə iman gətirirlər. Onlar Allaha, mələklərə və peyğəmbərlərə iman gətirir və peyğəmbərlərə iman xüsusunda onların arasında fərq qoymurlar (əl-Bəqərə, 285).



# İslamın İsa aleyhissəlam barədə mövqeyi

İsa – aleyhissəlam – tarixə iz qoymuş ən mühüm şəxsiyyətlərdən, habelə, bəşəriyyətə xeyir vermiş ən əzəmətli şəxslərdən biri sayılır. İnsaların onun barəsində olan mövqeyi fərqlidir. Bir qismi onu ilahiləşdirir və onu Allahın oğlu hesab edir, bir qismi də, ona ədavət bəsləyir, ona ləkə yaxır və onu batil işlərdə ittiham edir. Yaxşı bəs İslamın İsa – aleyhissəlam – haqqında mövqei necədir?




**1. İsa ən əzəmətli rəsullardan biridir:**

Quran təsdiq edir ki, İsa – aleyhissəlam – ən əzəmətli rəsullardan və şəni ən uca olanlarından biridir. Anası Məryəm də dorğu danışan, Rəbbinə müti olan və Ona ibadət edən, ismətini qoruyan, namuslu və bakirə bir qız olmuşdur. O, Allah azzə və cəllənin qüdrəti sayəsində, özünə də, bir kişi toxunmadan, İsa – aleyhissəlama – hamilə qalmışdır. Allahın İsanı (atasız) yaratması, Adəmi atasız və anasız yaratması kimi (əbədi) qalacaq bir möcüzədir. Necə ki, Allah Quranda bu haqda xəbər verir: Həqiqətən də, İsa əbədi qalacaq bir möcüzədir. Və necə ki, Allah Adəmi atasız və anasız yaratmıdırsa, eləcə də, öz qüdrəti ilə İsanı atasız yaratmışdır. O bir şeyin olmasını istədikdə ona ancaq “Ol!”– deyər, o da, olar (Ali-İmran, 59).

**2. Hər bir müsəlman onun möcüzələrinə iman edir:**

Müsəlman, həmçinin, Allahın İsanın əli ilə göstərdiyi möcüzələrə – cüzam xəstəliyinə tutulanı və anadangəlmə koru sağaltmasına, ölüləri diriltməsinə, insanların öz evlərində nə yediklərini və nə yığıb saxladıqlarını onlara xəbər verməsinə və bütün bunları pak və müqəddəs Allahın izni ilə etməsinə iman gətirir. Allah bunları onun peyğəmbərliyinin və risalətinin doğruluğunu sübut edən aydın dəlil etmişdir.

**3. Ona Allahın müqəddəs kitabı – İncil nazil edilmişdir:**

Quran təsdiq edir ki, Allah ona, insanlar üçün hidayət, nur və rəhmət olaraq, ən əzəmətli kitablarından birini – İncili nazil etmişdir. (Təəssüf ki,) tarix boyu İncil təhrif və təvil edilmişdir (ayələr dəyişdirilməklə onlara başqa mənalar verilmişdir).

**4. O, ilah deyil, insandır:**

İslam dini təsdiq edir ki, İsa – aleyhissəlatu vəssəlam – Adəm oğullarından biridir. Allah onu fəzilətli etmiş, onu İsrail oğullarına peyğəmbər göndərmiş və onun əli ilə möcüzələr yaratmışdır. (Bununla belə) rübubiyyət (yaratmaq və idarə etmək) və üluhiyyət (ilah sayılmaq) xüsusiyyətlərindən heç biri ona aid deyil. Necə ki, Allah Quranda xəbər verir: İsa yalnız əməlisaleh bir quldur. Biz ona çoxlu nemətlər və möcüzələr bəxş etdik ki, qövmü üçün bir əlamət və onları xeyirə yönəldən bir dəlil olsun (əz-Zuxruf, 59).

**5. O, çarmıxa çəkilməmişdir, əksinə, göyə yüksəlmişdir:**

İslama görə İsa nə öldürülmüş, nə də çarmıxa çəkilmişdir, əksinə, Allah onu göyə yüksəltmişdir. İsanın düşmənləri onu öldürmək istədikləri zaman Allah bir başqasına onun surətinə bənzər surət vermiş, düşmənləri də, həmin adamı İsa – aleyhissəlama – bənzədərək öldürüb çarmıxa çəkmiş və onun İsa – aleyhissəlam – olduğunu zənn etmişlər. İsa isə sağ ikən səmaya yüksəlmişdir. Necə ki, Quran bunu təsdiq edir (ən-Nisa, 157-158).

## Peyğəmbərlərin şəcərəsi (bir sülalənin qollarını göstərən cədvəl):

Allahın peyğəmbərləri çoxdur. Aşağıda adlarını sadaladıqlarımız onların ən tanınmışlarıdır – Allahın onlara salavatı və salamı olsun!

### Adəm:

Bütün bəşəriyyətin atasıdır. Allah onu torpaqdan yaratmış, mələklərə ona səcdə etməyi buyurmuş və onu Cənnətdən yerə endirmişdir.

### Nuh:

Qövmünü dəvət etmiş, onlar isə onu inkar etmişlər. Buna görə də, onlara tufanla əzab verilmişdir. Bu əzabdan yalnız Nuh və onun qövmündən iman gətirib gəmiyə minənlər xilas olmuşlar.

### İbrahim:

Peyğəmbərlərin atası və ən əzəmətli rəsullardan biridir. (İnsanları) tək Allaha ibadət etməyə dəvət etmişdr. O, müsəlmanların qibləsi sayılan Kəbəni ilk dəfə bina edən kimsədir.

### İsmail:

İbrahim – aleyhissəlamın – oğludur. Kəbənin bina edilməsində atasına kömək etmişdir.

### İshaq:

İbrahim – aleyhissəlamın – oğludur. Mələklər atası İbrahimi onunla müjdələdikdən sonra dünyaya gəlmişdir.

### Yaqub:

İshaq – aleyhissəlamın – oğludur. Ona İsrail də deyilir. İsrail oğulları ona nisbət edilir.



### Yusuf:

Yaqub – aleyhissəlamın – oğludur. Bir neçə sınaqlara məruz qalmış, axırda da, Misirin hökmdarı olmuşdur.

### Musa:

Ən əzəmətli rəsullardan biridir. Allah onu İsrail oğullarına peyğəmbər göndərmiş, ona Tövratı nazil etmiş və ona möcüzələrlə kömək etmişdir. Misirin Fironu onu yalançı hesab etmişdir. Elə buna görə də, Allah onu suya qərq etmiş, Musanı və onunla birlikdə olanları isə xilas etmişdir.

### Davud:

Allah tərəfindən, öz qövmü üzərində hökmranlıq bəxş edilmiş bir peyğəmbərdir.

### Suleyman:

Davud – aleyhissəlamın – oğludur. Allah tərəfindən, özünə əzəmətli səltənət bəxş edilmiş və məxluqatın bir çoxunu ona ram edildiyi peyğəmbərdir.

### Zəkəriyyə:

Allahın peyğəmbəridir, İsrail oğullarındandır. İsa aleyhissəlamın anası Məryəmə qəyyumluq etmiş, onun tərbiyə və təlim almasına cavabdeh olmuşdur. Allah ona ixtiyar çağında, yoldaşı da sonsuz ikən oğlan övladı – Yəhyanı bəxş etmişdir.

### İsa:

Ən əzəmətli rəsullardan biridir. Allah onu atasız yaratmışdır. Allah onu İsrail oğullarına peyğəmbər göndərmiş, ona İncili nazil etmiş və ona cürbəcür möcüzələrlə yardım etmişdir.

### Muhəmməd:

Peyğəmbərlərin sonuncusudur. Allah onu bütün insanlara, özündən əvvəlki peyğəmbərləri təsdiq edən bir peyğəmbər olaraq göndərmiş və ona Quran nazil etmişdir. O Quran ki, onun önündən və arxasından ona heç bir batil yaxınlaşa bilməz.



# İslamın rəsulu kimdir?

## Muhəmməd

Muhəmməd İslam peyğəmbərinin adıdır.

Bu ad, bu gün dünyanın hər yerində ən çox yayılmış bir addır. Mənası da belədir: İnsanların mədh etdiyi, üstəlik, əxlaqına və əməllərinə görə təriflədiyi kimsə.

Elə isə Muhəmməd kimdir?

## İslam rəsulunun adı:

Muhəmməd ibn Abdullah ibn Abdulmüttəlib ibn Haşim əl-Qurəşi

Miladi təqvimlə 570-632.

Bütün müsəlmanlar etiqad edirlər ki, o:

## Allahın bütün insanlara göndərdiyi rəsuludur:

Allah Muhəmməd – aleyhissəlamı – insanların cinsindən və irqindən asılı olmayaraq onların hamısına peyğəmbər göndərmiş və bütün insanlara ona itaət etməyi vacib buyurmuşdur. Bu xüsusda Quranda belə buyurulur: "De: "Ey insanlar! Şübhəsiz ki, mən sizin hamınız üçün Allahın elçisiyəm" (əl-Əraf, 158).

## Ona Quran nazil edilmişdir:

Allah öz kitablarının ən axırıncısı və ən əzəmətlisi olan Quranı Muhəmməd – aleyhissəlama – nazil etmişdir. O Quran ki, onun önündən və arxasından ona heç bir batil yaxınlaşa bilməz.

## Peyğəmbərlərin və elçilərin sonuncusu:

Allah Muhəmməd – aleyhissəlamı – peyğəmbərlərin sonuncusu olaraq göndərmişdir. Ondan sonra peyğəmbər gəlməyəcək. Necə ki, Quran bu haqda xəbər verir: "Lakin o, Allahın rəsulu və peyğəmbərlərin sonuncusudur" (əl-Əhzab, 40).





## İslam rəsulu Muhəmməd – aleyhissəlamı – tanımaq üçün ötəri baxış:

### 1. Doğulduğu tarix:

O, miladi tarixlə 570-ci ildə, Ərəbistan yarımadasının qərbində yerləşən Məkkə şəhərində, atadan yetim qaldığı halda anadan olmuşdur. Anasını da, çox kiçik yaşlarında itirmişdir. Bundan sonra o, babası Abdulmüttəlibin, onun ölümündən sonra da, əmisi Əbu Talibin himayəsi altında böyüyüb boyabaşa çatmışdır.

### 2. Həyatı və böyüyüb boya-başa çatması:

O, peyğəmbərlikdən qabaq qırx il – miladi tarixlə 570-ci ildən 609-cu ilədək Qureyş qəbiləsində yaşamışdır. Bu qəbilədə o, gözəl əxlaq nümunəsi olmuş, üstəlik, düzlükdə və digər üstün cəhətlərdə misal çəkilərmiş. Qureyşlilər arasında onun məşhur ləqəbi var imiş: "Sadiqul-Əmin" – düzdanışan və etibar olunan. Əvvəl qoyun otarmış, daha sonra isə ticarətlə məşğul olmuşdur.

Allahın rəsulu İslamdan əvvəl hənif olaraq, İbrahimin dininə uyğun şəkildə Allaha ibadət edər, üstəlik, bütlərə tapınmağı və bütpərəstlik ayinlərini rədd edərdi. Halbuki o, nə oxumaq, nə də yazmaq bilirdi.

### 3. Peyğəmbər göndərilməsi:

Rəsulullah – aleyhissəlam – ömrünün qırx yaşına çatmış ikən, (Məkkənin yaxınlığında yerləşən) Nur dağındakı Hira mağarasında, (yaradılanlar haqqında) düşünüb Allaha ibadət edərkən Allahdan ona vəhy nazil oldu və beləliklə, Quran ona nazil olmağa başladı. Qurandan ona nazil olan ilk ayə Allahın bu kəlməsi oldu: "Yaradan Rəbbinin adı ilə oxu!" (əl-Ələq, 1). Bu ayə ilə bildirdi ki, bu peyğəmbərlik elə əvvəlindən insanlar üçün elm, oxumaq, nur və hidayətlə bağlı olan yeni əsrdir. Bundan sonra iyirmi üç il ərzində Quran ayələri bir-birinin ardınca ona nazil oldu.



**4. Dəvətinin başlanğıcı:**

Rəsulullah Allahın dinini üç il gizlin yaymağa başlamışdır. Bundan sonra isə o, Məkkədə qaldığı on il müddətində bu dəvəti aşkar şəkildə yaymışdır. Bütün peyğəmbərlərin ardıcılları kimi ki, onun da ardıcıllarının əksəriyyəti zəiflər və kasıblar idi. Həmin dövrdə Allahın rəsulu və ona iman gətirmiş möminlər Qureyş qəbiləsi tərfindən hər növ şiddətli zorakılıqlara və zülmə məruz qalımışlar. Belə olduğu təqdirdə o, İslamı Məkkəyə həcc ziyarətinə gələn qəbilələrə ərz etməyə başladı və elə həmin dövrdə Mədinə əhlinin bir qismi İslamı qəbul etdi. Bundan sonra müsəlmanlar dəstə-dəstə (Mədinəyə) hicrət etməyə başladılar.

**5. Hicrəti:**

(Peyğəmbər aleyhissəlam) əlli üç yaşında ikən, miladi tarixlə 622-ci ildə, onun dəvətinə müxalif olan Qureyş başçıları ona qarşı suiqəsd hazırladıqdan və onun öldürülməsinə qərar verdikdən sonra, o, Yəsrib adlanan (indiki) nurlu Mədinəyə hicrət etmişdir. O, Mədinədə on il yaşamış (və bu illər ərzində) İslama dəvət etmiş, namaz qılmağı və zəkat verməyi əmr etmiş, gözəl əxlaqi dəyərləri və İslamın digər qanunlarını təbliğ etmişdir.





**6. İslamı yayması:**

Rəsulullah – aleyhissəlam – hicrət etdikdən sonra (622-632-ci illər ərzində) Mədinədə İslam mədəniyyətinin təməlini qurmuş və müsəlman cəmiyyətinin xüsusiyyətlərini möhkəmləndirmişdir. O, həmçinin, qəbilə təəssübkeşliyini aradan qaldırmış, elmi yaymış, adilliyin, dürüstlüyün, qardaş olmağın, bir-birinə yardım etməyin və nizam-intizamın əsaslarını möhkəmləndirmişdir. Həmin dövrdə bəzi qəbilələr İslamı yox etməyə çalışmış və bu səbədən də, çoxlu müharibələr və xoşagəlməz hadisələr baş vermişdir. Allah isə öz dininə və rəsuluna yardım etmiş və bundan sonra insanlar dəstə-dəstə İslamı qəbul etməyə başlamışlar. Beləliklə, Məkkə əhalisi və Ərəbistan yarımadasındakı şəhərlərin və qəbilələrin əksəriyyəti, bu əzəmətli dini seçib ondan razı qaldıqları halda onu qəbul etmişlər.

**7. Vəfatı:**

Hicrətin 11-ci ilində, səfər ayında, rəsulullah risalətin təbliğatını başa çatdırdıqdan və Allah bu dini kamil etməklə insanlara olan nemətini tamamladıqdan (az müddət) sonra, peyğəmbər – aleyhissəlamı – qızdırma tutdu və bu səbədən də, xəstəliyi ağırlaşdı. Beləliklə, peyğəmbər – aleyhissəlam – hicrətin 11-ci ilində (miladi təqvimlə 06/08/632), altmış üç yaşında Rəbiyul-Əvvəl ayında, bazar ertəsi günorta vəfat etdi və peyğəmbər məscidinin yanında, zövcəsi Aişənin evində dəfn edildi.





# Muhəmməd insaflı insanlarınnəzərində Allahın rəsuludur

Mədəniyyətindən

Mədəniyyətindən asılı olmayaraq, hər bir insaflı adam Muhəmməd peyğəmbər – aleyhissəlamın – həyat-yolunu oxuduqda, o əbədi əxlaq nümunəsinin hər bir səciyyəvi xislətinə heyrət və təəccüb etməyə bilməz. Biz görürük ki, şərq və qərb alimləri, filosofları və ədibləri bunu təsdiqləyir, üstəlik, öz kitablarında və məqalələrində bunu qələmə alırlar. Bunlar aşağıdakılardır:



**Qandi** (Gənc Hindistan, 1924) jurnalında demişdir:

Heç bir mübahisəsiz milyonlarla insanın qəlbini ələ alan adamın səciyyəvi xislətlərini öyrənmək istədim, axırda tam yəqinliklə əmin oldum ki, İslam dini tutduğu məqama qılınc vasitəsilə yüksəlməmişdir. Əksinə, bu yüksəliş, Allah rəsulunun sadəliyi, diqqətcil olması, vədlərinə sadiq qalması, sədaqətli olması, dostları və ardıcılları ilə səmimi olması, şücaətkarlığı, üstəlik, Rəbbinə və Onun risalətinə mütləq şəkildə güvənməsi sayəsində olmuşdur. Qılınc yox, məhz bu səciyyəvi xislətlər, o yolu döşəmiş və müsibətlərin üstündən addayıb keçmişdir. Mən peyğəmbərin həyatı haqqında olan kitabın ikinci cildini bitirdikdən sonra, onun əzəmətli həyat tərzi haqqında daha çox öyrənmək üçün əlavə məlumat əldə edə bilmədiyimə görə çox heyifsiləndim.

Mahatma Qandi, bəyanatın dərc edilməsi, "Gənc Hindistan" 09/11/1924

> "Heç bir mübahisəsiz milyonlarla insanın qəlbini ələ alan adamın səciyyəvi xislətlərini öyrənmək istədim, axırda tam yəqinliklə əmin ol-dum ki, İslam dini tutduğu məqama qılınc vasitəsilə yüksəlməmişdir."
>
> Qandi



**Maykl Xart** "Tarixdəki 100 ən dahi insan" adlı məşhur kitabında:

Yüz şəxsiyyət arasında birinci Muhəmməd – aleyhissəlamdan – başlamış və bunun səbəbini belə açıqlamışdır: "Doğrudur, Muhəmmədi, tarixdəki ən mühüm və ən əzəmətli şəxsiyyətlərin birincisi seçməyim oxucuları heyrətə gətirə bilər, lakin qeyd etmək lazımdır ki, o, bütün tarix boyu iki müstəvidə – həm dini, həm də dünyəvi işlərdə ən uğurlu nəticələr əldə etmiş yeganə şəxsiyyətdir."

Maykl Xart, "Tarixdəki 100 ən dahi insan", səh.33.





Məşhur Fransız şairi **Alfons de Lamartin** "Türkiyə tarixi" adlı kitabında demişdir: "Əgər məqsədin aliliyi, vasitələrin azlığı və heyrətamiz nəticələr, insan dahiliyinin üç meyarı hesab edilirsə, onda kim tarixdəki istənilən dahi bir insanı Muhəmmədlə müqayisə etməyə cürət edə bilər?"

"Türkiyə tarixi", kitabı, 1-ci cild, səh.111.



**Hind filosofu Ramakrişna** demişdir: "Hadisələr dəyişdi, lakin Muhəmməd, istər qələbə çaldıqda və ya məğlubiyyətə uğradıqda, istər hökmranlıq etdikdə və ya müsibətə məruz qaldıqda, istərsə də, firavanlıqda və ya kasıbçılıqda, dəyişmədi. O elə olduğu kimi, olduğu əxlaqında qaldı. Necə ki, Allah (bunu) bütün peyğəmbərlər üçün istəmiş, onlar da heç vaxt dəyişməmişlər."

"Muhəmməd İslam Peyğəmbəridir" kitabı, səh.24.



Ən böyük alman şairlərindən olmuş **Höte** sevgilisinə özü haqqında yazdığı məktubda İslama və Muhəmmədə nə qədər vurğun olduğunu açıqlayaraq bildirmişdir ki, onun (yəni Hötenin) yaşı yetmişə çatsa da, İslam qarşısındakı heyranlığı heç vaxt azalmamış, əksinə, bu təsəvvürün kökləri böyümüş və möhkəmlənmişdir.

Bu məlumatı Katarina Momzen Höte haqqında yazdığı "Höte və Ərəb dünyası" kitabında qeyd etmişdir, səh. 177.

**Profesor Stobart demişdir:**

"İnsanlıq tarixində indiyədək Muhəmməd kimi mükəmməl bir şəxsiyyət olmayıb. O, öz maddi vəsaitlərinin az olmasına rağmən, qeyriadi böyük qəhrəmanlıqlar göstərmişdir. Əgər biz tarixi oxuyub bu məsələni araşdırsaq, ərəb peyğəmbərinin adından başqa, bu dərəcədə nur saçan və bu qədər aydın olan bir ad tapa bilmərik."

"İslam və onun banisi" kitabında, səh.227-228.



**Simon Okli** "Müsəlman imperiyalarının tarixi" adlı kitabında deyir ki:

İslam dəvətinin (yer üzünə) yayılmasına yox, bu dəvətin uzun müddət davam etməsinə və onun əsrlər boyu sabit qalmasına heyrətlənmək gərəkdir. Muhəmmədin Məkkə və Mədinədə yaratdığı parlaq təəssürat, Qurandan təzəcə xəbər tutmuş hindistanlıların, afrikalıların və türklərin qəlbinə hələ də təsir və nüfuz etməkdədir.

"Saraçin (müsəlman) imperiyalarının tarixi", kitabı, səh.45.

> "Muhəmmədin Məkkə və Mədinədə yaratdığı parlaq təəssürat, Qurandan təzəcə xəbər tutmuş hindistanlıların, afrikalıların və türklərin qəlbinə hələ də təsir və nüfuz etməkdədir."
>
> Simon Okli



**Vill Dürant** "Sivilizasiya tarixi" adlı məşhur ensiklopediyasında (13/45-47) deyir ki:

"Əgər biz, insanlara təsir göstərmiş dahi insanın dahiliyi barədə fikir söyləməli olsaq, deyərik ki, Muhəmməd tarixdəki ən dahi insanlardan biri olub. Belə ki, o, çox isti hava şəraitinin və səhra quraqlığının cəhalət zülmətinə saldığı bir xalqın ruhi və əxlaqi səviyyəsini qaldırmağı öz öhdəsinə götürmüş və bu hədəfə çatmağı reallaşdırmaqda, tarix boyu heç bir islahatçının əldə edə bilmədiyi uğurları əldə etmişdir. Ondan başqa çox az insan tapa bilərik ki, xəyallarının hamısını gerçəyə çevirmiş olsun. O, öz dəvətinə başladığı zaman Ərəb diyarı quru səhralıqlar içində, sakinləri də, bütlərə ibadət edən, aralarında da birlik olmayan azsaylı tayfalar idi. O, vəfat etdikdə isə bu tayfalar artıq möhkəm birləşmiş vahid bir ümmət olmuşdu. O, təəssübkeşliyin və xurafatların qarşısını almış, üstəlik, (İslam dinini) yəhudilikdən və nəsranilikdən, habelə, ölkəsinin qədim dinindən (zərdüştlükdən) daha yüksəyə qaldırmış, onu asan, aydın, güclü, möhkəm və əxlaqi dəyərləri özündə cəm edən, üstəlik, həyəti cəsur insanladan və izzətli qövmdən ibarət olan bir din etmişdir. O, bir ömürdə yüz döyüşdə qalib gəlməyi, bir əsrdə əzəmətli bir dövlət qurmağı və bu günümüzə qədər dünyanın yarısı üçün olduqca əhəmiyyətli bir qüvvə olaraq saxlamağı bacarmışdır."

Vill Dürant, "Sivilizasiya tarixi", 13/47.

> "Əgər biz, insanlara təsir göstərmiş dahi insanın dahiliyi barədə fikir söyləməli olsaq, deyərik ki, Muhəmməd tarixdəki ən dahi insanlardan biri olub."
>
> Vill Dürant



Vaxtı ilə Muhəmmədin ən qatı düşmənlərindən olmuş birisi İslamı qəbul etdikdən sonra bizə heyrətamiz bir hadisə rəvayət etmişdir. (O demişdir ki, miladi tarixlə 628-ci ildə) Peyğəmbər Muhəmməd – aleyhissəlamın – məktubu Rum imperatoru Herakla gəlib çatdıqda və Herakl o məktubda Peyğəmbər – aleyhissəlamın – onu İslama dəvət etdiyini bildikdə təəccüblənmiş, sonra tələb etmişdir ki, ərəblər arasında məktubu göndərən bu adamı tanıyan və ona yaxın olan birisini tapıb onun yanına gətirsinlər. Həmin vaxt Əbu Süfyan Şamda öz ticarəti ilə məşğul idi. (Əbu Süfyan Qureyşin başçılarından və o vaxt Peyğəmbər – aleyhissəlamın – ən qatı düşmənlərindən idi.) Herakl Əbu Süfyanı və onunla birlikdə ticarətə gəlmiş ərəbləri öz qəsrinə dəvət etdi və öz tərcüməçisinin vasitəsilə onlara olduqca ağıllı və müdrik suallar verdi ki, Rəsulullah – aleyhissəlamın – doğru danışıb-danışmadığını öyrənsin. Nəhayət, Herakl Əbu Süfyanın cavablarını eşitdikdən sonra ona belə dedi:

Səndən onun nəsəbi barədə soruşdum, aranızda əsillinəsəbli olduğunu bildirdin. Həmçinin əvvəlki elçilər də öz xalqlarının adlısanlı nəslinə mənsub olardılar. Soruşdum: "Sizlərdən ondan əvvəl bu sözü söyləyən bir kimsə olubmu?" Dedin: "Xeyr, olmayıb." Mən düşündüm ki, əgər ondan əvvəl bu sözü söyləmiş bir kimsə olsaydı, deyərdim ki, bu adam özündən əvvəl gəlmiş adamı təqlid edir.

Səndən: "Bu söylədiklərini deməzdən əvvəl onu yalan danışmaqda ittiham etmişdinizmi?" – deyə soruşdum, dedin: "Xeyr!" Mənə aydın oldu ki, insanlara qarşı yalan danışmayan adam, Allaha qarşı da yalan danışmaz.

Səndən: "Onun ardınca gedənlər xalqın zadəganlarıdır, yoxsa zəifləridir?"– deyə soruşdum, sən də, onun ardınca gedənlərin xalqın zəifləri olduğunu söylədin. Elçilərin ardınca gedənlər də, elə onlardır. Soruşdum: "Onlar artırlar, yoxsa azalırlar." Dedin: "Onlar artırlar." İmanın halı da belədir, tamam olanadək artar.

Səndən: "İçərilərində onun dinini qəbul etdikdən sonra narazılığa görə dinindən dönən bir kimsə varmı?"– deyə soruşdum, dedin: "Yoxdur!" Təbii ki, bu cür iman qəlblərə daxil olduqda belə olur.

Soruşdum: "Əhdi pozurmu?" Dedin: "Xeyr, pozmur." Elçilər də belə olur, əhdi pozmurlar.

Səndən: "Sizə nəyi əmr edir?" deyə soruşdum. Dedin ki, o, Tək Allaha ibadət edib heç nəyi Ona şərik qoşmamağı sizə əmr edir, bütlərə tapınmağı isə sizə qadağan edir. Üstəlik, sizə namaz qılmağı, doğru danışmağı və iffətli olmağı əmr edir..

Və əgər sənin dediklərin doğrudursa, onda o, bu ayaqlarımın basdığı yerə sahib olacaq. Mən bilirdim ki, o gələcək, lakin sizlərdən olacağını güman etmirdim. Əgər onun yanına gedib çata biləcəyimə arxayın olsaydım, hər halda onunla görüşməyə çalışardım (əl-Buxari, 7)



# Rəsulullah Muhəmməd – aleyhissəlamın – başına gəlmiş hadisələrdən və onun əxlaqından (misallar)

## Rəsulullah

Rəsulullah – aleyhissəlam – ən ali insani əxlaqla (bütün bəşəriyyətə) nümünə olmuşdur. Şərqdən qərbədək insaflı insanların hamısı, hətta, onun düşmənləri bunun şahidi olmuşlar. Axırda iş o yerə gəlib çatdı ki, Quranda böyük əxlaq sahibi kimi vəsf olunmağa layiq görüldü.



Peyğəmbərin zövcəsi Aişədən – radıyallahu anhə – Allah rəsulu Muhəmməd – aleyhissəlamın – əxlaqı barədə soruşulduqda, o, rəsulullahın əxlaqını vəsf etmək üçün: “Onun əxlaqı Quran idi” deməkdən başqa, daha dəqiq ifadə tapa bilməmişdir. O demək istəmişdir ki, Peyğəmbər – aleyhissəlam – Quranda yazılanlara əməl etmək və içindəki əxlaqi dəyərləri nümayiş etdirmək baxımından (insanlara) nümunə olmuşdur.

**Onun başına gəlmiş hadisələrdən və onun əxlaqından deyəcəyimiz müxtəsər misallar bunlardır:**

## Təvazökarlığı:

Rəsulullah – aleyhissəlam – heç vaxt heç kəsin onu uca tutmaq məqsədilə ayağa qalxmasına razı olmaz, əksinə, belə etməyi səhabələrinə qadağan edərdi. Səhabələr – Allah onların hamısından razı olsun! – onu olduqca çox sevdikləri halda, onun gəldiyini gördükdə onun üçün ayağa qalxmazdılar. Çünki səhabələr onun bunu xoşlamadığını bilirdilər (Əhməd, 12345).

Ərəb zadəganlarından və onların böyüklərindən olmuş Adiy ibn Hatim müsəlman olmamışdan əvvəl Peyğəmbər – aleyhissəlamın – dəvətinin doğruluğunu öyrənmək üçün onun yanına gəlmişdir. Adiy deyir ki: “Mən Peyğəmbər – aleyhissəlamın – yanına gəldim və gördüm ki, onun yanında bir qadın və iki uşaq və ya bir uşaq var. (Adiy bu adi adamların Peyğəmbər – aleyhissəlamın – yanında olduğunu qeyd edir.) Onda mənə aydın oldu ki, o, nə xosrovdur, nə də qeysər” (Əhməd, 19381). Təvazökarlıq bütün peyğəmbərlərin əxlaqıdır.

O, məclisdə öz səhabələri ilə birlikdə oturarkən onlar kimi oturar və heç vaxt məclisdə özünü ətrafındakılardan üstün tutmazdı. İş o yerə çatmışdı ki, onu tanımayan qərib bir adam onun iştirak etdiyi bir məclisə daxil olduqda, onu səhabələrindən seçə bilməz və: “Hansınız Muhəmmədədir?” – deyə soruşardı (əl-Buxari, 63).

Səhabələrindən bəzisi rəvayət edir ki, o, nə qədər məşğul olsa da, gedib insanların istəklərini və onların xeyrinə olan işləri, – nə qədər xırda olsa belə, – yerinə yetirməkdən imtina etməzdi. Həmçinin, rəvayət edilir ki, Mədinə sakinlərindən olan bir kəniz gəlib onun əlindən tutub aparmışdır ki, Rəsulullah – aleyhissəlam – onun ehtiyaclarını ödəsin (əl-Buxari, 5724).

> İslam Peğəmbəri – aleyhissəlam – özünə aid olan işləri özü görər, üstəlik, ailəsinin xidmətində durar, hətta ev işlərində onlara yardım edərdi.

Möhtərəm səhabə Ömər ibn əl-Xattab rəvayət edir ki, bir dəfə o, Allahın rəsulu Muhəmməd – aleyhissəlamın – evinə daxil olmuş və yerdəki həsirin (xurma lifindən qayrılmış döşənək) Peyğəmbər – aleyhissəlamın – böyrünə iz saldığını görüb ağlamışdır. O: “Səni ağladan nədir?” – deyə soruşduqda, Ömər demişdir: “Ya Rəsulullah, xosrov və qeysər naz-nemətlər içində üzür. Halbuki sən, Allahın rəsulusan!” Onda Peyğəmbər – aleyhissəlam – ona belə demişdir: “İstəmirsən ki, dünya onlara, axirət isə bizə nəsib olsun?!” (əl-Buxari, 3503).

Peğəmbər – aleyhissəlam – özünə aid olan işləri özü görər, üstəlik, ailəsinin xidmətində durar, hətta ev işlərində onlara yardım edərdi. Aişədən – radıyallahu anhə – onun evində nə işlə məşğul olduğu barədə soruşulduqda, o demişdir: “O, ev işlərində əhli-əyalına köməklik edərdi” (əl-Buxari, 644), yəni ailəsinin xidmətində durardı. O, həmçinin, demişdir: “Peyğəmbər – aleyhissəlam – sizlərdən biri kimi ayaqqabılarını özü yamayar, libasını da özü tikərdi” (Əhməd, 24749).

Peğəmbər – aleyhissəlam – demişdir: “Qəlbində zərrə qədər təkəbbür olan kimsə Cənnətə girməz” (Muslim, 91).

## Mərhəməti:

Peyğəmbər – aleyhissəlam – demişdir: “Rəhm edənlərə Mərhəmətli Allah rəhm edər. Yerdəkilərə rəhm edin ki, göydəki də sizə rəhm etsin!” (Əbu Davud, 4941).

**Peyğəmbər – aleyhissəlamın – mərhəməti bir çox sahələrdə özünü əks etdirmişdir:**

### Uşaqlara göstərdiyi mərhəmət:

- Baxmayaraq ki, namaz İslamın dirəyi sayılır, üstəlik, namazda danışmaq və artıq hərəkət etmək qadağan hesab olunur, lakin peyğəmbər – aleyhissəlam – bir dəfə namaz qılarkən öz nəvəsini – qızı Zeynəbin qızı Umaməni qucağına almış və namaz əsnasında, hər dəfə səcdəyə getdikcə uşağı yerə qoyar, səcdədən ayağa qalxdıqda isə onu qucağına alarmış (əl-Buxari, 494).
- Peyğəmbər – aleyhissəlam – camaata namaz qıldırarkən uşağın ağladığını eşitdikdə, namazı çox uzatmayıb xəfif şəkildə qılardı. Bu xüsusda Peyğəmbər – aleyhissəlam – demişdir: “(Bəzən olur ki,) mən camaata namazı qıldırdıqda onu uzatmaq istəyirəm, lakin uşağın ağladığını eşidir və ümmətimə əziyyət verməyi xoşlamadığım üçün namazımı xəfif şəkildə qılıram” (əl-Buxari, 675).



### Qadınlara göstərdiyi mərhəmət:

- Peyğəmbər – aleyhissəlam – (öz ümmətini) qız uşaqlarının qeydinə qalmağa və onlara yaxşılıq etməyə təşviq edib demişdir: "Kimin bir və daha çox qız uşağı olsa, o da onların qayğısına qalsa və onlara gözəl tərbiyə versə, bu qızlar onunla Cəhənnəm odu arasında onu qoruyan bir sipər olar" (əl-Buxari, 5649).
- O, kişiyə öz zövcəsinin haqlarını ödəməyi, onun işlərinə diqqət yetirməyi və onun güzaranına nəzarət etməyi dönə-dönə vəsiyyət etmişdir. O, müsəlmanlara bir-birilərinə belə tövsiyə etməyi buyurmuşdur: "Qadınlarla yaxşı davranın!" (əl-Buxari, 4890).
- Peyğəmbər – aleyhissəlam – əhlibeytini əzizləmək xüsusunda ən gözəl nümunə olmuşdur. Bəzən o, öz dəvəsinin yanında aşağı oturub dizini dik tutardı ki, zövcəsi Safiyyə – radıyallahu anhə – ayağını onun dizinin üstə qoyub dəvənin belinə qalxsın (əl-Buxari, 2120).
- Peyğəmbər – aleyhissəlamın – qızı Fatimə – radıyallahu anhə – onun yanın gəldikdə, onun əlindən tutub onu öpər və qalxıb onu öz oturduğu yerdə oturdarmış (Əbu davud, 5217).

### Zəiflərə göstərdiyi mərhəmət:

- Peyğəmbər – aleyhissəlam – insanları yetimləri himayəyə götürməyə təşviq etmişdir. O, orta barmağıyla işarə barmağını yan-yana azacıq aralı tutub demişdir: "Mən və yetimin hamisi Cənnətdə (bu iki barmaq kimi) olacağıq" (əl-Buxari, 4998).
- O, həmçinin, dul qadınlara və kasıblara əl tutan kimsəni, Allah yolunda vuruşan mücahidə, habelə, gündüzlər oruc tutub, gecələr namaz qılan kimsəyə bənzətmişdir (əl-Buxari, 5661).
- Peyğəmbər – aleyhissəlam – zəiflərə mərhəmət göstərməyin və onların haqlarını ödəməyin ruzi qazanmaq və düşmənə qalib gəlmək üçün bir səbəb olduğunu da bildirmişdir. O demişdir: "Qoyun zəiflər mənim yanımda olsunlar! Həqiqətən, sizə aranızdakı zəiflərin (duaları sayəsində) qələbə və ruzi bəxş edilir" (Əbu davud, 2594).



> Allahın rəsulu Muhəmməd səllallahu aleyhi və səlləm kasıblara yaxın olmağı və onlara yaxşılıq etməyi, qələbə çalmaq və ruzi qazanmaq üçün bir səbəb etmişdir.



### Ədaləti:

- Peyğəmbər – aleyhissəlam – ədalətli insan olmuşdur. O, Allahın qanunlarnı ən yaxın adamlarının əleyhinə olsa belə, tətbiq edər, Quranın bu əmrinə riayət edərdi: "Ey iman gətirənlər! Şahidliyiniz özünüzün, valideynlərinizin, yaxın qohumlarınızın əleyhinə olsa belə, Allah üçün ədaləti qoruyan şahidlər olun" (ən-Nisa, 135).
- Səhabələrdən bəzisi Peyğəmbər – aleyhissəlatu vəssəlamın – yanına gəlib oğurluq etmiş zadəgan bir qadını əfv etməsi üçün havadarlıq etdikdə, o demişdir: "Muhəmmədin canı əlində olan Allaha and olsun ki, əgər Muhəmmədin qızı Fatimə (oğurluq etmiş) olsa, onu da cəzalandıraram" (əl-Buxari, 4053).
- Peyğəmbər – aleyhissəlam – sələmi haram buyurduğu zaman ilk əvvəl ən yaxın qohumundan başlamış, əmisi Abbasa bu haram işə son qoymağı əmr edib demişdir: "Sələmdən ilk əvvəl özümünkülərə – Abbas ibn Abdulmüttəlibə sələm almağı qadağan edirəm. Bu müamilə (borc olaraq verilən pul müqabilində götürülən faiz) bütövlüklə haramdır" (Muslim, 1218).
- O, həmçinin, zəifin heç kəsdən qorxmadan və heç nədən ehtiyat etmədən öz haqqını güclüdən almasını, xalqların mədəniyyətinin və tərəqqisinin meyarı etmişdir. Peyğəmbər – aleyhissəlam – demişdir: "Zəifini qorxu içində saxlayıb haqqını verməyən bir ümmət təmizə çıxmasın!" (İbn Macə, 2426).

### Yaxşılıq etməsi və səxavətli olması:

- Bir nəfər Peyğəmbər – aleyhissəlamın – yanına gəlib ondan pul istəmiş, o da ona belə buyurmuşdur: "Get istədiyin şeyi al, onun pulunu mən ödəyəcəyəm." Onda səhabəsi Ömər ona: "Ya Rəsulullah, axı Allah səni gücün yetmədiyi bir şeylə yükləməyib"– demiş, Peyğəmbər – aleyhissəlam – isə bu sözü qəbul etməmişdir. Belə olduğu təqdirdə həmin adam dedi: "(Ya Rəsulullah,) xərclə və Ərş sahibinin (səni) pulsuz qoyacağından qorxma!" Peyğəmbər – aleyhissəlam – gülümsədi və onun sevindiyi üzündən hiss edildi (Seçilmiş hədislər, 88).
- Bir gün ona səksən min dirhəm gətirdilər. O, bu dirhəmləri həsirin üstünə qoydu, sonra onları bölüşdürməyə başladı. O, bu dirhəmlərin hamısını paylayıb qurtaranadək, istəyən adamlardan heç birinə "yox" demədi (əl-Hakim, 5423).



## Səbir etməsi və mülayim olması:

- Rəsulullah – aleyhissəlam – taifliləri İslama dəvət etdikdən və bu əsnada onların əziyyətlərinə məruz qalıb onlardan olduqca pis cavab aldıqdan sonra, məyus halda Taifdən (Məkkənin 90 kilometrliyində yerləşən dağlıq şəhərdən) çıxıb Məkkəyə – onu yurdundan didərgin salmış və ona əziyyət vermiş qövmünün yanına qayıdarkən, Allah onun yanına mələk göndərmiş və taifliləri məhv edib-etməməyə dair ona seçim vermişdir. O isə belə cavab vermişdir: "Xeyr, mən ancaq onu diləyirəm ki, Allah onların belindən Tək Allaha ibadət edən və Ona heç bir şeyi şərik qoşmayan kimsələr gətirsin!" (əl-Buxari, 3059).
- Onun Məkkə əhlinə qarşı olan mövqeyi daha əzəmətlidir. O kəslər ki, onu yurdundan qovmuş, üstəlik, davamlı şəkildə, həm öz acı sözləri, həm də qılıncları ilə ona əziyyətlər vermiş, uzun illər onu və onun yanındakıları məhv etmək üçün əllərindən gələni əsirgəməmişlər. Nəhayət, Allahın köməyi gəldiyi və Allah subhanəhu Məkkənin fəthi ilə onu ucaltdığı zaman o, məkkəlilər üzərində zəfər çaldı, sonra da onlara belə xitab etdi: "Necə düşünürsünüz, mən sizə nə edəcəyəm?" Onlar dedilər: "Xeyir (əta edəcəksən), ey səxavətli qardaş, səxavətli qardaşın oğlu!" Onda Peyğəmbər – aleyhissəlam – dedi: "Mən sizə qardaşım Yusufun (Allahın peyğəmbəri, qardaşları tərəfindən işgəncələrə məruz qalmış, sonra da quyuya atılmış Yusuf ibn Yəqubun) dediyini deyəcəyəm: "Bu gün siz qınanılmayacaqsınız. Allah sizi bağışlasın! O, rəhm edənlərin ən rəhmlisidir" (Yusuf, 92). Gedin, siz azadsınız!" (əl-Beyhəqi, 18275).

> Mənbələr bildirir ki, İslamın rəsulu ömrü boyu mal-dövlət yığmayıb.





## Dünyadakı zahidliyi:

- Rəsulullah – aleyhissəlam – daim izzətli və uca Rəbbinin bu sözünə riayət edib: "Kafirlərdən bəzisini sınamaq üçün onlara dünya həyatının bərbəzəyi kimi verdiyimiz şeylərə gözünü dikmə. Rəbbinin verdiyi ruzi daha xeyirli və daha sürəklidir" (Ta ha, 131).
- Bir gün Ömər – radıyallahu anhu – Peyğəmbərin – aleyhissəlamın – hücrəsinə daxil oldu və onun yerdəki boş həsirin üstündə uzandığını gördü. Həsir onun böyrünə iz salmışdı. Ömər dedi: "Mən onun hücrəsinə göz gəzdirdim. Vallahi ki, orada diqqəti cəlb edən və nəzərə çarpan bir şey görmədim. Dedim: "(Ya Rəsulullah,) Allah dua et ki, ümmətinə bol ruzi versin. Həqiqətən, farslara və rumlulara bol ruzi və dünya bəxş edilmişdir. Halbuki onlar Allaha ibadət etmirlər." Peyğəmbər – aleyhissəlam – dedi: "Yoxsa, şəkk edirsən, ey Xattabın oğlu?! Onlar, özlərinə yalnız dünya həyatında cahcəlal verilmiş kimsələrdir" (əl-Buxari, 2336).
- Peyğəmbər – aleyhissəlam – deyərmiş: "Mən dünyaya rəğbət bəsləmirəm, mənim dünyadakı halım, ağac kölgəsi altında dincini aldıqdan sonra onu tərk edib yoluna davam edən müsafirin halına bənzəyir" (ət-Tirmizi, 2377).
- Bəzən elə olurdu ki, bir ay, iki ay, hətta, üç ay Peyğəmbər – aleyhissəlamın – evində od qalanıb qazan asılmazdı. (Bu müddət ərzində) o, sadəcə xurma və su ilə dolanardı (əl-Buxari, 2428), bəzən də, bütün günü ac qalar, qarnını doyuracaq qədər heç köhnə xurma belə tapa bilməzdi (Muslim, 2977); Peyğəmbər – aleyhissəlam – vəfat edənədək, üç gün dalbadal buğda çörəyindən doyunca yeməmişdir. Çox vaxt yediyi çörək də, arpa çörəyi olarmış (Muslim, 2976).

> İslam Rəsulu – aleyhissəlamın – dünyadakı halı, ağac kölgəsi altında dincini aldıqdan sonra onu tərk edib yoluna davam edən müsafirin halına bənzəyir.



## (Əhdə) vəfa etmək:

- Əhdə vəfa etmək ən ali və ən gözəl əxlaqi xislətlərdəndir. Tərəflər arasında bağlanmış bir əhd olmadığı halda gözəl tərzdə əhdə vəfa etmək, qəlbdə olan hörməti artırır. Əhdə vəfa etmək Rəsulullah – aleyhissəlamın – adəti idi. O, arada heç bir əhd-peyman olmadan, özünə edilmiş yaxşılığı daha gözəl tərzdə qaytararmış. Bir düşünün görün, əhd olmuş olsaydı, ona necə vəfa edərdi.
- Nəsranilərin hökmdarı Herakl Qureyş kafirlərindən Peyğəmbər – aleyhissəlamın – vəsfləri barədə: "O, əhdi pozurmu?"– deyə soruşduqda, onlar: "Xeyr!"– demiş, Herakl da onlara belə cavab vermişdir: "Peyğəmbərlər də belə olur, əhdi pozmurlar" (əl-Buxari, 7).
- Onun ilk zövcəsi Xədicə – radıyallahu anhəyə – olan vəfası ən ali dərəcədə olmuşdur. O, hər zaman zövcəsinin hörmətini saxlamış, onun etdiyi yaxşılıqlara dəyər vermiş, üstəlik, onun yaxın qohumlarına və rəfiqələrinə yaxşılıq etməyə həris olmuşdur.
- Peyğəmbər Muhəmməd – aleyhissəlamın – zövcəsi Aişə, Peyğəmbər – aleyhissəlamın – ilk həyat yoldaşı, – peyğəmbərliyin ilk dönəmində vəfat etmiş və Aişənin yaxından tanımadığı, – Xədicəyə olan vəfası barədə belə rəvayət etmişdir: "Peyğəmbər – aleyhissəlam – tez-tez onu yad edərdi. Bəzən Peyğəmbər – aleyhissəlam – bir qoç kəsib onu hissələrə bölər, sonra da, bu payları Xədicənin rəfiqələrinə göndərərdi. Hərdən mən ona: "Elə bil yer üzündə Xədicədən başqa qadın yoxdur"– deyərdim, o da mənə: "Xədicə bu cür, bu cür qadın idi"– deyə onun üstünlüklərini sadalayardı" (əl-Buxari, 3607).
- Bir dəfə (İslamın ilk dönəmində mühacir müsəlmanları himayə etmiş Həbəşistan kralı) Nəcaşinin nümayəndə heyəti Peyğəmbər – aleyhissəlamın – yanına gəldi. Peyğəmbər – aleyhissəlam – ayağa qalxıb özü onlara xidmət göstərməyə başladı. Bu vaxt səhabələri ona: "Biz sənin yerinə bu işi görərik, (ya Rəsulullah)"– dedilər. Onda o dedi: "Onlar mənim səhabələrimə çox yaxşılıqlar ediblər. Mən də belə yaxşılıqların əvəzini qaytarmağı xoşlayıram" (Şuəbul-İman, 8704).

Peyğəmbər – aleyhissəlam – Allahın əmrlərini yerinə yetirərək və özündən əvvəlki möhtərəm peyğəmbərlərin yolunu tutaraq həyatın hər sahəsində ən gözəl əxlaq nümunəsi olmuşdur.

Peyğəmbər Muhəmməd – aleyhissəlam – əhəmiyyətinə görə Məkkədən sonra ikinci müqəddəs şəhər hesab edilən Mədinədə və ya müsəlmanların adlandırdığı kimi nurlu Mədinədə öz məscidini bina etmişdir. Allahın rəsulu Muhəmməd – aleyhissəlam – Mədinəyə hicrət etmiş, orada öz məscidini bina etmiş və vəfatından sonra o şəhərdə dəfn edilmişdir. Hər il milyonlarla müsəlman bu məscidi ziyarət edir.





# Muhəmməd –aleyhissəlamın– dediyi sözlərdən bəzisi

Müsəlmanlar

Müsəlmanlar Peyğəmbər – aleyhissəlamın – hədislərinin həm şifahi, həm də, yazılı şəkildə yayılmasına diqqət yetirmiş, hafizlər və alimlər həmin hədislərin hər kəlməsini dəqiqləşdirib tədqiq etmək xüsusunda yarışmışlar. Onlar hədisləri tədqiq etmək və onların səhih olub-olmadığını bilmək istəyən insanlar üçün heyrətamiz qaydalar qoymuş, hətta, cümlələrə və kəlmələrə olduqca dəqiq təfsilatlar vermiş, üstəlik, bu hədislərə nəyin əlavə olub-olmadığını açıqlamışlar.

**Allahın rəsulu Muhəmməd – aleyhissəlamın – söylədiyi hədislərindən bəzi misallar bunlardır:**

- "Əməllər ancaq niyyətlərə görədir. Hər kəsə də yalnız niyyət etdiyi şey qalacaqdır" (əl-Buxari, 1).
- "Yaxşılıq gözəl əxlaqdır. Günah isə o şeydir ki, o, sənin qəlbini narahat edir və sən istəmirsən ki, insanlar ondan xəbər tutsun" (Muslim, 2553).
- "Dünyaya könül bağlama, Allah səni sevsin; insanların əlində olana da göz tikmə, insanlar səni sevsin" (İbn Macə, 4102).
- "Mənim və əvvəlki peyğəmbərlərin halı, gözəl və heyrətamiz bir ev tikmiş, lakin kərpicinin birini qoymamış bir kimsənin halına bənzəyir. Camaat bu evin yan-yörəsindən keçir, ona təəccüb edib deyirlər: "Nə üçün bura bir kərpic qoyulmayıb?!" Sonra Peyğəmbər – aleyhissəlam – davam edib dedi: "O kərpic mənəm və mən peyğəmbərlərin sonuncusuyam" (əl-Buxari, 3342).
- "Müsəlman o kəsdir ki, onun dilindən və əlindən başqa müsəlmanlara zərər dəyməsin; mühacir də o kəsdir ki, Allahın qadağan etdiyi şeyləri tərk edə" (əl-Buxari, 10).
- "Harada olursan ol, Allahdan qorx. Pisliyin ardınca yaxşılıq et ki, bu yaxşılıq həmin pisliyi silib aparsın. Və bir də insanlarla gözəl əxlaqla davran" (ət-Tirmizi, 1987).
- "Kim bir qeyri-müsəlmana zülm edər, yaxud onu taqətindən artıq yükləyər və ya ondan könül xoşluğu olmadan bir şey götürərsə, Qiyamət günü mən o zalıma qarşı çəkişən tərəf olaram" (Əbu Davud, 3052).



"Kiçiyimizə rəhm etməyən və böyüyümüzün haqqını tanımayan kimsə bizdən deyil" (ət-Tirmizi, 1920).





"İman gətirməyincə Cənnətə girə bilməzsiniz. Biri-birinizi sevməyincə (tamam-kamal) iman gətirmiş olmazsınız. Sizə elə bir şey öyrədimmi ki, onu etdikdə biri-birinizi sevəsiniz? Aranızda salamı yayın" (Muslim, 54).

- "Rəhm edənlərə Mərhəmətli Allah rəhm edər. Yerdəkilərə rəhm edin ki, göydəki də sizə rəhm etsin!" (Əbu Davud, 4941).
- "Kim bir mömінin dünya sıxıntılarından birini aradan qaldırarsa, Allah da onun Qiyamət günü olacaq sıxıntılarından birini aradan qaldırar. Kim işi çətinə düşmüş bir kimsənin işini asanlaşdırarsa, Allah da onun dünya və axirət işlərini asanlaşdırar. Kim bir müsəlmanın eyblərinin üstünü örtərsə, Allah da onun dünyada və axirətdə eyblərini örtər. Adam (mömin) qardaşının köməyində durduqca, Allah ona kömək edər. Kim elm almaq məqsədilə yola çıxarsa, bunun sayəsində, Allah onun Cənnətə gedən yolunu asanlaşdırar... Kim öz əməli ucbatından (axirət səadətinə qovuşmaqdan) məhrum olarsa, nəsəbi (axirət günü) ona fayda verməz" (Muslim, 2699).
- "Kələk gələn bizdən deyil" (ət-Tirmizi, 1315).
- "Möminlər bir-birini sevməkdə, bir-birinə mərhəmət göstərməkdə və bir-birinə can yandırmaqda bir bədən kimidirlər. Belə ki, bədənin bir əzasına xəstəlik üz verdikdə, bütün bədən yuxusuzluqdan və qızdırmadan əziyyət çəkir" (Muslim, 2586).
- "Hər biriniz himayəçisiniz və hər biriniz (himayəsində olanlara) cavabdehdir. Əmir himayəçidir və o, (öz rəiyyətinə) cavabdehdir. Kişi öz ailəsinin hamisidir və o, (öz himayəsində olanlara) cavabdehdir. Qadın ərinin evində himayəçidir və o, (öz himayəsində olanlara) cavabdehdir. Diqqət edin! Hər biriniz himayəçisiniz və hər biriniz (himayəsində olanlara) cavabdehdir" (əl-Buxari, 4892).
- "Sizin ən xeyirliniz öz ailəsinə yaxşılıq edəninizdir. Və mən ailəmə yaxşılıq edən ən xeyirlinizəm" (ət-Tirmizi, 3895).

- “Bir dəfə bir adam yolla gedərkən bərk susadı və bir quyu tapıb onun içinə endi və su içdi. Sonra quyudan bayıra çıxdıqda bir itin susuzluqdan ləhlədiyini və yaş torpaq yaladığını görüb öz-özünə: “Mən susadığım kimi, bu it də susamışdır”– dedi və quyuya enib ayaqqabısını su ilə doldurdu. Sonra quyudan çıxıb itə su verdi. Allah da ona bunun əvəzini verdi və onu bağışladı.” Səhabələr dedilər: “Ya Rəsulullah, məgər heyvanlara etdiyimiz yaxşılıqlara görə də bizə savab yazılır?” O buyurdu: “Hər bir canlıya göstərdiyin qayğıya görə savab vardır” (əl-Buxari, 2466).
- “Münafiqin əlaməti üçdür: danışdığı zaman yalan danışar; vəd verdiyi zaman vədinə xilaf çıxar; ona əmanət verildiyi zaman xəyanət edər” (əl-Buxari, 33).
- “Müsəlmanın İslamının gözəlliyi ondadır ki, ona aid olmayan işləri tərk etsin” (ət-Tirmizi, 2317).
- “Allah hər bi işdə mülayimlik olmasını sevər” (əl-Buxari, 5678).
- “Mülayimlikdən məhrum olan kimsə, xeyirdən məhrum olmuş olar” (Muslim, 2592).



### Quran Allahın rəsulu Muhəmməd aleyhissəlatu vəssəlamı necə vəsf etmişdir?

Quran bizə Peyğəmbər – aleyhissəlamın – şəxsiyyətinə dair heyrətamiz tərəfləri və onun öz ətrafında olan insanlarla davranışlarından xəbər verir. Quranda onun əxlaqı, səciyyəvi xislətləri və insanpərvərliyi belə vəsf edilir:

- O, təkcə müsəlmanlara yox, aləmlərə rəhmət olaraq göndərilmişdir (əl-Ənbiya, 107).
- O, ən böyük əxlaq sahibidir (əl-Qələm, 4).
- O, insanların doğru yola gəlməsinə çox hərislik göstərmiş, onların zəlalətdə olmasına da çox kədərlənmişdir. (Quranda) neçə-neçə ayədə təkidlə bildirilir ki, onun əsas qayəsi dəvət etmək və haqqı çatdırmaq olmuş, Allah da istədiyini doğru yola yönəltmişdir (Hud, 12, əl-Ənam, 107, əl-Kəhf, 110).
- O, daim başqaları üçün üzr axtarar və onların xətalarından keçməyə çalışarmış (ət-Tovbə, 43).
- O, özünə qadağan edilənədək, Allahdan düşmənləri üçün bağışlama diləmişdir (ət-Tovbə, 80).
- Möminlərin əziyyətə düşməsi ona ağır gəlir və o, onlara qarşı şəfqətli, rəhmlidir (ət-Tovbə, 128).
- Bəzi adamların uzun-uzadı onun evində oturması onu narahat etsə də, utandığından onlara heç nə deməmişdir (əl-Əhzab, 53).
- O, asanlaşdıran, üzürxahlıq qəbul edən, qəlbi yumşaq bir adam idi. Səhabələri ilə yumşaq davranar, onlarla məsləhətləşər, hətta, ən ağır və ən çətin hallarda belə onların rəyini qəbul edərdi.



# Qurani Kərim İslamın əbədi möcüzəsidir

Bütün dünyadakı kitablar arasında ən çox satılan və ən çox paylanılan bu Quran nədir? Bir milyard yarımdan çox müsəlman ona iman gətirir.

**Quran müsəlmanların müqəddəs kitabıdır. Onlar iman gətirirlər ki, o:**

- Allahın öz rəsulu Muhəmməd – aleyhissəlama – insanlar üçün nur və hidayət olaraq nazil etdiyi kəlamıdır.
- Nazil edilmiş səmavi kitabların sonuncusudur.
- Dəyişdirilməkdən və təhrif olunmaqdan qorunur.
- Onu oxumaq və əzbərləməklə ibadət edilir, habelə, möminlər onun əhkamlarını və qanunlarını yerinə yetirməklə də, ibadət edirlər.

Bu kitab, Peyğəmbər – aleyhissəlamın – 40 yaşı tamamlandıqdan sonra, mələk Cəbrail – aleyhissəlamın – vasitəsi ilə nazil edilməyə başlamışdır. Nazil olmuş ilk ayə (bu olmuşdur): “Yaradan Rəbbinin adı ilə oxu!” (əl-Ələq, 1). Bundan sonra 23 il ərzində, (ayələr) yerlərə və hadisələrə uyğun hissə-hissə nazil olmuşdur.

> Qurandan nazil olmuş ilk ayə: “Yaradan Rəbbinin adı ilə oxu!” ayəsidir. Bundan sonra 23 il ərzində, (ayələr) yerlərə və hadisələrə uyğun hissə-hissə nazil olmuşdur.

Quran 114 surədən ibarətdir. Hərçənd bu surələrin mövzuları və üslubları müxtəlifdir, lakin onlar ərəb bəlağətinin və fəsahətinin ən yüksək dərəcəsində olmaq baxımından eynidilər. Bu ayələr insanları doğru yola yönəldir və onları tək Allaha ibadət etməyə çağırır.

## Quranın söhbət açdığı ən mühüm sahələrdən bəzisi bunlardır:



1- Allahın vəhdaniyyətinin isbatı və Ona şərik qoşan kimsələrin şübhələrinin aradan qaldırılması.

2- Peyğəmbərlərin və keçmiş qövmlərin əhvalatları.

3- Geniş kainata, üstəlik, ətrafımızdakı məxluqlara nəzər salıb Allahın bizə bəxş etdiyi nemətlərin nə qədər çox olduğunu təhlil etməyə çağırış.

4- Dini qanunların, əmrlərin və qadağaların izahı.

5- Mömininin sifətlərinin və əxlaqi xüsusiyyətlərinin bəyan edilməsi, habelə, pis xislətlərin qadağan edilməsi.

6- Axirət günü barədə, habelə, yaxşılıq edənlərin mükafat qazanması, pislik edənlərin isə cəzalandırılması haqqında xəbərlər.

7- Peyğəmbər – aleyhissəlamın – və onun səhabələrinin başına gələn hadisələri qeyd etməklə möminlərin tərbiyə edilməsi.

**Bunlar Quranın bəzi üstünlüklərinə və xüsusiyyətlərinə dair misallardır.**





## Quranın qorunmasının möcüzə olması

Allah öz kitablarının sonuncusunu Quran adlandırmış və bununla da, onun oxunan və qəlblərdə qorunan bir kitab olduğuna işarə etmişdir. Həmçinin, bir çox ayələrdə onu Kitab adlandırmış və bununla da, onun yazılan və sətirlərdə qorunan bir kitab olduğuna işarə etmişdir. Beləcə, Quran eyni vaxtda iki üsulla qorunmuşdur. Peyğəmbər – aleyhissəlama – bir ayə nazil edildiyi zaman yanındakılar onu həm yazar, həm də, eşitdikləri kimi əzbərləyərdilər. Beləliklə də, hafizlərin sayının çoxluğundan asılı olmayaraq, onların hafizəsindəki ayələr yazılmış ayələrə müvafiq olmayınca qəbul edilməz, həmçinin, yazılmış ayələr də, Rəsulullah – aleyhissəlamın – özündən eşidib əzbərlədikləri ayələrə müvafiq olmayınca qəbul edilməzdi.

Halbuki nəsrani ilahiyyat alimləri təsdiq edirlər ki, İncildə olan ziddiyyətlər, incilləri yazan mənbələrin fərqli, tarixlərinin də müxtəlif olması səbəbindən meydana gəlmiş təbii bir şeydir. İncillərin ehtiva etdiyi ayələr, bilavasitə yazılmış ayələr deyil. Belə ki, onlar öz gördüklərinə əsasən, o incillərin özündə əks etdirdiyi, bəşəriyyət üçün olan hidayətlə kifayətlənərdilər.

Lakin insaflı oxucunun təsdiq edəcəyi danılmaz həqiqət budur ki, Quran istənilən zidiyyətdən və uyğunsuzluqdan tamamilə uzaqdır. Bu ona görədir ki, o, həm ləfz, həm də məna etibarı ilə qüdrətli və ulu Allahın kəlamıdır. Quranın əzbərlənməsi də, yazılması da, möhtərəm peyğəmbər Muhəmməd – aleyhissəlamdan – bilavasitə eşitməklə tamamlanmışdır. O peyğəmbər ki, özünə vəhy nazil olmuş və o, nə bu vəhyə bir şey əlavə etmiş, nə də ondan bir şey əskiltmişdir. Eləcə də, müsəlmanlar, öz aralarında olan məzhəb ayrı-seçkiliklərinə və fərqli baxışlarına rağmən Quranın bir kəlməsində belə ixtilaf etməmişlər.

Tarix boyu Quranın qorunması və nəsildən nəsilə nəql edilməsi ən dəqiq və ən mükəmməl surətdə, habelə, dəqiq yazılışı, tələffüzü, öyrədilməsi və qəlblərdə hifz edilməsi ilə həyata keçirilmişdir. Onun Quran kitablarındakı yazılış qaydalarında və rəsmində nə naqis hərf, nə də artıq sait səs tapmaq olar. Bu gün hər bir insanın imkanı var ki, Çinin ən ucqar məhəlləsindən, yaxud Afrikanın ortasından Qurandan bir nüsxə alıb onu min il bundan əvvəl yazılmış Quran əlyazmaları ilə tutuşdursunlar. Bu əlyazmalar dünyanın bir çox yerlərindəki müzeylərdə qorunub saxlanılır ki, bu ecazkar həqiqət aşkar olsun. Zamanın dəyişməsinə və dillərin müxtəlif olmasına baxmayaraq onun hərflərinin, kəlmələrinin və qiraətlərinin tələffüz qaydaları dəyişməmiş və əvəz edilməmişdir. Sən bu gün İndoneziyada və ya başqa bir müsəlman ölkəsində bir uşağın öz hafizəsindən oxuduğu Quranla, min il bundan əvvəl Məkkədə tədris edilən Quran arasında fərq tapa bilməzsən. Bu xüsusda Quranda deyilir: “Əgər bu Quran Allahdan başqası tərəfindən olsaydı, əlbəttə, onda çoxlu ixtilaf tapardılar” (ən-Nisa, 82). Bu qəribə deyil, çünki Allah onu qoruyacağını öz öhdəsinə götürmüşdür. O, demişdir: “Şübhəsiz ki, Zikri (Quranı) biz nazil etdik sözsüz ki, biz də onu qoruyacağıq” (əl-Hicr, 9).

## (İnsana bilmək istədiyini) izah edən və içindəkindən xəbər verən möcüzə:

Fikrini cəmləyib Quran oxuyan hər kəs görə bilər ki, Quran bilavasitə şəxsən onu oxuyan adama xitab edir, onunla etdiyi mübahisəni və ona olan müraciətləri dayandırmır. Bundan da çox təəccüb doğuran budur ki, Quran adamın fikirlərini qabaqlayıb ona aid müraciət edir. Sanki o, adamın fikrini özünə bildirməmişdən qabaq onu oxuyur.

Əgər mahir bir rəssam, istənilən istiqamətdən baxan adamı izləyən bir göz şəkli çəkə bilirsə (və bu qeyriadi bir istedad sayılırsa), onda bəs qabaqcadan adamın fikirlərini bilən və onları müəyyən edən, bəzən də, sual verməzdən əvvəl suallarına cavab verən kitab necə?! Halbuki onu oxuyan insanların özləri müxtəlif, mədəniyyətləri və həyat tərzləri də fərqlidir.

Həqiqətən, Quran insanın istəklərini müəyyən etmək, onun sirlərini aşkara çıxarmaq və zəifliyini ortaya qoymaq xüsusunda o heyranedici üslubu özündə cəm edir. Quranı oxuyan adama o, ilk baxışdan sərt görünür, ancaq bu ona görədir ki, o, adamı oyatsın ki, həmişə sonraya saxladığı və cavabını tapa bilmədiyi sualları eyni vaxtda onun ağlına və qəlbinə gətirsin.

Bizdən birimiz Quran oxuduğu zaman bir çox insanların başına gəlmiş hadisələri və onların vəsfini öyrənir, habelə, onların düşüncələrinin, mənəviyyatlarının və təmtəraqla söylədiklərinin sirlərini, bəzilərinin zəlalətə düşməsini, digərlərinin də uğur qazanmasını təsəvvür edir.. Beləcə, o, ilk dəfə nəfsini hesaba çəkməyə başlayır.. Lakin o ayələr, simalar və misallar ardıcıl olaraq təkrarlandıqca, adam hiss etmədən yavaş-yavaş onun qəlbinə yaxınlaşır və nəhayət, Quran insan üçün, onun həqiqi simasını, eyiblərini, nöqsanlarını, imkanlarını və fürsətlərini özünə göstərən bir güzgü olur.. Beləliklə də, Quran onu oxuyan adamın qəlbinin dərinliyinə nüfuz edir ki, o, boyun əyib Allahdan başqa haqq məbud olmadığını təsdiqləsin.

İnsan çarəsiz və naümid qaldığı zaman bu ayəni oxuyub təsəlli tapır: “Qullarıma Mənim bu sözümü de: “Ey Mənim özlərinə qarşı həddi aşmış qullarım! Allahın rəhmindən ümidinizi üzməyin. Şübhəsiz ki, Allah bütün günahları bağışlayır. O, həqiqətən, Bağışlayandır, Rəhmlidir!” (əz-Zumər, 53).

İnsan qarıxıb qaldığı və daxilində bərk sıxıntılar keçirdiyi zaman söykənməyə və sığınmağa bir dayaq axtarır. Bu lütfü isə o, Allahın bu kəlamında tapa bilər: “Qullarım səndən Mənim barəmdə soruşsalar, sözsüz ki, Mən onlara yaxınam, Mənə yalvaranın duasını yalvardığı vaxt qəbul edərəm. Gərək onlar da, Mənim çağırışımı qəbul etsinlər və Mənə iman gətirsinlər ki, doğru yola yönəlsinlər” (əl-Bəqərə, 186).



Adam düşünəndə ki, həyatı çıxılmaz haldadı və baş verən çətinliklərə qatlaşmağa, yaxud (bu halda) qərar verməyə gücü çatmayacaq, Allahın Qurandakı bu sözünün şəfa verən məlhəm və yardım edən dəstək olduğunu görür: “Allah hər kəsi yalnız onun qüvvəsi çatdığı qədər mükəlləf edər. Hər kəsin qazandığı xeyir yalnız onun özünə, qazandığı şər də, yalnız öz əleyhinədir. “Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yüklə yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyi bizə daşıtdırma! Bizi əfv et, bizi bağışla, bizə rəhm et! Sən bizim Himayədarımızsan! Kafir qövmə qalib gəlməkdə bizə yardım et!” (əl-Bəqərə, 286).

Bütün ədalətli tədqiqatçılar arasında, dünya mədəniyyətlərini araşıdıran tarixçi Vill Dürant (“Sivilizasiya tarixi”, 13/68-69) Quranın təsirini və onun yüksək məqamını etiraf edib demişdir:

Həm əvvəlki əsrlərdə, həm də yaşadığımız bu əsrdə çox alimlər və mütəfəkkirlər Qurana iman gətirmişlər. Həmçinin, insanların ağıl və təfəkkür səviyyəsinin fərqli olmasına baxmayaraq, olduqca çox adam Qurana iman gətirmişdir. Bunun da səbəbi yalnız budur ki, Quran hamının qəbul edə biləcəyi düzgün və aydın əqidəni gətirmişdir. Bu, ən asan, anlaşılmazlığı ən az olan, mərasimlərə və ayinlərə bağlılıqdan olduqca uzaq, bütpərəstlikdən və kahinlikdən ən çox xilas olan bir əqidədir. İslam insanlara həyatın çətinliklərinə sinə gərməyin, üstəlik, gileylənmədən və usanmadan həyati öhdəlikləri daşımağın yolunu öyrətmişdir. Allah bu dini elə tərzdə açıqlamış və müəyyən etmişdir ki, nə bir nəsrani, nə də bir yəhudi bundan savayı səhih əqidə tapa bilər: “Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl sahibləri Allaha, Axirət gününə, mələklərə, kitablara və peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, yoxsullara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə xərcləyən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə, döyüş zamanı səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da, məhz onlardır” (əl-Bəqərə, 177).

> Vill Dürant demişdir:
>
> İnsanların ağıl və təfəkkür səviyyəsinin fərqli olmasına baxmayaraq, çox alimlər və mütəfəkkirlər Qurana iman gətirmişdir. Bunun da səbəbi yalnız budur ki, Quran hamının qəbul edə biləcəyi düzgün və aydın əqidəni gətirmişdir. Bu, ən asan, anlaşılmazlığı ən az olan bir əqidədir.



# Quran haradan gəlib?

Müsəlmanların müqəddəs kitabı barədə söhbət açılarkən adamın ağlına gələn ilk məntiqi sual belə olur: "Quran, Muhəmməd – aleyhissalətu vəssəlam.. Niyə biz müsəlmanların bu mövzuda olan hekayəsini qəbul etməliyik? Məgər bizim buna dair suallar verməyə haqqımız yoxdur?"

Tarixçilər yekdil rəydədirlər ki, Quran, miladi tarixlə altıncı əsrdə, Məkkədə dünyaya gəlmiş, oxumaq və yazmaq bilməyən Muhəmməd ibn Abdullah adlı bir ərəbin dilində varid olmuşdur. Geniş məlumatlarla dolu tarixin şahidliyi bu şahidliyə uyğun gəlmir. Necə ki, biz bu kitabda aydın oxuyub görürük ki, o, onu təbliğ edən kimsənin əl işi deyil. O yalnız Allah tərəfindən ona nazil edilmiş möhtərəm kəlamdır. Muhəmməd – aleyhissəlamın – vəzifəsi isə sadəcə onu təbliğ etmək, habelə, əlavə etmədən və əskiltmədən onu insanlara izah etməkdir.

Heç ola bilərmi ki, İslamın rəsulu Muhəmməd – aleyhissəlam – Quranı özündən ixtira etmiş olsun və ya Quranı öyrəndikdən sonra onu insanlara öz adı ilə təqdim etsin?!

“sözlərini Allahın adına çıxarıb insanlar üzərindəki nüfuzunu genişləndirmək üçün belə bir hiylə qurmaq istəmişdirsə, onda nə üçün söylədiyi kəlmələrin hamısının Alah tərəfindən olduğunu iddia etməmişdir?!

Bunlar Quranı oxuyub öyrənməyən, habelə, Muhəmməd – aleyhissəlamın – həyat-yolundan və onun başına gələnlərdən xəbəri olmayan kimsənin ilk əvvəl ağlına gələn təbii suallardır

Bizim bildiyimiz və tarixi araşdırmaların isbat etdiyi həqiqət budur ki, ədiblərin və mütəfəkkirlərin çoxu başqalarının əsərlərinə girişər və onu oğurlayıb öz adlarına çıxarardılar. Elə isə nə üçün adam öz ağlının məhsulunu başqasına mənsub etməlidir?

Adamın ağlına gələn suallardan biri də budur ki, əgər Peyğəmbər – aleyhissəlam – öz kəlmələrini Allahın adına çıxarıb insanlar üzərindəki nüfuzunu genişləndirmək üçün belə bir hiylə qurmaq istəmişdirsə, onda nə üçün söylədiyi kəlmələrin hamısının Alah tərəfindən olduğunu iddia etməmişdir?!

Heç ağıla sığandırmı ki, o bu kitabı özü yazıb ixtira etmiş və onu Allaha nisbət etməklə öz nüfuz dairəsini genişləndirmək, habelə, öz məqamını və şərəfini ucaltmaq istəmişdir?! Halbuki biz o kitabın özündə, bir çox ayələrin təbliğatçısı Muhəmməd – aleyhissəlamın – özünü birbaşa qınadığını, ona yol göstərdiyini və onun xətalarını düzəltdiyini görürük.

Həqiqətən də, Quran, – onu oxuyan kimsələrin bildiyi kimi, – qınaqla bağlı məsələlərdə xüsusi və ya ümumi şəkildə heç kəsi istisna etməmişdir. Quran Muhəmməd – aleyhissəlamı – ailə həyatına aid işlərdə qınamış və ona nəsihətlər etmişdir. Eləcə də, idarəçiliklə əlaqəli bəzi qərarlarında, hətta, bəzən insanları dəvət etdikdə xətaya yol verdiyini bildirmişdir.

Buna dair misal gətirmək olar ki, Muhəmməd – aleyhissəlam – Qureyş başçılarından birisinin İslamı qəbul etməsinə ümid bəsləyərək onu dəvət etdiyi vaxt səhabələrindən kor birisi onun yanına gəlmiş və Muhəmməd – aleyhissəlamın – məşğul olduğunu bilmədiyi üçün onu çağırıb: “Allahın sənə öyrətdiyindən mənə də öyrət!”– demiş və bunu israrla bir neçə kərə təkrar etmişdir. Onda peyğəmbər – aleyhissəlam – qaşqabağını tökdü (qəzəbdən üzünün cizgiləri dəyişdi) və düşündü ki, öz işini bitirənədək bu kor adam onu gözləyər, sonra da, ondan üz çevirdi və ona cavab vermədi. Quran həmin bu anı saxlamış, baş vermiş o hadisəni tarixə həkk etmiş, onu dəqiq və təfsilatlı şəkildə vəsf etmiş və Muhəməd – aleyhissəlamın – kor adama necə qaşqabaq tökdüyünü və cavab vermədən ondan üz çevirdiyini bəyan etmişdir. Quran təkcə bununla kifayətlənməmiş, üstəlik, Allah öz peyğəmbərini qınamış və onu ciddi şəkildə xəbərdar edərək bir daha belə hərəkətə yol verməməyi adı həmin hadisə ilə bağlı olan surədə (Əbəsə, 1-11) bildirmişdir. Bu hadisədən sonra həmin kor adam hər dəfə Rəsulullah – aleyhissəlamın – yanına gəldikdə, Rəsulullah – aleyhissəlam – ona: “Xoş gəlibdir, o kimsə ki, Rəbbim ona görə məni qınamışdır!”– deyər və bürüncəyini onun altına sərərdi.



Quran Allahın öz rəsuluna düz istiqamət verdiyinə və onu qınadığına dair bir çox hadisələri bizə bildirir. O sözlər ki, əgər bu, bizdən birimizə bir toplum yanında deyilsəydi, adam onu özünə ayıb hesab edərdi. Məgər adam öz məqamını və şərəfini ucaltmaq üçün öz xətalarını ifşa edib, onları bu üslubla tarixə həkk edərmi?!

Bundan əlavə, elə bu tarixin özü bir çox yazılarda bizə Muhəmməd – aleyhissəlamın – necə çətin anlar yaşadığını isbat edir. (O çətin anlar ki,) həmin vaxt o, dediyi sözün doğruluğunu, yaxud Allahın rəsulu olduğunu, yaxud da özünün və ailəsinin təmiz olduğunu sübut etmək üçün vəhyin nazil olmasını təmənna etmiş, lakin onun istəyi dərhal yerinə yetməmişdir.

Misal olaraq qeyd etmək olar ki, Peyğəmbər – aleyhissəlam – ilə ədavət aparmış və ona əziyyət vermiş qövmü onun əleyhinə o biri ümmətlərin bəzi alimlərindən və kitab əhlindən kömək istəmişlər ki, Muhəmməd – aleyhissəlama – qarşı olan mübarizədə onlara yardım etsinlər.

“Quran Allahın öz rəsuluna düz istiqamət verdiyinə və onu qınadığına dair bir çox hadisələri bizə bildirir. O sözlər ki, əgər bu, bizdən birimizə bir toplum yanında deyilsəydi, adam onu özünə ayıb hesab edərdi.

Kitab əhli də onlara məsləhət görmüşdür ki, ondan üç şey haqqında soruşsunlar, əgər cavab verə bilsə, demək, o, peyğəmbərdir, yox, əgər cavab verə bilməsə, onda o, peyğəmbər deyil. Onlar (məsləhətə) əməl edib ondan o üç şey haqqında soruşdular. Peyğəmbər – aleyhissəlam – onları təhdid edib: "Sabah sizə cavab verəcəm?"– dedi.

Bundan sonra bir neçə gün Muhəmməd – aleyhissəlama – vəhy nazil olmadı. Belə olduğunu görən düşmənləri tez-tez gəlib onun yanından keçir və cavab verə bilmədiyinə görə ona istehza edirdilər. Muhəmməd – aleyhissəlam – onlara cavab verə bilmədiyinə görə çox narahat oldu. Yalnız on beş gündən sonra, o suallara cavab olaraq Qurandan Muhəmməd – aleyhissəlama – vəhy nazil oldu. O ayədə onun özünə xəbərdarlıq edilirdi ki: heç vaxt qətiyyətlə demə ki, mən bu işi sabah görəcəyəm. Yalnız bunu Allahın istəyinə bağlayıb: "İn şəə Allah" deməyin müstəsnadır. Cavabın gec nazil olması, Allah tərəfindən sənin üçün təlimdir.

## Təkrar edilən ittihamlar:

(Adamı) heyrətə gətirən budur ki, Muhəmməd – aleyhissəlamın – başına gələn hadisələr və həyatı, onun doğruçu olduğunu sübut edən ən aydın dəlillərdən sayılır.

Necə ola bilər ki, savadsız – oxumaq və yazmaq bilməyən bir adam, bisavad bir toplum arasında yaşasın, günah işlər istisna olmaqla, öz həyat tərzi onların həyat tərzi kimi olsun və onların məclislərində iştirak etsin, özünə və ailəsinə ruzi qazanmaqla məşğul olsun, muzdla

> Beləcə, bütün əvvəlki peyğəmbərlər – aleyhi-mussəlam – bu cür ittiham edilmişlər. Bu peyğəmbərlərin düşmənləri onları ittiham edəcək bir əsas tapmadıqda, onların sehrbaz və ya dəli olduqlarını iddia edərdilər.

qoyun otarsın və ya (kiminsə) ticarətini idarə etsin, alimlərlə də, heç bir əlaqəsi olmasın və ömrünün qırx ilini bu cür keçirsin, sonra da, bir anda qalxıb onlara özlərinin bilmədiklərini və atalarından eşitmədiklərini söyləsin, onlara əvvəlki ümmətlərin əhvalatları, yaradılışın başlanğıc tarixi, əvvəlki peyğəmbərlərin həyat tərzi barədə təfsilatlı izahlar və həyatın hər sahəsinə aid olan şəriət hökmlərinin incəlikləri barədə xəbər versin?!

Bu həqiqətlər Muhəmməd – aleyhissəlamın – qövmündən olan düşmənlərinə davamlı sarsıntı yaşatdı və buna görə də, onlar onun gətirdiyi Quran barəsindəki vəsflər xüsusunda tərəddüd etdilər. Belə olduğu təqdirdə, insanları ondan çəkindirmək üçün onu nə ilə ittiham etmək mümkündür?!

Odur ki, Quranın Muhəmməd – aleyhissəlamın – ixtirası olduğunu demək çətindir. Quranı oxuyan və onu təhlil edən kimsənin bunu deməsi ağlasığmazdır. Aramızda yaşadığı və həyatının bütün təfsilatını bildiyimiz halda onun bu Quranı başqasından öyrənməsi mümkün deyil. Kafirlər onu bir-birinə zidd olan işlərdə ittiham edərdilər. Gah deyərdilər ki: "O bunu özündən əvvəlki kitablardan götürüb", gah deyərdilər ki: "O



bunu özündən uydurub", gah da deyərdilər ki: "O, yuxuda gördüklərini danışır." İddialarını sübuta yetirməkdə aciz qaldıqda isə: "O, sehrbazdır, yaxud şairdir və ya dəlidir"– deyərdilər.

Əlbəttə ki, bu, çeynənmiş bir fikirdir, sadəcə adlar fərqlidir. Məgər Musa – aleyhissəlam – sehrbazlıqda ittiham edilməmişdi? Məgər İsa – aleyhissəlam – dəlilikdə ittiham edilməmişdi?

Beləcə, bütün əvvəlki peyğəmbərlər – aleyhimussəlam – bu cür ittiham edilmişlər. Bu peyğəmbərlərin düşmənləri onları ittiham edəcək bir əsas tapmadıqda, onların sehrbaz və ya dəli olduqlarını iddia edərdilər. Yalançı şahidin halı da, belədir, çətin vəziyyətə düşdüyünü və gətirdiyi dəlilin boşa çıxdığını hiss etdikdə, dərhal başqa yollara əl atır və hər cür nöqsan tutmağa çalışır ki, bəlkə ayaq qoya biləcəyi bir yer tapa bilsin. Lakin onu haradan tapa bilər!

## Niyə biz bunu adi bir dahilik saymırıq:

Hamı qəbul edir ki, Allah insan ağlına təsəvvür edilməz dərəcədə qüdrət və ixtira etmə bacarığı vermişdir. Lakin, məgər ağılın nəticə çıxarmaq və icad etmək xüsusunda məhdud olması təbii deyilmi? Hərçənd, ağıl yaradan və hər şeyə qadir olan Rəbbin mövcud olduğuna şahidlik edir, üstəlik, bu Rəbbin ədalətinin, axirət həyatında hər kəsə öz mükafatı və ya cəzası verilməsinə zərurət doğurduğunu (bilir), lakin, məgər ağıl, heç bir dəlil və sübut olmadan, (bu mövzuya dair) başqa təfsilatları və incəlikləri isbat edə bilirmi?



Quranı oxuyan adam görür ki, o, bizə imanın hüdudlarını təfsilatlı şəkildə şərh edir, habelə, yaradılışın başlanğıcını və necə qurtaracağını dəqiq şəkildə vəsf edir, həmçinin, Cənnət və onun nemətlərindən, Cəhənnəm və onun əzabından, onun qapılarının və gözətçi mələklərinin sayından xəbər verir, üstəlik, kainatın və insanın mahiyyəti haqqında dəqiq hadisələri müəyyən edir.. Belə olduğu təqdirdə, bu təfsilatlar hansı ağıl nəzəriyyəsinə əsaslanır?!

Şübhəsiz ki, bu xəbərlər insan zəkasından və dahilikdən irəli gələ bilməz. Bu, ya yalan, batil və təxmin edilən bir xəbərdir, ya da, yalnız təlim və ilham yolu ilə əldə edilmiş haqdır.

(Neçə-neçə hadisələr) olub ki, hədislərdə rəvayət edilmiş həqiqətlər bir müddət sonra xəbər verildiyi kimi öz təsdiqini tapıb. Həmçinin, bu xəbərlər əvvəlki səmavi kitablardakı qeybi xəbərlərə uyğun gəlmişdir.

## Sanki Peyğəmbər – aleyhissəlam – özünün gətirdiyi kitabda əvvəlki kitabların üslubunu təkrar etmişdir:

Gəlin, bir anlıq dayanıb təhlil edək, məgər azacıq da olsa, ehtimal varmı ki, Peyğəmbər – aleyhissəlam – bu məlumatları əvvəlki peyğəmbərlərin kitablarından götürmüş olsun?

Əgər biz Muhəmməd – aleyhissəlamın – etibarlı, həm də, oxumaq və yazmaq bilməyən bir adam olduğunu, eləcə də, qövmünün əksəriyyətinin bisavad olduğunu və o elmlərdən xəbərləri olmadığını, habelə, – uşaq ikən qohumları ilə birlikdə çıxdığı səfər əsnasında görüşdüyü rahib istisna olmaqla, – kitab əhlindən heç kəslə yoldaşlıq etmədiyinin həqiqət olduğunu, üstəlik, tarixi həqiqətlərə əsasən kitab əhlinin həmin dövrdə, öz məqamlarını qorumaq məqsədilə elmi gizlətdiklərini və onu heç kəsə bildirmədiklərini, onun rahat əlçatan bir şey olmadığını nəzərə almasaq...

Əgər bütün bunları nəzərə almasaq, (qeyd etmək olar ki,) araşdırma aparan istənilən adamın qarşısında görünən həqiqət budur ki, Qurandakı xəbərlər həmin dövrdə mövcud olan səmavi kitablardakı məlumatların hamısına uyğun gəlməmişdir, əksinə, Quran, (din alimlərinin təhrif etdiyi) bəzi yanlış məlumatları düzəltmək, bəzi naqis əhvalatları tamamlamaq və onların gizlətdikləri elmi üzə çıxarmaq, habelə, bəzi din alimlərinin peyğəmbərlərin – aleyhissəlam – dini ilə əlaqələndirdiyi, lakin onunla yaxından-uzaqdan heç bir əlaqəsi olmayan etiqadi və əxlaqi sapıqlıqlarını bəyan etmək üçün nazil edilmişdir. Quran buna dair misallarla doludur. Bütün bunları nəzərə alıb, peyğəmbər – aleyhissəlamın – onların tələbəsi olduğunu və bu məlumatları onlardan aldığını demək mümkündürmü?!

## (Haqqı nahaqdan) ayırd edən tarixi həqiqət:

İnsaflı araşdırıcının (yazılanları) təhlil etməsindən ötrü uzun-uzadı (onun üzərində) durmasına lüzum yoxdur... Məgər İslamın rəsulu Muhəmməd – aleyhissəlam – ərəb deyildimi?

Məgər tarix bizə xəbər vermir ki, həmin dövrdə onun qövmü – ərəblər, fəsahət və bəlağətdən başqa, özlərinin fəxr edə biləcəkləri heç bir elmə sahib deyildilər?! Onların bacardığı, yalnız şeiriyyat və ədəbiyyatla məşğul olmaq idi. Onlar bunun üçün xüsusi yerlər, məclislər və yığıncaqlar təşkil edər, qəbilələr haqqında qəsidələr deməklə, onlardan bəzisini ucaldar, digərini isə alçaldardılar.

Tarix və ədəbiyyat kitabları bizə xəbər verir ki, o ərəblərin arasında elə birisi olmamışdır ki, onun söylədiyi şeiri və ya nəsri qınayanlar, yaxud onun sözündəki naqisliyi tamamlayanlar, yaxud unutduğunu onun yadına salanlar, yaxud da, onun öz üslubu ilə onun cavabını verənlər olmasın. Məhz bu deyişmələr, onların yarışma meydanı, qüvvələrinin və üstünlüklərinin təzahürü idi.



Bəs necə ola bilər ki, o ərəblərin ən qatı düşməni, onların hər vasitə ilə mübarizə apardığı, nifrət etdiyi və çəkindirdiyi bir adam gəlib onlardan Qurana bənzər bir kitab, yaxud onun kiçik bir hissəsinə bənzər bir kəlam gətirmələrini tələb etməklə onları hədələsin, onlar da, susub mübahisədən qaçmaqla bu hədələrə cavab verməsinlər.

Məgər Muhəmməd – aleyhissəlam – bu cür hədələməkdən qorxmurdu ki, birdən bu hədələr onlarda qəzəb oyadar və onlar tək-tək, yaxud toplum şəklində onunla münaqişəyə qalxıb onu susdurmaq, üstəlik, insanlara onun gətirdiyinin batil olduğunu sübut etmək üçün özlərinin xüsusi məharətini və ən yüksək biliklərini ortaya qoyarlar.

Fərz edək ki, peyğəmbər – aleyhissəlam – öz qövmünün nəyə qadir olduğunu öyrənmək üçün onları hədələməyə cürət etmişdir. Yaxşı bəs Qiyamətədək gələcək nəsillər barədə necə qətiyyətlə hökm verə bilərdi ki, onlar nə Qurana bənzər bir kitab, nə də onun kiçik bir hissəsinə bənzər bir kəlam gətirə bilərlər, hətta bunun üçün bir yerə toplaşsalar belə?!

Bu elə qorxulu bir işdir ki, yalnız qəlbi arxayınlıqla dolu olan və söylədiyinin doğru olduğunu yəqin bilən adam bu addımı ata bilər.. Bu iş elə deyildiyi kimi də oldu. Qureyşlilər və mahir natiqlər nə Qurana bənzər bir kəlam, nə də onun kiçik bir hissəsinin bənzərini yazmağa cürət etmişlər. Bu, o zamandan ta indiyədək baş vermiş həqiqətdir. Tarix boyu kim buna cəhd göstərmişdir və ya buna niyyət etmişsə, o, uğursuzluğa və rüsvayçılığa uğramış, habelə, qövmünün gülünc yerinə qoyduğu bir adama, üstəlik, lağlağıya qoyulmaq və mədəni şəkildə ələ salınmaq üçün bir bəhanəyə çevrilmişdir.



## Hər kəsin öz son sözü vardır:

Bütün bu deyilənlərdən sonra, hər birimizin Quran barədə deyəcəyi son sözü və bir də, ərəb dilində başa düşmədiyi təqdirdə, öz ana dilində olan münasib bir tərcümə seçib ondan oxuduğuna, öyrəndiyinə və düşündüyünə əsasən öz şəxsi təcrübəsindən meydana gəlmiş mövqeyi qalır.

Quranda xəbər verilir ki, Muhəmməd – aleyhissəlamın – peyğəmbərliyinin doğruluğunu isbat edən dəlillərin ən əzəmətlisi, Quranı oxuduqdan və onun mənası barədə düşündükdən sonra qəlbimizin və ağlımızın qəbul etdiyi nəticələrdir: Uca Allah buyurur: “Onlara oxunan Kitabı sənə nazil etməyimiz onlar üçün kifayət deyilmi? Həqiqətən, bunda iman gətirən adamlar üçün mərhəmət və ibrət var” (əl-Ənkəbut, 51).

Uca Allah hər kəsi Quran oxumağa, onu təhlil etməyə və onun barədə düşünməyə çağırır və bildirir ki, bundan yalnız qəlbinə və ağlına qıfıl vurulmuş kimsələr imtina edə bilərlər (Muhəmməd, 24).



## “əl-Fatihə” surəsi:

Bu, Quranda olan ən əzəmətli surədir. (Hər bir) müsəlman onu davamlı olaraq öz namazlarında təkrar edir. Onun müxtəsər olaraq mənası belədir:

| | “əl-Fatihə” surəsinin mənası |
|---|---|
| ((Mərhəmətli, Rəhmli Allahın adı ilə!)) | Allahın adına ədəblə yanaşaraq və onu uca tutaraq başlayıram. Allah mərhəmət sahibidir. O mərhəmət ki, hər şeyi əhatə edir. |
| ((Həmd, aləmlərin Rəbbi Allaha məxsudur)) | Mən Allaha, Ona olan sevgi və əzəmətli ehtiramla bərabər Onun bütün sifətləri, gördüyü işləri, zahirdə və batində olan nemətləri ilə tərif edirəm. O, Yaradan, Hökmdar, bütün işləri İdarə edən və aləmlərdə mövcud olanların hamısına Nemət verəndir. |
| ((Mərhəmətli və Rəhmliyə)) | Allah, mərhəmət kəlməsinin hər mənasını, hər bir halını və hər bir sahəsini özündə cəm edir. Onun mərhəməti, həm bu kaianatda hər şeyi əhatə edən ümumi mərhəmət, həm də, öz mömin qullarına aid olan xüsusi mərhəmtdir. |
| ((Din gününün Hökmdarına!)) | Allah, əməllərin əvəzini verəcəyi və sorğu-sual edəcəyi günün Hökmdarı və İdarə edənidir. |
| ((Biz yalnız Sənə ibadət edir və yalnız Səndən kömək diləyirik)) | Ey Rəbbimiz, biz məxsusi olaraq təkcə sənə ibadət edir, ibadətin heç bir növündə Səndən başqasını Sənə şərik qoşmuruq və bütün işlərimizdə təkcə Səndən kömək diləyirik. Bütün işlər Sənin əlindədir və heç kəs bu işlərdən zərrə qədər olanını belə yerinə yetirməyə qadir deyil. |
| ((Bizi doğru yola yönəlt)) | Allahım, bizə doğru yolu göstər, bizi o yola yönəlt, bizi o yolla getməyə müvəffəq et və bizi Sənin hüzuruna qayıdanadək o yolda sabit et! |
| ((nemət bəxş etdiyin şəxslərin yoluna)) | Nemət olaraq hidayət verdiyin və düz yola yönəltdiyin, haqqı bilən və ona əməl edən peyğəmbərlərin və əməlisaleh insanların yoluna |
| ((qəzəbə uğramışların və azmışların yoluna yox)) | Bizi Sənin qəzəbinə və qeyzinə gəlmiş kimsələrin yolundan uzaqlaşdır və bizi ondan xilas et. Belə ki, onlar haqqı bilmiş, lakin ona əməl etməmişlər. Eləcə də, cahilliklərinə və haqqı öyrənmək istəmədiklərinə görə doğru yoldan sapmış kimsələrin yolundan (uzaqlaşdır və bizi bundan xilas et). |
| ((Amin)) | Allahım qəbul et! |



# İslama aid olan ibadətlərin həqiqi mənası nədir?

## Allahın bizim ibadətimizə ehtiyacı varmı?

Qüdrətli və uca Allahın bizim ibadətimizə və əməllərimizə ehtiyacı yoxdur. İslama görə, sadəcə ayinləri yerinə yetirmək, zahirdə əməl etmək və pul xərcləməklə nicat tapmaq və əzabdan qurtulmaq mümkün deyil. Uğur qazanmaq üçün tam səmimiyyətlə Allaha yönəlmək və Ona iman gətirmək gərəkdir. Vacib olan budur ki, (mömin adam) hazırda yüksək mənəviyyat və əxlaq nümayiş etdirməli, habelə, bəşəri cəmiyyətə xitmət etməli və onun inkişafı üçün səy göstərməlidir.

## Allahın bizim ibadətimizə ehtiyacı varmı?

Qüdrətli və uca Allahın bizim ibadətimizə və əməllərimizə ehtiyacı yoxdur. İslama görə, sadəcə ayinləri yerinə yetirmək, zahirdə əməl etmək və pul xərcləməklə nicat tapmaq və əzabdan qurtulmaq mümkün deyil. Uğur qazanmaq üçün tam səmimiyyətlə Allaha yönəlmək və Ona iman gətirmək gərəkdir. Vacib olan budur ki, (mömin adam) hazırda yüksək mənəviyyat və əxlaq nümayiş etdirməli, habelə, bəşəri cəmiyyətə xitmət etməli və onun inkişafı üçün səy göstərməlidir.

Allah Quranda buyurur: “Mən cinləri və insanları ancaq Mənə ibadət etmək üçün yaratdım. Mən onlardan ruzi istəmirəm. Mən onlardan Məni yedirtmələrini də istəmirəm. Həqiqətən, Allah ruzi verəndir, qüvvət sahibidir, Mətindir” (əz-Zariyat, 56-58).

İslamda namazın Kəbə istiqamətində qılınmasına rəğmən, bəzi insanlar namaz qibləsinin doğru istiqaməti barədə bir-birinə sual verdikləri və bu məsələni aydınlaşdırmaq istədikləri zaman, onlara qəti şəkildə xəbər verilmişdir ki, dini doğru-düzgün yaşamaq, şərqə və ya qərbə tərəf üz tutmaqda yox, səmimi-qəlbdən iman gətirməkdə, Allaha üz tutmaqda, yaxşı işlər görməkdə və bəşəriyyətə fayda verməkdədir. Uca Allah onlara belə buyurur: “Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl sahibləri Allaha, Axirət gününə, mələklərə, kitablara və peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, yoxsullara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə xərcləyən, namaz qılıb zəkat verən, əhd bağladıqda əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə, döyüş zamanı səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da, məhz onlardır” (əl-Bəqərə, 177).

Quran bizə bir daha qətiyyətlə bildirir ki, kim ibadətə və dinə aid olan işləri yerinə yetirməkdə səy göstərirsə, bu yalnız onun özünə fayda verir və yalnız onun özünə uğur qazandırır. Kim də küfr edirsə, o da yalnız özünə zərər yetirir. Allahın buna əsla ehtiyacı yoxdur (əl-Ənkəbut, 6).



Bəzi insanlar namaz qibləsinin doğru istiqaməti barədə bir-birinə sual verdikləri və bu məsələni aydınlaşdırmaq istədikləri zaman, onlara qəti şəkildə xəbər verilmişdir ki, dini doğru-düzgün yaşamaq, şərqə və ya qərbə tərəf üz tutmaqda yox, səmimi-qəlbdən iman gətirməkdə, Allaha üz tutmaqda, yaxşı işlər görməkdə və bəşəriyyətə fayda verməkdədir.



## İslamın rüknləri:

Bu rüknlər, İslamda buyurulmuş ibadətlərin ən əhəmiyyətlisidir. Bunlar aşağıdakılardır:




Allahdan başqa haqq məbudun olmadığına və Muhəmməd – aleyhissəlamın – Allahın rəsulu olduğuna şəhadət gətirməklə, ibadətin yalnız Allaha, tabeçiliyin də, yalnız Onun rəsulu Muhəmməd – aleyhissəlama – məxsus olduğuna iman gətirmək və bunu təsdiq etmək. (Bax: səh. 30)




Vacib namazları yerinə yetirmək. (Bax: səh.98)




Haqqı çatan kəslərə zəkat vermək. (Bax: səh.102)




Maddi və fiziki imkan daxilində Allahın evi Məscidulhəramı ziyarət etmək. (Bax: səh.104)




Ramazan ayını oruc tutmaq. (Bax: səh. 106)

## (İnsanın) mükəlləf olması və sınağa çəkilməsi nə üçündür?

Bu məsələyə dair verilən suallar müxtəlif formalarda olsa da, belə suallar hələ də verilməkdədir. Bəziləri deyir: “Necə ola bilər ki, Allah bizim üçün ağız, diş və mədə yaratsın, sonra desin ki, oruc tutun, yaxud bizə gözəllik və şəhvət əta etsin, sonra desin ki, gözünüzü haramdan çəkin və iffətinizi qoruyun.” Hətta bəziləri cürət edib deyirlər: “Nə üçün bizə qüvvət vermiş, sonra isə bizə başqaları ilə ədavət aparmağı və onlara zülm etməyi qadağan etmişdir.”

Həqiqət budur ki, İslam təsəvvüründə bu məsələ olduqca aydındır. Allah bizə o bacarıqları və qüvvəni əta etmişdir ki, onlar bizdən yox, biz onlardan istifadə edək. (Məsələn,) Allah sənə at nəsib etmişdir ki, o səni yox, sən onu minib sürəsən. Eləcə də, bizim bədənimiz və gücümüz, bizim üçün yaradılmış atlardır ki, onlar bizi yox, biz onları minib sürək, onları yüyənləyək və onlardan lazımi vaxtda, lazımi yerdə və düzgün yolda istifadə edək.

Bundan aydın olur ki, insanın məqamı və üstünlüyü onun şəhvətini cilovlamaq, nəfsinin istəyini idarə etmək və öz gücünü faydalı işlərə yönəltmək qüdrətinə bağlıdır. Allah bunun sayəsində insanların birini digərindən üstün etmiş və onlar üçün sınaq meydanı hazırlamışdır. Allah bizi elə bunun üçün yaratmışdır.

Necə ki, Quranda deyilir: “İnsanı qarışdırılmış nütfədən yaradaraq onu sınaqdan keçirmək məqsədilə eşidən və görən etdik. Şübhəsiz ki, Biz ona yol göstərdik! Fərqi yoxdur, ya şükür etsin, ya da naşükür olsun” (əl-İnsan, 2-3).

İnsana üz verən müsibətlərin və sıxıntıların hamısı, bizim mənəviyyatımız, əxlaqımız və imanımızla bağlı əhvalımızı düzəltmək, habelə, bu həyatdakı qayəmizi və mövqeyimizi bir daha təkrar xatırlamaq üçün əlavə bir sınaqdır. Quranda zikr edildiyi kimi: “Biz sizi bir az qorxu, bir az aclıq, bir az da mal-dövlət, insan və məhsul itkisi ilə sınayarıq. Səbir edənləri müjdələ. O kəslər ki, onlara bir müsibət üz verdikdə: “Biz, Allaha məxsusuq və biz yalnız Ona qayıdacağıq!”– deyirlər” (əl-Bəqərə, 155-156).

Beləcə aydın olur ki, dünya həyatı bizim üçün imanın və əxlaqın artmasına və azalmasına səbəb olan asanlıqla əldə ediləcək bir şeydir. Pak və müqəddəs Allah bizə doğru yola yönəlməyimiz və düzəlməyimiz üçün təkrar fürsətlər versə də, lakin O, bizi buna məcbur etmir, əksinə, bizim seçimimiz üçün qapıları açıq qoymuş və bizə torpağı əkibbecərməyi və insanlara fayda verməyi, habelə, xətalarımızdan və ictihadlarımızdan nəticə çıxarmağı, hər dəfə xəta etdiyimizi və büdrədiyimizi gördükdə, qayıdıb Ona tövbə etməyi tövsiyə etmişdir. Bu xüsusda möhtərəm Muhəmməd – aleyhissəlam – demişdir: “Əgər siz günah etməsəydiniz, Allah sizin canınızı alar və (əvəzinizə elə) insanlar yaradardı ki, onlar günah işlər görər, sonra Allahdan bağışlanma diləyər və O da onları bağışlayardı” (Muslim, 2749).





> İnsanın məqamı və üstünlüyü onun şəhvətini cilovlamaq, nəfsinin istəyini idarə etmək və öz gücünü faydalı işlərə yönəltmək qüdrətinə bağlıdır.

# Namaz

Ola bilsin ki, sən na vaxtsa bir və ya bir neçə müsəlmanın müəyyən istiqamətə üz tutub qiyamda durduğunu, sonra rüku və səcdə etdiyini, onların sanki dünyadan təcrid olunduqlarını – o qəribə mənzərəni bilavasitə öz qarşında və ya kütləvi informasiya vasitələrində görəndə, bunun nə olduğunu soruşmusan.

## Elə isə nədir müsəlmanların namazı?

İslamda namazın əhəmiyyətinin olduqca böyük olması ona görədir ki, o, Allaha yaxınlaşmaq, Ona dua etmək və Ona boyun əymək üçün ən əhəmiyyətli yoldur. Necə ki, Allah öz peyğəmbərinə buyurur: “Səcdə et və Rəbbinə yaxınlaş” (əl-Ələq, 19). Elə buna görə də o, şəhadət kəlməsini tələffüz etdikdən sonra, İslam rüknlərinin ikincisi sayılır.

Peyğəmbər – aleyhissəlam – demişdir: “İslam beş dayaq üzərində bina edilmişdir. Allahdan başqa haqq məbudun olmadığına və Muhəmmədin Allahın rəsulu olduğunu şahidlik etmək, namaz qılmaq...” (əl-Buxari, 8).

İslam bizə öyrədir ki, hər bir müsəlman namaz qıldıqda, qəlbini təmizləməyə, səylərini bir araya gətirməyə, fikirlərini cəmləşdirməyə, Allaha olan itaətinin xalis olmasına, üstəlik, qəlbini rahat və arxayın tutmaqla Allaha yaxınlaşmağı hiss etməyə çalışdığı qədər savab qazanır. Elə buna görə də, namaz Muhəmməd peyğəmbər – səllallahu aleyhi və səlləmə – ən böyük zövq verən əməl olmuşdur.

Beləliklə də, Quran bizə, namazı sadəcə yerinə yetirməyə yox, həm də, onu doğru-düzgün şəkildə qılmağa təşviq edir. Belə ki, doğru-düzgün şəkildə qılmaq deyildikdə, onu düşünərək, qəlbən və ruhən yerinə yetirmək nəzərdə tutulur. Əgər biz namazı bu qaydada qılsaq, o, bizi xeyirli işlərə yönəldən, üstəlik, bizi pis işlərdən və böyük günahlardan çəkindirən bir xeyir vasitəsi olar. Allahı zikr etmək və Ona sığınmaq mütləq şəkildə insanın etdiyi ən əzəmətli əməldir (əl-Ənkəbut, 45).

> Namaz Allahın əzəmətli olduğunu etiraf etmək və Onu uca tutmaq üçün deyilən sözlər və yerinə yetirilən əməllərdir.

Kim düşünürsə ki, namaz sadəcə yuyunub təmizləndikdən sonra yerinə yetirilən bədən hərəkətlərindən ibarət bir idmandır, yanılır, çünki onun gördüyü namaz hərəkətləri, yalnız qəlblərdə Allahın əzəmətli olduğunu etiraf etmək və Onu uca tutmaq üçün deyilən sözlər və yerinə yetirilən əməllərdir. Namaz qılan adamın (namaza başladıqda) əllərini qaldırıb tələffüz etdiyi ilk söz “Allahu Əkbər/Allah ən böyükdür” (sözüdür), sonra o, tamamilə qorxu içində, Allahın əzəmətini hiss edərək və özünün aciz olduğunu etiraf edərək rüku edib deyir: “Subhanə Rabbiyəl-azim/əzəmətli Rəbb pak və müqəddəsdir!” Sonra Allaha yaxınlaşması və duasının qəbul edilməsi üçün Allaha səcdə edir, alnını və burnunu yerə qoyub deyir: “Subhanə Rabbiyəl-əla/uca Rəbb pak və müqəddəsdir!” sonra Ona dua edir və Ondan mədəd diləyir. Namazının digər hərəkətləri və sözləri də, həmçinin, sadəcə hərəkətlərdən və öz-özünə danışmaqdan ibarət deyil, əksinə, olduqca dəyərli anlardır. Həmin vaxt mömin adam öz Rəbbinə və Xaliqinə qovuşur. O Rəbbi ki, mömininin varlığı və səadəti Onun əlindədir.



> Namaz Muhəmməd peyğəmbər – səllallahu aleyhi və səlləmə – ən böyük zövq verən əməl olmuşdur.



Məscidul-Həram müsəlmanların ən böyük məscididir. Bu məsciddə, İbrahim peyğəmbərin bina etdiyi Kəbə yerləşir. Bu bina kub formasındadır. Quran müsəlmanlara buyurur ki, dünyanın istənilən yerində namazlarını qılarkən Kəbəyə tərəf üz tutsunlar. Bununla yanaşı etiqad etməlidirlər ki, bu ev nə zərər, nə də fayda verir.

Allah müsəlmanlara gecə-gündüz beş vaxt namaz qılmağı vacib buyurmuşdur. Hərçənd istənilən yerdə namaz qılmaq səhih sayılır, lakin Allah müsəlmanları məscidlərdə namaz qılmağa təşviq etmişdir ki, bir-biriləri ilə sıx əlaqə qursunlar, aralarındakı bağlılıq möhkəmlənsin, dini və dünyəvi işlərdə bir-birilərinə kömək etsinlər.

İslam, həmçinin, hər bir müsəlmanı bacardığı qədər nafilələri (müstəhəb sayılan namazları) qılmağa təşviq etmişdir.

Müsəlmanlar öz namazlarını üzü Kəbəyə qılırlar. Bu, kubşəkilli bir tikilidir. Onu ilk dəfə peyğəmbərlərin atası sayılan İbrahim – aleyhissəlam –Ərəbistan yarımadasının qərbində yerləşən Məkkədə bina etmişdir. Peyğəmbərlər – aleyhimussəlam – bu evi ziyarət etmişlər. Müsəlmanlar bilirlər ki, bu, daşlardan ibarət bir tikilidir, nə zərər yetirməyə, nə də fayda verməyə qadirdir, fəqət Allah namaz qılan kimsənin ona tərəf yönəlməsini əmr etmişdir ki, müsəlmanların hamısı bir istiqamətə yönəlsin.

## Azan:

İnsanlara namaz vaxtının girdiyini bildirən və müsəlmanları məscidə səsləyən çağırış azan adlanır.

Bu, Allahı zikr etməyin və onu uca tutmağın bir növü, həm də, müsəlmanların namaza toplaşması üçün bir hazırlıqdır. Sözləri də belədir:

1. Allahu əkbər, Allahu əkbər, Allahu əkbər, Allahu əkbər (Allah ən böyükdür – 4 kərə təkrar edilir).
2. Əşhədu ən lə ilahə illəllah, əşhədu ən lə ilahə illəllah (mən şahidlik edirəm ki, Allahdan başqa haqq məbud yoxdur – 2 kərə təkrar edilir).
3. Əşhədu ənnə Muhəmmədən rəsulullah, əşhədu ənnə Muhəmmədən rəsulullah (mən şahidlik edirəm ki, Muhəmməd Allahın rəsuludur – 2 kərə təkrar edilir).
4. Hayyə aləs-saləh, hayyə aləs-saləh (namaza tələsin – 2 kərə təkrar edilir).
5. Hayyə aləl-fələh, hayyə aləl-fələh (qurtuluşa tə-ləsin – 2 kərə təkrar edilir).
6. Allahu əkbər, Allahu əkbər (Allah ən böyükdür – 2 kərə təkrar edilir).
7. Lə ilahə illəllah (Allahdan başqa haqq məbud yoxdur).

## Zəkat

Hamı yəqin bilir ki, həddən artıq zənginliklə son dərəcədə kasıblıq ikitirəliyinin həlli olmalıdır. Hər kəs onu da bilir ki, zənginlərlə kasıblar arasındakı uçurumun dərinliyi nə qədərdirsə, bir o qədər də, cəmiyyətin dağılmaq, rəzalətə uğramaq, cinayət törətmək və bölünmək təhlükəsi var. İqtisadi sistemlərdə, fəlsəfi fikirlərdə və hüquq qanunlarında bu müşkül məsələni həll etməyin müxtəlif yolları qeyd edilib. Bəs İslam bu məsələni necə yoluna qoyur?

Allah varlı müsəlmanlara hər il öz şəxsi ehtiyaclarından artıq qalmış mallarının 2.5%-ni zəkat çıxarıb ehtiyacı olan fəqirlərə, miskinlərə və başqa bu kimi insanlara verməyi vacib buyurmuş və bunu İslam rüknlərinin üçüncüsü etmişdir.

Zəkat varlının kasıba olan minnəti yox, əksinə, varlının malından götürülən kasıbın haqqıdır. Zəkat ehtiyacı olan kimsəyə, özü əl açmadan, üstəlik, boynuna minnət qoyulmadan verilir.

(Zəkat) veriləcək bu cüzi miqdarda olan mal, zəngin müsəlmana vacib buyurulan miqdardır. Bundan artıq xərcləmək (əlavə sədəqə vermək) üçün isə meydan açıqdır (məhdudiyyət qoyulmayıb) ki, insanlar bu işdə bir-biriləri ilə yarışsınlar, sonra da, o xərcləməyin nəticəsini görsünlər – bu həyatda sağlamlıq, mal-dövlət, müvəffəqiyyət və xoşbəxtlik, axirətdə isə, savab və qat-qat artırılmış nemətlər əldə etsinlər.

Quranda xəbər verilir ki, mallarını Allahın rizasını qazanmaq üçün xərcləyənlərin misalı yeddi sünbül verən bir buğda toxumunun misalına bənzəyir ki, sünbüllərin hər birində yüz ədəd dən vardır. Hər bir toxum yeddi yüz dəfə artmışdır. Lakin Allah bunu, malını xərcləyən kimsənin səmimiliyinə və niyyətinə uyğun olaraq artırır.



Zəkat varlının kasıba olan minnəti yox, əksinə, varlının malından götürülən kasıbın haqqıdır. Zəkat ehtiyacı olan kimsəyə, özü əl açmadan, üstəlik, boynuna minnət qoyulmadan verilir.

Allahın lütfü genişdir, O bütün işlərin mahiyyətini biləndir (əl-Bəqərə, 261).

Quran bizə xəbər verir ki, ehtiyacı olanlara maddi yardım etmək insanın qəlbini təmizləyir, onu təmizə çıxarır. Allah öz möhtərəm rəsuluna belə xitab edir: “Onların mallarından sədəqə götür ki, bununla onları pak edib təmizə çıxarasan” (ət-Tovbə, 103).

Onu da xəbər verir ki, malını verməyə xəsislik edən, onu xərcləməkdən, fəqirlərə və miskinlərə kömək etməkdən boyun qaçıran kimsə ziyana uğrayanların birincisidir. Çünki o, dünya və axirət səadətinə qovuşmaq xüsusunda, öz əleyhinə xəsislik edir (Muhəmməd, 38).

İslamın rüknlərindən olan bu əzəmətli rükn tətbiq edildikdə, sosial təminat anlayışı həyata keçirilir və cəmiyyətdəki dəstələr arasında nisbi tarazlıq yaranır. Zəkat çıxardıb onu haqqı çatan kimsələrə verdikdə, (xalqın) sərvəti cəmiyyətdəki müəyyən qrup insanlarda üst-üst qalanmış halda qalmır və onların möhtəkirlik etməsinə yol vermir. Əvvəlki müsəlmanların dövründə dəfələrlə olub ki, zəkatı və digər sədəqələri məmləkətlərdə gəzdirib onu verməyə adam axtarıblar, lakin ehtiyacı olan bir kimsə tapmayıblar.

Həmçinin, (varlı ilə kasıb arasında) ilkin ünsiyyət və ülfət yaranır. Bu ona görədir ki, insan təbiətcə ona yaxşılıq edən kimsələri sevir. Bunun sayəsində müsəlman cəmiyyətinin fərdləri bir-birini sevir və bir-birinə dəstək verir, sanki kərpicləri bir-biri üstə sıx tikilmiş möhkəm binaya bənzəyirlər. Üstəlik, oğurluq, qarət və soyğunculuq hadisələri azalır.

Quran, mallarını Allahın rizasını qazanmaq üçün xərcləyənlərin misalını yeddi sünbül verən bir buğda toxumunun misalına bənzədir. Bu sünbüllərin hər birində yüz ədəd dən vardır. Hər bir toxum yeddi yüz dəfə artmışdır.



# Oruc

Bizim hamımız, sağlamlığını qorumaq, yaxud arıqlamaq, yaxud da, həkim məsləhətlərini yerinə yetirmək üçün nəfsinə hakim olub yeməkdən imtina edən və ya pəhriz saxlayan bir adam gördükdə təəccüb edirik.. Biz bunu onun üçün bir uğur, üstəlik, daha böyük və daha mühüm hədəfə çatmaq məqsədilə nəfsi istəklərinə hakim olma bacarığı hesab edirik.

Müsəlman isə oruc tutmaqla – özünü hazırlaşdırmaq, nəfsinin istəklərinə hakim olmaq və hakimlərin hakimi olan Allahın buyuruğunu yerinə yetirməklə bundan da böyük uğur əldə edir.

Oruc, İslam rüknlərinin dördüncüsüdür. İslam dini oruc tutmağa gücü çatan hər kəsə, islami qəməri təvqimlə doqquzuncu ayı – Ramazan ayının hər günü dan yeri söküləndən gün batanadək orucu pozan amillərdən – yeməkdən, içməkdən və həyat yoldaşı ilə yaxınlıq etməkdən çəkinməyi vacib buyurur.

> İslam peyğəmbəri bildirmişdir ki, oruc tutduqdan sonra, mənəvi keyfiyyəti dəyişməyən və əxlaqı düzəlməyən kimsəyə orucunun heç bir faydası yoxdur.

Quran bizə xəbər verir ki, oruc bizdən əvvəlki ümmətlərə də vacib buyurulmuşdu. Hərçənd bəzi ümmətlərin orucu fərqli olmuşdur, lakin oruc tutmaqda məqsəd eyni olmuş, dəyişməmişdir. Bu da, ibadəti Allaha məxsus etmək və Ondan qorxmaqdır (əl-Bəqərə, 183).

Müsəlman, sayı bəlli olan günlər ərzində, gündəlik olaraq günün müəyyən saatlarını nəfsinin istədiyi mübab şeylərdən özünü saxladıqda, nəfsinin ağasına çevrilir, onu idarə etməyə qadir olur və həyatının qalan hissəsində özünü nəfsinin istədiyi haramlardan qoruyur. Elə buna görə də, Peyğəmbər – aleyhissəlam – bildirmişdir ki, oruc tutduqdan sonra, mənəvi keyfiyyəti dəyişməyən və əxlaqı düzəlməyən kimsəyə orucunun heç bir faydası yoxdur. Peyğəmbər – aleyhissəlam – demişdir: “Kim yalan danışmaqdan və bu yalana əməl etməkdən əl çəkməsə, yeməyini və içməyini tərk etməsinə Allahın ehtiyacı yoxdur” (əl-Buxari, 1804).

> Quran bizə xəbər verir ki, oruc bizdən əvvəlki ümmətlərə də vacib buyurulmuşdu. Hərçənd bəzi ümmətlərin orucu fərqli olmuşdur, lakin oruc tutmaqda məqsəd eyni olmuş, dəyişməmişdir. Bu da, ibadəti Allaha məxsus etmək və Ondan qorxmaqdır .

Oruc tutan adamın aclığı və susuzluğu onun üçün, öz xoşları ilə yox, məcbur olduqları halda yeməyə və içməyə bir şey tapmayan kasıblara və aclara əl tutmağa təşviq edən ən böyük amildir. Çünki belə olduqda, o, kasıbların çəkdiyi əziyyəti çəkir.



> İslam dini müsəlmana oruc tutmağı vacib buyurmaqla, kasıbların ac və yeməyə möhtac olduğunu onun yadına salır.

# Həcc

Dinlərin çoxunda insanlar öz dini ayinlərini yerinə yetirmək və dua etmək üçün (müqəddəs hesab etdikləri yerləri) ziyarət edirlər. Lakin bu ziyarətlərin ən məşhuru və il ərzində ziyarət edənlərin çoxluğu baxımından ən böyüyü İslamda olan həcc ziyarətidir. Belə ki, hər il üç milyondan çox müsəlman o müqəddəs ziyarəti yerinə yetirmək üçün balaca bir yerə toplaşır.

İslamda həcc nə deməkdir?

Həcc, İslam rüknlərinin beşincisidir. Maddi və fiziki imkanı olan adamın onu yalnız bir dəfə yerinə yetirməsi vacibdir.

Bu, elə əzəmətli ziyarətdir ki, bu ziyarət əsnasında təbəqələr (varlı və kasıb), milliyyətlər, irqlər və sərvətlər gizli qalır, hər kəsin əynində eyni rəngli bir libas olur. Hamı bir səslə, insanla Rəbbi arasında olan həqiqi bağlılığı nümayiş etdirərək ucadan dua edib deyir: "Ləbbeyk, Allahummə ləbbeyk, ləbbeykələə şərikə ləkə ləbbeyk, innəlhəmdə vənnimətə ləkə vəlmulk ləə şərikə lək!" Yəni, əmrinə müntəzirəm, ey Rəbbim, əmrinə müntəzirəm. Ey Rəbbim, biz gəlmişik dilimizlə təkrar edib qəlbimizlə təsdiq edək ki, həqiqətən, ibadət edilməyə və həmd-səna ilə kamil şəkildə tərif olunmağa layiq başqası yox, yalnız Sənsən. Yaradan, nemət verən və mülkün sahibi də Sənsən, Sənin heç bir şərikin yoxdur.

Həcc, imanla əlaqəli bir ziyarətdir. Bu ziyarət əsnasında (hər bir) müsəlman ardıcıl olaraq (müəyyən) yerlərdə (müəyyən) əməllər edir, (müəyyən) sözləri deyir və bunların hamısını Allahı zikr etmək, təqvasını artırmaq və Allaha möhtac olduğunu göstərmək məqsədilə, üstəlik, Allahdan bağışlanma və mükafat diləmək üçün yerinə yetirir. Muhəmməd – aleyhissəlam – demişdir: "Həcc ziyarətində Kəbəni təvaf etmək, habelə, (Səfa və Mərvə təpələri arasında) səy etmək, Allahı zikr etmək üçündür." (İbn Əbu Şeybə, 15334).



Həcc ziyarətini yerinə yetirmək məqsədilə Məkkəyə yollanan kimsə gündəlik libasını çıxardıb, iki hissədən ibarət olan parçaları geyinir ki, Allaha müti olduğunu və həcc ziyarətinə gəlmiş kimsələrlə oxşar görkəmdə olduğunu göstərsin.



# İslamda ailə

Hazırki əsrdə bir çox ailələrdə qəbul edilir ki, ailə – əllərində bir evin açarları olan fərdlərdən ibarət bir toplumdur.

Təəsüflər olsun ki, insanların çoxu zövcənin və övladların həqiqi məsuliyyətini daşımaqdan boyun qaçırırlar. Bəs adamın bu məsuliyyəti boynuna götürmədən dünyəvi zövqlərdən istifadə etməyinə mane olan nədir?

Bu fikir hazırki əsrdə açıq şəkildə meydana gəlsə də, qeyd etmək lazımdır ki, bu, tarixin lap əvvəlindən insanların bəzisini çulğalayan fikirdir. Əslində, bu, fərdin öz marağını güdən sadə bir təşəbbüs, habelə, fərdlərin və cəmiyyətin aqibətini nəzərə almayan iyrənc bir xudbinlikdir (ancaq özünü sevmək).

Elə buna görə də, İslam dini olduqca çox etina göstərərək ailə (mövzusuna) – onun fərdlərinə aid olan qanunlara, haqlara və vaciblərə diqqət yetirmişdir. Çünki İslamda ev və ailə, mühafizə, tərbiyə və dirçəliş mərkəzi sayılır, üstəlik, (İslamın tələbinə uyğun) ailə qurduqda, onu islah etdikdə və onun haqlarını ödədikdə, bu ailələr sayəsində cəmiyyət islah edilir.

## Bu diqqətçillik saysız-hesabsız əhkamlarda büruzə verir. Onlardan bəzisi bunlardır:

**1**

### İslam dini evliliyə qədəm qoymağa və ailə qurmağa təşviq etmişdir:

- İslam dini, evlənməyi və ailə qurmağı ən böyük işlərdən və peyğəmbərlərin sünnəsindən hesab etmişdir. Odur ki, möhtərəm rəsul – aleyhissəlamın – səhabələrindən bəzisi öz vaxtlarını ancaq ibadətə ayırmaq – davamlı olaraq namaz qılıb oruc tutmaq, üstəlik, heç vaxt evlənməmək qərarına gəldikdə, Peyğəmbər – aleyhissəlam – onlara belə demişdir: “Lakin mən bəzən oruc tutur, bəzən də tutmuram, gecənin bir vaxtını namaz qılır, digərində isə dincəlirəm və nəhayət, mən qadınlarla evlənirəm. Belə olduğu halda, mənim sünnəmdən üz döndərən kimsələr məndən deyillər” (əl-Buxari, 4776).
- İslam evlənməyin asanlaşdırılmasını əmr etmiş və evlənmək istəyən kimsəyə kömək göstəriləcəyini vəd etmişdir. Necə ki, Peyğəmbər – aleyhissəlam – demişdir: “Allah üç sinif insana kömək edəcəyini Öz öhdəsinə götürmüşdür...” bunlardan biri: “İffətini qorumaq üçün evlənən adam” (ət-Tirmizi, 1655).
- Quran, Adəm övladlarına göstərilmiş lütf və dəlillər barədə danışarkən sözün əvvəlində, Allahın yaratdığı, kişi ilə qadın arasında olan rahatlığı, sevgini, mərhəməti və ünsiyyəti zikr edir. (Bu xüsusda) Quranda belə buyurulur: “Ünsiyyətdə rahatlıq tapasınız deyə, sizin üçün özünüzdən zövcələr yaratması, aranıza məhəbbət və mərhəmət salması, Allahın dəlillərindəndir” (ər-Rum, 21).
- İslam dini cavanlara, gəncliyin çiçəklənən çağında və ehtiraslarının güclü olduğu dövrdə evlənməyi əmr edir. Belə ki, bu işdə onlar üçün sükunət və rahatlıq, üstəlik, güclü şəhvət və ehtiras hisslərini soyutmağın qanuni həlli yolunu tapmaq vardır.



> Quran, Adəm övladlarına göstərilmiş lütf və dəlillər barədə danışarkən sözün əvvəlində, Allahın yaratdığı, kişi ilə qadın arasında olan rahatlığı, sevgini, mərhəməti və ünsiyyəti zikr edir.

## 2

**İslam, ailə üzvlərinin hər birinə, – istər kişi olsun, istər qadın, – kamil şəkildə ehtiram göstərir:**

İslam dini, ata-anaya öz övladlarını tərbiyə etmək kimi böyük məsuliyyətli bir iş tapşırmışdır. Rəsulullah – aleyhissəlam – demişdir: “Hər biriniz himayəçisiniz və hər biriniz himayəsində olanlara cavabdehdir. Əmir himayədardır və o, öz rəiyyətinə cavabdehdir. Kişi öz ailəsinin hamisidir və o, öz himayəsində olanlara cavabdehdir. Qadın ərinin evinə nəzarət edəndir və o, öz nəzarətində olanlara cavabdehdir. Xidmətçi ağasının malına nəzarət edəndir və o, nəzarət etdiyinə cavabdehdir” (əl-Buxari, 853).

## 3

**İslam, ata-anaya layiqincə dəyər vermək və onlara ehtiram göstərmək, habelə, ölənədək onların qayğısına qalmaq və onların əmrinə itaət etmək prinsipini möhkəm qurmağa təşviq edir:**

Oğul və ya qız nə qədər yaşa dolsa da, onlara öz valideynlərinə ehtiram göstərmək və onların qayğısına qalmaq vacibdir. İslam, bu əməli, Allaha edilən ibadətlə yanaşı zikr etmiş, üstəlik, valideynlərlə rəftarda həddi aşmağı, hətta, onların qanını qaraldacaq bir söz deməyi və ya (yaramaz) bir səs çıxarmağı qadağan etmişdir. (Bu xüsusda) Allah Quranda belə buyurur: “Rəbbin yalnız Ona ibadət etməyi və ata-ana ilə yaxşı davranmağı buyurmuşdur. Əgər onların biri və ya hər ikisi sənin yanında qocalıq yaşına dolarsa, onlara: “Uf!” belə demə, üstlərinə qışqırma və onlara xoş söz söylə!” (əl-İsra, 23).



“ İslam dini, valideynlərlə rəftarda həddi aşmağı, hətta, onların qanını qaraldacaq bir söz deməyi və ya (yaramaz) bir səs çıxarmağı belə qadağan etmişdir.

## 4

**İslam dini, oğulun və qızın haqlarını qorumağı, var-dövlətdən onlara xərclədikdə aralarında ədalətlə rəftar etməyi əmr edir:**

Rəsulullah – aleyhissəlam – demişdir: “Kişinin öz himayəsində olan kimsələrin qeydinə qalmaması, onun günah qazanmasına kifayət edər” (Əbu Davud, 1692). Peyğəmbər – aleyhissəlam – xüsusilə qız uşaqlarının qayğısına qalmaq və onlara baxmaq barədə belə buyurmuşdur: “Kim qız uşaqları ilə sınağa çəkilsə, onların qayğısına qalsa, bu qızlar onu Cəhənnəm odundan qoruyan bir sipər olar” (əl-Buxari, 5649).

## 5

**İslam dini müsəlmana qohumlarla əlaqə saxlamağı vacib buyurmuşdur:**

Bunun mənası: adamın atası və ya anası tərəfdən olan qohumları ilə əlaqə saxlaması və onlara yaxşılıq etməsi. İslam dini bu əməli ən əzəmətli ibadətlərdən və itaətlərdən biri hesab etmiş, habelə, onlardan əlaqəni kəsməyi və onlara pislik etməyi qadağan etmiş, üstəlik, bunu böyük günahlardan hesab etmişdir. (Bu xüsusda) Peyğəmbər – aleyhissəlam – demişdir: “Qohumlarla əlaqəni kəsən kimsə Cənnətə girməz” (Muslim, 2556).



# Qadının İslamda yeri

Televizordakı elanlara, yaxud yol üzərindəki reklam lövhələrinə, yaxud da jurnalların üz qabığına ötəri nəzər salmaq, maddi mədəniyyətin qadına qarşı törətdiyi cinayətin böyüklüyünü bizə hiss etdirir. Çox vaxt sən bunların üzərində ancaq rəğbət və şəhvət oyadan, nəfsi istəyi coşduran şəkil, yaxud məhsul, yaxud da əyləncə reklamları görə bilərsən.

Hərçənd əvvəlki cəmiyyətlərdə belə reklamlar olmamışdır, lakin murdarlığı zahirdə nisbətən az görünən, qadını alçaltmaq, onu əşya və məhsul olaraq alıb-satmaq kimi başqa yaramaz işlər var idi.

Çox vaxt belə zülmə və zorakılığa məruz qalmış qadın, öz davamlı mübarizəsi əsnasında, o vəhşilikdən yaxa qurtarıb şərəfli məqama qayıtmaq istəməmişdir (təbii ki, bunun murdarlığı azdır).

İslam dini 1400 il bundan əvvəl gəldiyi gündən bəri bu zorakılıqlara qarşı həqiqi inqilab etmişdir. Qadın belə zorakılıqlara məruz qaldıqda, İslam o qadın üçün, onun hüquqlarını və mənliyini qoruyan elə qanunlar və olduqca dəqiq təfsilatlı əhkamlar təyin etmişdir ki, bunların sayəsində o, başıuca və hörmətli olmuş, üstəlik, bu həyatda öz vəzifəsini ən mükəmməl şəkildə yerinə yetirmişdir.

Quranın ən uzun surələrindən birində qadına aid müfəssəl əhkamlar cəm edildiyinə görə bu surə "ən-Nisa" – "Qadınlar" adlandırılmışdır. Allah Quranda bəzi əməlisaleh qadınlar haqqında bizə bir çox əhvalatlar xəbər vermişdir. Hətta surələrin birinə İsa – aleyhissəlamın – anası Məryəmin adı verilmişdir.

İslam dini gəlib qadına olan baxışı dəyişdirdi ki, o yenidən Rəbbinin onu yaratdığı halına qayıtsın – əşya deyil, insan hesab edilsin, bir gecəlik yox, ömürlük yoldaş olsun, sadəcə ehtirası soyutmaq, ləzzət almaq və əylənmək üçün yox, onda rahatlıq tapmaq, onu sevmək və ona mərhəmət göstərmək üçün onunla yaxınlıq edilsin.

## Qadına ehtiram göstərmək mövzusu ilə əlaqəli əhkamların bəzisi bunlardır:

- İslam dini qadına ər seçimində ixtiyar vermiş və ona övladlarının tərbiyəsi xüsusunda daha çox məsuliyyət yükləmişdir. Peyğəmbər – aleyhissəlam – demişdir: "Qadın ərinin evinə nəzarət edəndir və o, öz nəzarətində olanlara cavabdehdir" (əl-Buxari, 853).
- İslam qadının adını və atasına olan mənsubiyyətinin şərəfini olduğu kimi saxlayır. Belə ki, qadın ərə getsə də, onun mənsubiyyəti dəyişməyib, öz atasına və ailəsinə mənsub edilir.
- İslam, kimsəsiz zəif qadına, – qohum olmasa belə, – xidmət etməyin şərəfli və fəzilətli bir əməl olduğunu təkidlə bildirmiş, ona xidmət göstərməyə təşviq etmiş və bu əməli Allah yanında ən fəzilətli əməl hesab etmişdir. Peyğəmbər – aleyhissəlam – demişdir: "Dul qadınlara və kasıblara əl tutan adam, Allah yolunda vuruşan mücahidə, habelə, gündüzlər oruc tutub, gecələr namaz qılan kimsəyə bənzəyir" (əl-Buxari, 5661).
- İslam, bir çox müxtəlif işlərdə qadınla kişini bir səviyyədə tutmuşdur. Bütün maliyyə xərcləri buna aiddir. Hətta Peyğəmbər – aleyhissəlatu vəssəlam – bu xüsusda belə buyurmuşdur: "(Şəriət əhkamları xüsusunda) qadınlarla kişilər eynidirlər" (Əbu Davud, 236).



> Hərçənd bəzi məqalələr İslam dinini qadına zülm etməkdə, onun hüquqlarını pozmaqda və bir də (özlərinin iddia etdiyi kimi) müasir dövrün tələblərinə və mədəniliyə uyğun gəlməyən qanunlar qoymasında ittiham edir, lakin biz, Britaniya kimi inkişaf etmiş ölkədə İslamı yenicə qəbul etmiş kəslərin 75%-nin qadınlar olduğunu görürük. Xüsusən də, onlar İslamın ailə xüsusunda olan əhkamlarını və şəriət qanunlarını araşdırdıqdan sonra (İslamı qəbul etmək qərarına gəlmişlər).
>
> INDEPENDET 6-11-2011

- İslam kişiyə qadının qeydinə qalmağı və minnət qoymadan onun maddi ehtiyaclarını ödəməyi vacib buyurmuşdur. Əlbəttə ki, əgər bu, həyat yoldaşı, ana və qız kimi himayə edilməsi vacib buyurulan qadınlardandırsa.
- İslam dini, mirasdan ədalətli və səxavətli şəkildə pay ayıraraq qadına öz haqqını vermişdir. Bəzi hallarda kişi ilə qadın bərabərhüquqlu olur, bəzi hallarda isə qadının payı, onun qohumluq əlaqəsinə və ya ona xərclənəcək mal-dövlətə uyğun olaraq kişininkindən artıq və ya əksik olur. Səthi tanışlıqdan və ötəri nəzər salmaqdandır ki, insanlardan bəzisi qadının payının bəzi hallarda kişininkindən daha az olduğunu düşünür, lakin bunun müqabilində Allahın kişiyə vacib buyurduğu maddi öhdəliklərə – qadına xərclənəcək mal-dövlətə nəzər salmır. İslam dini müvazinəti saxlayan elə mükəmməl bir sistemdir ki, bu sistemdə bir tərəf digər tərəfin haqqına təcavüz edə bilməz.

> İslam dini, mirasdan ədalətli və səxavətli şəkildə pay ayıraraq qadına öz haqqını vermişdir. Bəzi hallarda kişi ilə qadın bərabərhüquqlu olur, bəzi hallarda isə qadının payı kişininkindən artıq və ya əksik olur.

## İslamın, qeydinə qalmağı buyurduğu qadınlar:

**Ana:** Bir nəfər Peyğəmbər – aleyhissəlamın – yanına gəlib: “Ya Rəsulullah, mən ən çox kimə qayğı göstərməliyəm?”– demiş, o da: “Anana!”– deyə buyurmuşdur. Adam: “Sonra kimə?”– deyə soruşmuş, o yenə: “Anana!”– deyə buyurmuşdur. Adam (bir də): “Sonra kimə?”– deyə soruşmuş, o yenə: “Anana!”– deyə buyurmuşdur. Nəhayət, (sonuncu dəfə): “Sonra kimə?”– deyə soruşduqda, o: “Atana!”– deyə buyurmuşdur” (əl-Buxari, 5626).

**Qız:** Bu xüsusda Peyğəmbər – aleyhissəlam – demişdir: “Kimin üç qızı olsa, səbir edib onları böyütsə, onları yemək-içməklə və geyimlə təmin edərək malından onlara xərcləsə, Qiyamət günü o qızlar onu atəşdən qoruyan bir sipər olar” (İbn Macə, 3669).

**Zövcə:** Bu xüsusda Rəsulullah – aleyhissəlam – demişdir: “Sizin ən xeyirliniz öz ailəsinə yaxşılıq edəninizdir. Və mən ailəmə yaxşılıq edən ən xeyirlinizəm” (ət-Tirmizi, 3895).





> İslamda kişi ilə qadın arasında olan əlaqə, mübarizə yox, inteqrasiya əlaqəsidir. Beləcə, onlar müsəlman cəmiyyətinin qurulması yolunda bir-birinin naqis cəhətlərini tamamlayırlar.

## İslamda bu iki cinsin bir-birilə mübarizə aparmasına yer yoxdur:

İslamda kişi ilə qadının öz aralarında dava salıb mübarizə aparmasına yer yoxdur. Dünyəvi məqsədlərdən ötrü rəqabət aparmaq mənasızdır. Kişinin qadının üstünə getməsi və ya qadının kişinin üstünə getməsi, onlardan birinin digərini ləkələməyə, ona iftira yaxmağa və onun nöqsanlarını araşdırmağa cəhd etməsi yolverilməzdir.

İnsan nə ağılla öz ikinci yarısı ilə müharibə edir?! Və nə ağılla adam öz doğması ilə mübarizə aparır?! Möhtərəm rəsul – aleyhissəlam – dediyi kimi, qadın kişinin doğması və onun yarısı hesab edilir. Onların arasındakı əlaqə inteqrasiya əlaqəsidir. Yəni onlar müsəlman cəmiyyətinin qurulması yolunda bir-birinin naqis cəhətlərini tamamlayırlar.

Quran bu inteqrasiyanı valehedici şəkildə açıqlayaraq buyurur: “Onlar sizin üçün bir libas, siz də, onlar üçün bir libassınız” (əl-Bəqərə, 187).

Kişinin ilk baxışdan qadında gördüyü zəiflik, digər tərəfdən, kişinin öhdəsindən gələ bilmədiyi və bacarmadığı bir güc ola bilər ki, ailənin buna ehtiyacı olsun. Eləcə də, ola bilsin qadının kişidə gördüyü bir naqislik, qadına münasib olmayan bir güc olsun, lakin (başqa tərəfdən də) həyatın və cəmiyyətin düzəlməsi üçün bir səbəb olsun.

“Allah insanı iki ayrı cinsdə (kişi və qadın) yaratmışdır” deyə etiraf etmək, sonra da: “Bu iki cinsin hər sahədə bərabər olması gərəkdir”– demək mənasızdır.

Kişilərin bəzisi qadınlara verilən haqlara tamah saldıqda, qadınların da bəzisi kişilərə verilən haqlara tamah saldıqda Qurani Kərimin bu ayəsi nazil olmuşdur: “Allahın sizi, bir-birinizdən üstün etdiyi şeylərə tamah salmayın. Kişilərin qazandıqlarından öz nəsibi, qadınların da qazandıqlarından öz nəsibi vardır. Allahdan, Onun lütfünü diləyin” (ən-Nis, 32). Onlardan hər birinin özünə məxsus özəllikləri, öhdəlikləri və hörməti vardır. Onların hər biri Allahın lütfünü və rizasını diləyərək öhdəsinə düşənləri yerinə yetirməyə çalışır. Şəriət kişiləri ayrıca, qadınları da, ayrıca hesaba çəkmək üçün gəlməyib, əksinə, gəlib ki, insanları, ailəni və müsəlman cəmiyyətini hesaba çəksin.




## Kişi-qadın münasibəti:

Hərçənd tarix boyu kişi-qadın münasibətlərinin (müəyyən) hüdudlar, qanunlar, adətlər və intizamlı davranışlar çərçivəsində tənzimlənməsi və yoluna qoyulması, insanların saysız-hesabsız ictihadları və insani seçimləri sayəsində həyata keçirilmişdir, lakin tarix kitabları və antropologiya (insanın bioloji təbiətindən bəhs edən elm) bizə bəzi qövmlər barədə xəbər verir ki, onlar (cəmiyyətdə) tamamilə lüt gəzməyi, habelə, kişinin və qadının cinsi yaxınlıq xüsusunda istədiklərini etmələrini ayıb saymazdılar. Bəzi qövmlər isə, qadının əyri yola düşməsindən qorxub onu zəncirləyər, digərləri də, qadınların yox, ancaq kişilərin örtünməyinə, yaxud kişilərin bəzi əzalarının örtülməsinə üstünlük verərdilər. Bu kitablarda saysız-hesabsıs buna bənzər misallar vardır.

Tarix boyu yaşamış xalqların əksəriyyəti, ələlxüsus da, müəyyən qədər mədəniləşmişləri, düşünmüşlər ki, kişi ilə qadın arasında münasibət qurmaq üçün, onları idarə edəcək nizam-intizam və qayda-qanun yaratmaq lazımdır ki, həyat, insanla heyvan arasında fərq qoyulmayacaq dərəcədə cəngəllik və tövlə həyatına çevrilməsin.

## İslamda kişi-qadın münasibətinin keyfiyyəti:

İslamda kişi-qadın münasibəti, tarixi və coğrafi faktorlara əsaslanan məhdud bəşəri ictihada söykənmir, əksinə, o, hər bir zamana və məkana münasib olan mükəmməl bir nizamdır. Allah bu nizamı Qurani Kərimdə xəbər vermiş, möhtərəm rəsul Muhəmməd – aleyhissəlam – da, onu insanlara öyrətmişdir.

Bu münasibətin keyfiyyəti və hüdudları, qadınla kişinin məqamına görə fərqlənir. Necə ki, İslam dini buna aydınlıq gətirir.

Tarix boyu yaşamış xalqların əksəriyyəti, ələlxüsus da, müəyyən qədər mədəniləşmişləri, düşünmüşlər ki, kişi ilə qadın arasında münasibət qurmaq üçün, onları idarə edəcək nizam-intizam və qayda-qanun yaratmaq lazımdır ki, həyat, insanla heyvan arasında fərq qoyulmayacaq dərəcədə cəngəllik və tövlə həyatına çevrilməsin.

## İslamda kişilər qadına nisbətdə (aşağıdakı) qismlərə bölünürlər:

**1. Kişinin qadının əri olması:**

Ərarvad arasında olan o münasibətin keyfiyyətinə dair Quranın vəsfindən daha tutarlı və daha bəlağətli bir vəsf yoxdur. Belə ki, Allah, kişini öz zövcəsinin libası, qadını da, öz ərinin libası adlandırmışdır, sanki onların arasındakı mənəvi, hissi və cismani bağlılığı təcəssüm edən heyranedici bir surətdir. Allah buyurur: "Onlar sizin üçün bir libas, siz də, onlar üçün bir libassınız" (əl-Bəqərə, 187).

**2. Kişinin qadının məhrəmlərindən olması:**

Məhrəm deyildikdə, qadına çox yaxın qohum olduğundan dolayı, ömürlük ərə getməsi haram olan hər bir kişi nəzərdə tulur. Bunlar qohumlardan olan 13 kişidir: ata, baba, oğul, qardaş, əmi, dayı, qardaş oğlu və ya bacı oğlu, oğul nəvəsi və ya qız nəvəsi və başqaları. Qadın bu məhrəmlərin yanında, adətən olduğu halda, lüt soyunmamaq şərtilə tam hicabsız görünə bilər.

**3. Kişinin qadına yad olması:**

Burada yad kişi deyildikdə, qadının məhrəmlərindən olmayan hər bir kişi qəsd edilir.

İslam dini, iffəti qorumaqdan və şeytanın insana açdığı qapıları bağlamaqdan ötrü, kişinin yad qadınla düzgün əlaqə qurmasına dair normalar və qanunlar təyin etmişdir. İnsanı yaradan Allah nəyin onun xeyrinə olduğunu daha yaxşı bilir. Necə ki, Quranda zikr edilir: "Heç ola bilərmi ki, yaradan Allah, hər şeyi incəliyinə qədər bildiyi, hər şeydən xəbərdar olduğu halda, gizlində və aşkarda olanları bilməsin?!" (əl-Mulk, 14).

### Nə üçün İslam qadına yad kişlərin yanında hicabda olmağı əmr etmişdir?

- (Ona görə vacib edilmişdir ki,) qadın həyatda və cəmiyyətdə, iffətini və ismətini qorumaq şərtilə elmi və əməli sahələrdə öz vəzifəsini ən xeyirli şəkildə yerinə yetirə bilsin.
- (Həmçinin, ona görə vacib edilib ki,) bir tərəfdən cəmiyyətin paklığını təmin etmək üçün (zinaya) cəzb edən fürsətləri və ehtirası azaltsın və onu xəfifləşdirsin, digər tərəfdən də, qadının ismətini qorusun.
- (Bir də ona görə vacib edilib ki,) qadına baxan kişilərə özlərinin iffətini qoruyub nəfslərini boğmağa kömək olsun və onlar qadınla, sanki ehtiras oyadan bir kütlə və əyləncə aləti kimi yox, elmi və mədəni sərvətlərdən istifadə etdikləri kimi – bir insan kimi rəftar etsinlər.



## Kişi ilə yad qadın arasındakı münasibətin tənzimlənməsi üçün qoyulmuş qaydalar.

**1. Harama baxmamaq:**

Allah bütün kişilərə və qadınlara harama baxmamağı, yəni gözlərini ehtiras oyadan hər bir şeydən çəkməyi əmr etmişdir. Belə ki, bu, iffətli olmağa və namusu qorumağa aparan bir yoldur. Necə ki, hədd qoymadan (harama) baxmaq, günah və murdar işlər görməyə aparan bir yoldur. Quranda izah edildiyi kimi: "Mömin kişilərə de ki, harama baxmayıb gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini zinadan qorusunlar. Bu onlar üçün daha təmiz olar. Şübhəsiz ki, Allah onların nə etdiklərindən xəbərdardır. Mömin qadınlara da de ki, harama baxmayıb gözlərini aşağı diksinlər və cinsiyyət üzvlərini zinadan qorusunlar" (ən-Nur, 30-31).

**2. Ədəb və əxlaqla əməkdaşlıq etmək:**

Kişi və qadın, əməli, elmi və başqa bu kimi işlərdə ədəb və ehtiramla əməkdaşlıq etməli, lakin bununla yanaşı ehtiras oyadan amillərdən istənilən yolla uzaq durmalıdır.

**3. Hicab geymək:**

Allah qadında zahiri gözəlliklər və cazibədar amillər yaratdığına görə hicabı kişiyə yox, qadına vacib buyurmuşdur. O cazibədarlıq ki, kişinin qadını yoldan çıxarmasından daha çox qadının kişini yoldan çıxarmasına səbəb olur. Elə buna görə də, biz görürük ki, qədim tarixdən ta indiyədək çox vaxt kişidən qadının ehtirasını oyatmaq üçün yox, əksinə, qadından kişinin ehtirasını oyatmaq üçün istifadə edilib. Bunu biz bu günkü müxtəlif kütləvi informasiya vasitələrində öz gözümüzlə əyani şəkildə görürük.

İslama görə bu hicabın hüdudu, qadının yad kişilər qarşısında, üzü və əlləri istisna olmaqla, bədəninin hər yerini örtməsidir. Necə ki, Quran bunu əmr edir: "Qoy onlar – görünənlər istisna olmaqla, zinətlərini naməhrəmə göstərməsinlər" (ən-Nur, 31).



"İslamın buyurduğu hicabı tənqid edənlərin çoxunun xəbəri yoxdur ki, tarixdəki ən möhtərəm qadının – ismətli Məryəmin rəsmlərinin hamısında o, ancaq hicablı olaraq təsvir edilmişdir. Və bu hicab daha çox müsəlman qadınlarının hicabına bənzəir.



# Yemək-içmək xüsusunda İslamın qanunu

İslamı

İslamı öyrənmək istəyən kimsənin adətən verdiyi ilk sual belə olur: “Nə üçün spirtli içkilər və donuz əti haram buyurulub?”

İslamı öyrənmək istəyən kimsənin adətən verdiyi ilk sual belə olur: “Nə üçün spirtli içkilər və donuz əti haram buyurulub?”

Bu suala cavab vermək üçün mühüm izahat vermək gərəkdir:

Quran müsəlmanlara yer üzündə olanların hamısından istifadə etməyə icazə verir. Quranda açıq-aydın ayədə zikr edilir ki, Allah yer üzündə olan hər bir şeyi ondan istifadə etməyimiz üçün yaratmışdır.

Yemək-içmək də, buna aiddir. Bunların hamısı mübahdır (istifadəsi caizdir). Yalnız Quranda, murdarlığına və ya sağlamlığa zərər yetirdiyinə, yaxud da ağılı başdan çıxardığına görə qadağan edilənlər müstəsnadır. Ola bilsin ki, donuzun və spirtli içkinin nə üçün haram edildiyini öyrənmək sənin üçün əhəmiyyət kəsb etsin.

## Donuz:

Donuz əti yeməyin haram buyurulması Quranda açıq-aydın üslubla zikr edilir. Halbuki o dövrdə ərəblər donuzun nə olduğunu bilmirdilər. Bəzi adamlar donuzun haram buyurulmasına təəccüb edir və bu hökmü tənqid edirlər, halbuki bu hökm təkcə müsəlmanlara aid deyil, hətta, məlum olduğu kimi yəhudilərə görə də donuz əti yemək haramdır. Bu xüsusda “Əhdi-Ətiq”də açıq-aydın qadağalar var. Lakin adamı dəhşətə gətirən budur ki, o dinləri təmsil edən alimlərin çoxu, “Əhdi-Cədid”də zikr olunan aydın rəvayətlərə əsasən donuzun xristianlara da haram buyurulduğunu isbat ediblər. Lakin bu, sonradan dəyişdirilmiş və təhrif edilmişdir. Bax: (Mark İncili 5/11-13; Matta İncili 67; Apostol Pyotrun ikinci məktubu 2/22; Luka İncili 15/11)

> “ Allah Adəm – aleyhissəlama – Cənnətdəki pak ruzilərdən yeməyə izn verdikdən sonra, xüsusi bir ağacın meyvəsindən yeməyi ona haram buyurmaqla onu sınağa çəkdiyi kimi, bizə də yeyilənlərin əksəriyyətini mübah etdikdən sonra, bizim Ona olan imanımızı və itaətimizi sanamaq üçün, Onun bəzi şeyləri qadağan etməsinə nə mane ola bilər?!





Allah Adəm – aleyhissəlama – Cənnətdəki pak ruzilərdən yeməyə izn verdikdən sonra, xüsusi bir ağacın meyvəsindən yeməyi ona haram buyurmaqla onu sınağa çəkdiyi kimi, bizə də yeyilənlərin əksəriyyətini mübah etdikdən sonra, bizim Ona olan imanımızı və itaətimizi sınamaq üçün, Onun bəzi şeyləri qadağan etməsinə nə mane ola bilər?!

## Sərxoşedicilər və spirtli içkilər:

İnsan həyatını məhv edən yoluxucu xəstəliklər və digər azarlarla mübarizə aparmaq, üstəlik, insanların sağlamlığını və onların həyatını qorumaq üçün sərt qanun-qaydalar təyin etmək, dövlətlərin və hökumətlərin ən mühüm işlərindən hesab edilir. Ən pis və ən iyrənc nəticələrlə, həm fərdə, həm də cəmiyyətə xələl gətirən (sərxoşedicilərdən daha pis) nə ola bilər.

Ola bilsin ki, bəzi məlumatlar bizim hamımız üçün gözlənilməz olsun. Belə ki, Ümumdünya Səhiyyə Təşkilatının hesabatları kimi mötəbər araşdırmalarda, habelə, Oksford universitetinin (15 mart 2012 tarixində) “Nature” (483 275) jurnalında nəşr etdiyi hesabatda və Ümumdünya Səhiyyə Təşkilatının 11/02/2011 tarixli hesabatında bildirilir ki, hər il sərxoşedici içkilərdən ölənlərin sayı SPİD, malyariya və vərəm xəstəliklərindən ölənlərin hamısının sayından, habelə, həmin ildə baş vermiş bütün müharibələrdə, genosidlərdə və terror hadisələrində ölənlərin sayından təqribən üç dəfə çoxdur... Ümumdünya Səhiyyə Təşkilatının hesabatları ilə yanaşı həmin bu araşdırmanın isbat etdiyi rəqəmlərin bəzisini sənə təqdim edirik:



Hər il spirtli içkilərdən və sərxoşluqdan iki milyon yarımdan çox insan ölür. Onların **320 mini ancaq 15-29 yaş** arasında olan gənclərdir. Onlar hər il dünyanın hər yerində spirtli içkilər səbəbindən ölürlər. Bu da, hər il o cavanlardan ölənlərin 9%-ni təşkil edir.

Amerika araşdırmaları müəyyən etmişdir ki, hər il **700 min universitet tələbəsi,** çoxlu spirtli içkilər qəbul etmiş digər tələbələr tərəfindən hücuma məruz qalır.

2001-ci ildə dərc olunmuş hesabatlardan biri müəyyən etmişdir ki, Estoniyadakı gənclər tərəfindən törədilmiş amansız cinayətlərin **80%-i onların çoxlu spirtli** içkilər qəbul etmələri üzündən olmuşdur.

**Yer üzərində** baş verən cinayət hadisələrinin dörddə birinin məhz spirtli içkilər səbəbindən törədildiyi bildirilir.

**Ümumdünya Səhiyyə Təşkilatının** bütün bəyannamələri və hesabatları bütün dövlətləri, spirtli içkilər səbəbilə baş verən gündəlik faciələrin sayını azaldan və ya onların qabağını alan sərt tədbirlər və qanunlar qəbul etməyə çağırır.




## Bir il ərzində təkcə Böyük Britaniyada baş verənlər:

- Orada bir **milyona yaxın, spirtli** içki ilə bağlı zorlama faktları qeydə alınmışdır. Elə hesab edilmişdir ki, amansızcasına törədilmiş bu cinayət hadisələrinin təxminən yarısı, qurbanların fikrincə spirtli içkilər səbəbilə olmuşdur.
- Qəza xidmətlərində və xəstəxanalardakı təcili yardımlarda qəbul edilənlərin təqribən **7 milyonu spirtli içkilərlə əlaqəlidir.** Bu hadisələrə görə hər il vergi verənlər təqribən 650 milyon Britaniya funt sterlinqi ödəyirlər.
- **Spirtli içkilərlə** bağlı törədilmiş cinayətə və fəsada görə xərclənən ümumi xərclər və bir də vergi verənlərin çiyninə yüklənənlər, illik olaraq 8-13 milyard funt sterlinq arasında enib-qalxmaqla dəyişir.

## Quran spirtli içkiyə və sərxoşediciyə necə münasibət bəsləyir?



İslam dini spirtli içkinin fərdə və cəmiyyətə göstərdiyi təsiri aşkar etmək üçün, Ümumdünya Səhiyyə Təşkilatının verdiyi hesabatları gözləməmişdir.. Çünki insanı yaradan Allah onun yaşayışı və cəmiyyəti üçün nəyin xeyirli olduğunu daha yaxşı bilir.

İslam ərəblərə gəldiyi vaxt onlar içkiyə, şəraba və (ümumiyyətlə) hər növ sərxoşediciyə qurşanmışdılar. Bu içkilər onların ən böyük və ən dəyərli malı hesab edilərmiş. Onlar bu içkilərlə fəxr edər və əllərindəki mal-dövlətin hamsını onlara sərf edərdilər.

Quran bu məsələdə olduqca məntiqli və ədalətli yol tutmuşdur. O, (əvvəlcə) spirtli içkinin bəzi faydaları və zərərləri olduğunu təsdiqləmişdir. Belə ki, adam spirtli içki qəbul etdikdə, dərdini və qəmini aradan qaldıran müvəqqəti ləzzət və rahatlıq tapır. Lakin bunun nəticəsi və aqibəti çox təhlükəlidir. Onun ayrı-ayrı fərdlərin və cəmiyyətin mənəviyyatına, əxlaqına və sağlamlığına göstərdiyi təsirlərini və buraxdığı izlərini aradan qaldırmaq mümkün olmur. Necə ki, Quranda buyurulur: “Səndən sərxoşedici içki və qumar barəsində soruşurlar. De: “İkisində də, həm böyük günah, həm də insanlar üçün mənfəət vardır. Amma günahları mənfəətlərindən daha böyükdür” (əl-Bəqərə, 219).

Sonra sərxoşedici içkini qadağan edən ayə nazil olub onun şeytan əməlindən olduğunu, araya ədavət və kin saldığını, üstəlik, (insanı) şərəfli əməllərdən və mühüm işlərdən uzaqlaşdırdığını xəbər verdi. Həmin ayədə insanlara: “Artıq bunlara son qoyacaqsınızmı?”– deyə sual verildikdə, (səhabələr): “Son qoyduq, son qoyduq”– dedilər və Allahın Qurandakı bu əmrini yerinə yetirmək üçün sərxoşedici içkiləri Mədinənin küçələrinə boşaltdılar.




# Xəta

Xəta və savab kəlmələrinin fəlsəfəsi bir çox dinlərdə və etiqadlarda əsas ideoloji müşkül məsələlərdən biri sayılır. Bu etiqadlar arasında, xətanı və günahı silməyin, habelə, tövbə etməyin və peşman olmağın necəliyinə dair rəylər fərqlidir.

İslam isə Allahın yaratdığı, üstəlik, xeyirə və şərə meyilli etdiyi insan xislətinə dəqiq meyarla nəzər salır. İslam dini insanı, yalnız xeyirli işlər görmək üçün yaradılmış bir mələk hesab etmir, əksinə, hər bir insanın xətaya yol verdiyini təsdiq edir. Lakin buna rəğmən o, insanın verdiyi qərarların və öz ixtiyarı ilə etdiyi əməllərin məsuliyyətini onun öz boynuna yükləyir. Elə buradan da, İslamın xəta və tövbə barəsindəki anlayışı meydana gəlir. Bunu, aşağıdakı qaydada ixtisar etmək olar:

- Qurana baxanda, ilk əvvəl bizdə, asan başa düşüləcək, mənasında dolaşıqlıq və anlaşılmazlıq olmayan aydın təsəvvür yaranır ki, xətaya yol vermək də, tövbə etmək də, hər bir fərdin özünə aiddir. Elə bir xəta yoxdur ki, insan doğulmamışdan qabaq ona yüklənmiş olsun. Əksinə, hər bir insan günahsız və heç bir keçmiş xətası olmadığı halda doğulur. Həmçinin, elə bir insan da yoxdur ki, o, məğfirət əta etmək və günahları bağışlamaq haqqına sahib olsun. Necə ki, Adəm – aleyhissəlamın – xətası şəxsi xəta olmuş, sonra, o, bilavasitə Allaha tövbə etməklə rahat və asan şəkildə bu xətadan xilas olmuşdur. Onun zürriyyətindən olan hər kəsin xətası, həmçinin, fərdi xəta sayılır. Hər bir insanın səy göstərməsi və çalışması, habelə, ruhdan düşməməsi və ümidini kəsməməsi üçün ona ilham verən adil və aydın düşüncəyə əsasən, tövbə etmək üçün yolu həmişə açıqdır. Hər bir insana onun öz günahı yüklənir, heç kəs başqasının günah yükünü daşımır. Peyğəmbərlərin Allah tərəfindən təbliğ etdikləri də, elə bu olmuşdur. Necə ki, Quran bu haqda xəbər verir (ən-Nəcm, 36-41).
- Tövbə ən əzəmətli ibadətlərdən biri və Uca Allaha yaxınlaşdıran bir əməldir. O, ayrıca bir şəxsə məxsus edilmiş bir ibadət deyil. Həmçinin, tövbə etmək üçün məxsusi bir yer seçməyə, yaxud hər hansı bir insan qarşısında günahı etiraf etməyə və ya ondan izn istəməyə ehtiyac yoxdur. Əksinə, bu, Allahla öz qulları arasında yerinə yetirilən bir ibadətdir. Allahın Quranda zikr edilən isim və sifətlərindən bəzisi bunlardır: “ət-Təvvab, ər-Rəhim”, “Günahları bağışlayan”, “Tövbəni qəbul edən.” Budur, Quran Cənnətə daxil olacaq müttəqilərin sifətlərini bizə sadalayır, onların bəzi günah işlər gördüklərini, lakin hər günahdan sonra dərhal tövbə etməyə və bağışlanma diləməyə tələsdiklərini təsdiqləyir: “O kəslər ki, bir pis iş gördükdə, yaxud özlərinə zülm etdikdə, Allahı xatırlayıb günahlarının bağışlanmasını diləyərlər. Axı günahları Allahdan başqa kim bağışlaya bilər? Bir də onlar gördükləri pis işlərdə bilə-bilə israr etməzlər” (Ali-İmran, 135).

> İslam dinində tövbə etmək üçün kifayətdir ki, adam etdiyi günahdan uzaqlaşsın, onu etdiyinə görə peşman olsun, bir də o günaha qayıtmayacağına niyyət etsin, üstəlik, əgər kiminsə haqqına girmişdirsə, qoy haqq sahibinin haqqını qaytarsın.



Və əgər etdiyi günaha qayıdıb onu bir daha etsə, nə ilk tövbəsi ləğv edilər, nə də ki, günahları yerinə qayıdar, əksinə, yeni bir günah işlətmiş hesab olunar. Belə olduğu halda ona bir daha tövbə etmək gərəkdir.

Beləcə, insan İslamda, müvazinət saxladığı – kamilliyə çatmağa, yüksəlməyə və günahlardan uzaqlaşmağa həris olması ilə, öz bəşəri təbiətinin çox vaxt zəiflik göstərdiyini, bəzən də, yolundan azdığını bilməsi arasında olan bir durumda yaşayır.

İnsan hər bir halında – çalışqan və təqvalı olduğu, yaxud laqeyd və azğın olduğu halda, kompası itirməməlidir, əksinə, Allaha sığınmalı, Ona tövbə etməli və Ondan bağışlanma diləməlidir.

Burada, əməlisaleh insanlarla qeyrilərinin halı arasında üstüörtülü bir fərq var. Necə ki, Quran bunu təsdiq edir. O, bizə bildirir ki, (bu iki qrup arasındakı) üstüörtülü fərq ondan ibarətdir ki, müttəqilər günah işlədikləri zaman Allahı yada salar və Ona tövbə edər, günahkarlar isə tam əksinə, düşünmədən və öyüd-nəsihət qəbul etmədən öz günahlarını israrla təkrar edərlər (əl-Əraf, 201-202).



> İslama görə, elə bir xəta yoxdur ki, insan doğulmamışdan qabaq ona yüklənmiş olsun. Əksinə, hər bir insan günahsız və heç bir keçmiş xətası olmadığı halda doğulur.



# Din və ağıl

Bəziləri

Bəziləri elə güman edirlər ki, din ağılın ziddinə və elm öyrənməyin əleyhinədir. Çünki onların nəzərində din, xam xəyalların, əfsanələrin və xurafatların mənbəyidir. Halbuki elm və fəlsəfə – hər ikisi dərin biliyə çatmağın yollarıdır. Araşdırmaq, fikirləşmək və təcrübə aparmağın şərtlərini yerinə yetirməklə, bu bilik dəqiq və mötəbər elmə çevrilə bilər. Təhlil edildikdə aydın olur ki, bu etiqad həm doğru, həm də yanlış fikirləri əhatə edir.

Bəziləri elə güman edirlər ki, din ağılın ziddinə və elm öyrənməyin əleyhinədir. Çünki onların nəzərində din, xam xəyalların, əfsanələrin və xurafatların mənbəyidir. Halbuki elm və fəlsəfə – hər ikisi dərin biliyə çatmağın yollarıdır. Araşdırmaq, fikirləşmək və təcrübə aparmağın şərtlərini yerinə yetirməklə, bu bilik dəqiq və mötəbər elmə çevrilə bilər. Təhlil edildikdə aydın olur ki, bu etiqad həm doğru, həm də yanlış fikirləri əhatə edir.



Doğru fikirlər bəzi dinlərin görüşünü ifadə edib, bəzən ağıla müvafiq, bəzən də ona zidd olur. Belə ki, bu dinlərin mənbələri və kitabları, elmə və reallığa zidd olan əfsanələr və uydurma etiqadlarla doludur.

Yanlış fikirlərə gəlincə, bunlar o dinlərin mənbələrinə, məzmunlarına, qaydalarına və dəlillərinə xas olan aralarındakı müxtəlif fərqləri nəzərə almadan, onların hamısına şamil edilən hökmləri ifadə edir.



İslamın əsas mənbəyini – Qurani Kərimi oxuyan adam yəqin bilir ki, İslam ağıla elə bir yer verib ki, heç bir din bu xüsusda onunla ayaqlaşa bilmir. Quran oxuyan adamın, İslamın ağıla önəm verdiyini, üstəlik, onu təhlil etməyə və fikirləşməyə çağırdığını görməsi üçün (bu müqəddəs kitaba) diqqətlə göz gəzdirməsinə ehtiyac yoxdur. Hətta, Quranda on üçdən çox yerdə məzəmmətli sual – “Məgər anlamırsınız?” sözü təkrar edilir.

Quran oxuyan adamın, İslamın ağıla önəm verdiyini, üstəlik, onu təhlil etməyə və fikirləşməyə çağırdığını görməsi üçün (bu müqəddəs kitaba) diqqətlə göz gəzdirməsinə ehtiyac yoxdur.

**Quranın bir çox işlərdə ağılı işlətməyə göstəriş verməsi aşkar görünür. Bunlara (aşağıdakıları misal göstərmək olar):**

1 Quran ağıllı, gözüaçıq (sağlam düşünən) və hər cür özbaşınalıq, təkəbbür, qorxu və cahillikdən uzaq olan insana xitab edib, neçə-neçə ağlabatan dəlillər və məntiqi sübutlarla ona Allaha iman etməyin vacib olmasını əsaslandırır. Bunlardan biri, Allahın bu sözüdür: “Bəlkə onlar öz-özünə yaranıblar? Yaxud onlar yaradanlardır? Yoxsa onlar göyləri və yeri yaradıblar? Xeyr, onlar qətiyyən inanmırlar” (ət-Tur, 35-36).



2 Quran etiraz edənlərin dəlillərini müzakirə edir və onların heç bir dəlil-sübuta söykənməyən sözlərini rədd edir. Necə ki, buyurur: “Əgər doğru deyirsinizsə, dəlilinizi gətirin!” (əl-Bəqərə, 111).



3 Quran ağılını işlətməyən kəsləri qınayır və onları hissiyyatı olmayanlara bənzədir. Çünki onlar doğru qərar vermək və düzgün seçim etmək üçün gördüklərindən və eşitdiklərindən nəticə çıxarmırlar. Necə ki, buyurur: “Məgər onlar yer üzündə gəzib dolaşaraq *zalımların aqibətini* qəlbləri ilə düşünüb, qulaqları ilə eşitmirlər? Axı əslində gözlər deyil, kökslərdəki qəlb kor olur” (əl-Həcc, 46).



4 Quran insanın fikirləşməyinə əngəl törədən maneələrdən çəkindirir. Quran bizi, ağılımızdan və hissiyyatımızdan istifadə etmək və bunlara ehtiramla yanaşmağa təşviq etməklə kifayətlənməmiş, üstəlik, həm xeyirə, həm də şərə meyilli yaranmış insan xislətini nəzərə alaraq, ağılın sürüşkənliyinə diqqət yetirməyi tövsiyə etmişdir. O sürüşkənlik ki, istər istək, istər qorxu, istərsə də aldanma yolu ilə verilmiş qərarları bəzən günaha batmaq və haqdan sapmaq üçün hədəf edir.






**Quranın aydın bildirdiyi, sağlam təfəkkürə mane olan amillər (bunlardır):**

- Təqlid: belə ki, etiqadi və əxlaqi irslər, habelə, mənfi fikir formalaşdıran adətlər şüur və düşüncə tərzinə böyük təsir göstərir. Bütün bunlar haqqı qəbul etməyə və batili tərk etməyə çətinlik yaradır. Bəzən adam dəlil olaraq: "Mən buna belə adət etmişəm", yaxud "mən gözümü açandan belə görmüşəm" deyib düşünməyə tamamilə son qoyur. Necə ki, Quran, özlərinə haqq çatmış, lakin təqlid üzündən ona tabe olmamış bəzi insanlar haqqında bizə xəbər verir: Onlara: "Allahın nazil etdiyi haqqa tabe olun!"– deyildikdə, onlar: "Əksinə, biz özümüzün adət etdiyimiz, atalarımızın tutduğu yolla gedəcəyik!"– deyirlər. Daha sonra Quran (onların dediyinin batil olduğunu belə) izah edir: Bəs ataları ağıla və biliyə etimad etməmişlərsə, sadəcə ataları olduqlarına görəmi onların yolunu gedəcəklər?! (əl-Bəqərə, 170).
- İnadkarlıq və təkəbbürlük: belə ki, bəzən ağıl haqqı dərk edir, lakin adam onu qəbul etməkdən və ona tabe olmaqdan imtina edir, öz xeyrini və ya öz məqamını qorumaq məqsədilə, yaxud öz həsədi üzündən, ya da haqqın istinad edildiyi mənbəyə xor baxdığına görə onu rədd edir. Allah Quranda bir qisim insan haqqında xəbər verir ki, onlar öz daxillərində haqqın haqq olduğunu bildikləri halda, zahirdə onu inkar edirlər. Onların haqqı qəbul etməyinə mane olan yalnız təkəbbür göstərmələri və zülm etmələridir (ən-Nəml, 14).
- (dünyəvi) zövqlərə dalmaq: hərçənd ağıl haqqı dərk edir, lakin seçim etməyə cəsarəti çatmır. Çünki o, (dünyadan) aldığı ləzzətlərə dalmışdır. Quran bizə, özünə elm və mərifət verilmiş bir nəfəri misal çəkir. O kimsə ki, bildiyi elmə əməl etmək və onu öz həyatında tətbiq etmək üçün ona ixtiyar verilmiş, lakin o, bildiklərini kənara atıb nəfsinin istəyinə və dünyəvi xeyrinə meyl etmişdir. Səbəbi də ancaq bu idi ki, o, dünya ləzzətlərinə o qədər çox dalmışdı ki, artıq bu işdə doğru qərar çıxarmağa qadir deyildi (əl-Əraf, 175- 176).

Quran insanı, hər zaman və hər yerdə, ilkin şərtlərsiz və məhdudiyyətsiz ağılı işlətməyə, sual verməyə, nəzər salmağa, fikirləşməyə, üstəlik, həm özünə, həm kainata, həm də digər məxluqlara baxıb ibrət almağa çağırır.

Sual verməkdən və fikirləşməkdən yalnız o kimsə qorxa bilər ki, o, bu ikisinə zidd olanı qəlbində gizlin saxlamış olsun. Haqq din isə, əlbəttə ki, insanı yaradan və ona bu düşünmə qabiliyyətini verən Allah tərəfindəndir. Və ola bilməz ki, Allahın yaratdığı ilə Onun insanlara qanuni etdiyi din arasında ziddiyyət olsun. Elə isə sual verməkdən və ağılı işlətməkdən qorxmaq nəyə lazımdır? "Bilin ki, yaratmaq da, əmr etmək də Allaha məxsusdur. Aləmlərin Rəbbi olan Allah ən əzəmətli, xeyiri və bərəkəti bol olandır." (əl-Əraf, 54).



# İslam sülh dinidir

İnsanların

İnsanların bəzisi – kütləvi informasiya vasitələrində (İslam əleyhinə deyilənləri) təkrar-təkrar eşitdikdən sonra – sülhün İslam dinində müstəsna yeri olduğunu biləndə heyrətə gəlir. Halbuki, müsəlman gündəlik olaraq "salam/sülh" kəlməsini bir neçə kərə təkrar edir və dəfələrcə onun mənalarını hiss edir.

"əs-Səlam" Uca Allahın adlarından biridir, habelə, axirətdə (möminlərin daxil olacağı) Cənnətin adı "Darussəlam"dır (yəni əmin-amanlıq yurdu); həmçinin, müsəlmanlar "əs-Səlam" kəlməsi ilə bir-birlərini salamlayır, bir də ki, namazlarını iki kərə salam verməklə tamamlayırlar. Bütün bunları özündə cəm edən dinin adı İslamdır. O İslam ki, sülh və əmin-amanlıq mənasını ehtiva edir.



İslam dini sülhə, üstəlik də, heyvanların ən zəifinin və səriştəsi ən az olanının belə haqqını qorumağa çağırır. Allahın rəsulu Muhəmməd – aleyhissəlam – bizə xəbər verir ki, "bir qadın pişiyə görə Cəhənnəmə girəcək. Qadın onu ölənə qədər bağlı yerdə saxlamış, ona nə yemək və içmək vermiş, nə də onu azad buraxmışdır ki, gedib yer üzündəki həşəratlardan yesin" (Muslim, 2242); "bir pozğun da, itə su verdiyinə görə Cənnətə daxil olacaq" (əl-Buxari, 3280).



İslam dini, – din və təfəkkür mövzusunda nə qədər ixtilaf etsək də, – insan hüquqlarına hörmətlə yanaşmaq və onlarla birgə yaşamaq xüsusunda ən heyrətamiz misallar və qanunlar qələmə almış, hətta, peyğəmbər Muhəmməd aleyhissəlam, qeyri-müsəlmana zülm etmiş, yaxud ona əziyyət vermiş, yaxud onu taqətindən artıq yükləmiş kimsəni təhdid etmişdir ki, Qiyamət günü möhtərəm rəsul ona qarşı çəkişən tərəf olacaq (Əbu Davud, 3052).

Fəqət İslam insanı başqaları ilə sülh şəraitində yaşamağa çağırır. Təkidlə demək olar ki, İslam sülh tərəfdarı olan, haqq və ədalətli bir dindir. O din ki, hər bir haqqı olanın haqqını özünə verir, zalımın zülmünün qarşısını alır və qəsbkarın qəsbinə son qoyur. Bu, heç də, oğruya oğurladığını verən və ya ev sahibinə qəpikquruş verməklə onu yola verən, fırıldaqla dolu bir sülh deyil.

> Muhəmməd Peyğəmbər aleyhissəlam, qeyri-müsəlmana zülm etmiş, yaxud ona əziyyət vermiş, yaxud onu taqətindən artıq yükləmiş kimsəni təhdid etmişdir ki, Qiyamət günü möhtərəm rəsul ona qarşı çəkişən tərəf olacaq.

İnsanların çoxunun istifadə etdiyi qeyri-müəyyən terminlərin təbiri, habelə, kütləvi informasiya həmlələri vasitə olaraq qalır ki, hər kəs öz hekayəsini və öz mülahizəsini yeridə bilsin. Halbuki hər mənzərənin bir neçə guşəsi və hər hekayənin bir neçə rəvayəti vardır. İnsanların az bir hissəsi həqiqəti ciddi şəkildə araşdırmağı boynuna götürür və kütləvi informasiya təbliğatlarına meydan oxuyur ki, məlumatları öz mənbəsindən axtarıb tapsın, sonra da qərəzsiz və bitərəfcəsinə qərar versin.

**Təhlil etmək üçün sənə bəzi həqiqətləri təqdim edirik.**



## Bu gün İslam ən sürətlə yayılan bir dindir:

Bu gün İslam dini, məhdud imkanlara və müsəlmanların zəifliyinə rəğmən qeyri-adi sürətlə dünyanın hər tərəfində – Amerikadan Avropaya, Afrikaya və Asiyayadək yayılır (dinlər haqqında axtarış mərkəzi PEW: pewresearch.org). Beynəlxalq kütləvi informasiya vasitələrində yanlış məlumatlar yaymaq, habelə, İslamla yaxından-uzaqdan heç bir əlaqəsi olmayan pis nümunələri göstərməklə İslamı ləkələməyə çalışır. Məgər İslam dini insanlara məcbur qəbul etdirilməklə, yoxsa hər kəsin öz qənaəti və seçimi sayəsində yayılır?

Tarixi araşdıran hər kəsə görünən həqiqət budur ki, müsəlmanların, qeyri-müsəlmanların hüquqlarını qorumağa riayət etməsi, üstəlik, bu insanların seçimlərinə və mədəniyyətlərinə ehtiram göstərməsi həmin insanların qəlbinə olduqca böyük təsir göstərmiş və onların bu dini qəbul etməsinə səbəb olmuşdur. Bütün bunlar müsəlmanlar tərəfindən bir güzəşt yox, əksinə, Allahın Quranda aydın şəkildə təkidlə qeyd etdiyi qaydanı tətbiq etmək və ona riayət etmək olmuşdur: "Dində məcburiyyət yoxdur. Artıq doğru yol azğınlıqdan aydın fərqlənir" (əl-Bəqərə, 256).

## Məgər İslam dini insanlara məcburən qəbul etdirilib?

İnsan çox vaxt öz fikrini yeritmək, öz nüfuzunu qaldırmaq və öz xeyrini əldə etmək üçün güc tətbiq edir. Tarix, bu xüsusda, müxtəlif dinlərə və məzhəblərə qulluq edənlərin bütün kabuslarına dair misallarla doludur.

Məsələn, tarix şahiddir ki, kütləvi qorxunc qətliamları, tədqiqatçıların və mühacirlərin yeni dünyaya gəlib çatdıqları zaman yerli əhaliyə qarşı həyata keçirilmişdir. Hətta, İspan keşişi Bartalome o kütləvi qırğını görəndən sonra onu öz sözü ilə belə vəsf etmişdir: "Bu qətliamı törədənlər yerli sakinləri insan saymırdılar, əksinə, onları heyvandan da, aşağı hesab edirdilər."

Hindi tayfalarının məhv edilməsinə dair qısa hesabat – Bartalome de Las Kasasın qeydlərindən (1 yanvar 2009).

**Bəs bunun müqabilində, müsəlmanlar yeni məmləkətləri fəth edərkən nə etmişlər?**

## Müsəlmanlar Əndəlüsdə 8 əsr hökmranlıq etmişlər:



Müsəlmanlar 781 il – miladi təqvimlə 711-ci ildən 1492-ci ilə qədər Əndəlüsdə (İspaniyada) hökmranlıq etmiş və bu ölkə dünya mədəniyyətinin mərkəzinə çevrilmişdir. Bu ölkədə heç bir nəsrani İslamı qəbul etməyə məcbur edilməmişdir. Əksinə, onların hüquqları qorunmuş, habelə, ticarətləri və dövlətdə olan mərkəzləri yüksəlmişdir. Müsəlmanlar, həmçinin, Əndəlüsün fəthindən əvvəl ordakı yəhudilərə verilən zülmün qarşısını almışlar. Tarix bu həqiqətlərlə doludur.

İzabella və Fernando İspaniyada müsəlmanlara qələbə çaldıqdan sonra İslama aid olan hər bir şeyi qadağan etdi və müsəlmançılığında qalacaq, hətta, gizlində belə İslamı yaşayan kimsələri cəzalandırmaq üçün təftiş məhkəmələri qurdu.

Beləliklə, müsəlmanlar öz yurdlarından qovuldu. Fəqət burada diqqət çəkən bir məqam var, bu da, müsəlmanlarla birlikdə yəhudilərin də Əndəlüsdən qovulmasıdır. İslam ölkələrində əmin-amanlıq və xoş gün-güzəran olduğundan, bu ölkələrə hicrət etməkdə yəhudilər müsəlmanlara yol yoldaşı olmuşlar.

## Müsəlmanlar Misirdə 1400 ildən çox hökmranlıq etmiş və qibtilərin mövqeyini qorumuşlar:



Müsəlmanlar İslamın əvvəlindən – Rəsulullahın səhabəsi Amr ibn əl-As Misiri fəth etdiyi gündən, bu məmləkətdə hökmranlıq etmiş və (o illər ərzində) nəinki misirlilərin dininə və ziyarətgahlarına toxunmamış, hətta, onları, özləri ilə eyni dində olub sadəcə məzhəb ayrılığına görə onlara qarşı zorakılıq edən, onlara işgəncə verən və onları bəzi şeylərdən məhrum edən rumluların zülmündən qurtarmışlar. Beləcə, o gündən bəri qibtilərin din azadlığı və ibadət ayinləri özlərinə qayıtmışdır. Hazırkı gün qibtilərin sayı beş milyondan artıqdı.



## Müsəlmanlar min ilə yaxın Hindistanda hökmranlıq etmişlər. Halbuki Hindistan əhalisinin 80% qeyri-müsəlmanlardır.



Müsəlmanlar min ilə yaxın Hindistan yarımqitəsində hökmranlıq etmiş və (bu əsnada) digər dinləri təmsil edənlərin hüquqlarını qorumuş və onların ibadətlərinə mane olmamış, hətta, zorakılığa məruz qalmış dinləri zülm əsarətindən qurtarmışdır. Tarixçilərin hamısı təsdiq edir ki, İslam dini güc vasitəsilə yayılmamış və heç kəsə də bu dini məcburən qəbul etdirməmişlər.

## Müharibəsiz və ordularsız İslam dini qəbul etmiş ən böyük ölkələr:



İndoneziya, müsəlman əhalisinin sayına görə ən böyük ölkədir. Belə ki, əhalisinin sayı 250 milyondan çoxdur və onların 87 faizi müsəlmandır. İndoneziya İslamı, hicri təqvimilə altıncı əsrdə, müsəlman tacirlərinin əxlaqı sayəsində qəbul etmişdir. Böyük ordular – portuqallar, sonra hollandlar, sonra da ingilislər oranı müstəmləkələşdirənədək, bu ölkəyə nə bir ordu girmiş, nə də ki, orada qan tökülmüşdür.



# İslam dini ilə bəzi müsəlmanlar arasında olan reallıq

Bu qorxulu ziddiyyət nədir?! Bəzi müsəlmanlar bəzən elə sözlər danışırlar ki, əgər onlar (insanı) ən ali əxlaq sahibi olmağa, torpağı əkib-becərməyə, insanlara fayda verməyə və onların arasında sülhü bərqərar etməyə çağıran İslam qanunlarının həqiqətini öyrənib, sonra öz ətraflarına nəzər salsalar, İslamı təmsil edən, lakin ondan tamamilə uzaq olan nümunələr görərlər. Məgər onlar haqq dininin təmsilçiləri ola bilərlərmi?

Bu qorxulu ziddiyyət nədir?! Bəzi müsəlmanlar bəzən elə sözlər danışırlar ki, əgər onlar (insanı) ən ali əxlaq sahibi olmağa, torpağı əkib-becərməyə, insanlara fayda verməyə və onların arasında sülhü bərqərar etməyə çağıran İslam qanunlarının həqiqətini öyrənib, sonra öz ətraflarına nəzər salsalar, İslamı təmsil edən, lakin ondan tamamilə uzaq olan nümunələr görərlər. Məgər onlar haqq dininin təmsilçiləri ola bilərlərmi?

**Həqiqət budur ki, bu əməl adamı heyrətə gətirir. Odur ki, bunu bir neçə yöndən düzgün götür-qoy etmək gərəkdir:**

- Özünü İslama mənsub edən və ya İslam cəmiyyətində doğulan hər kəs dinin bütün tələblərini yerinə yetirən müsəlman sayılmır. Hər yerdə ətrafımızdakılar arasında bir çox nöqsanları olan, İslam həqiqətindən və onun öyrətdiklərindən sapmış kimsələr var. Müsəlmanlar arasında elələri var ki, onlar İslamın adından başqa heç nə bilmirlər.
- Heç bir halda insanların xətalarını onların dinlərinin və məzhəblərinin üstünə atmaq olmaz. Heç bir halda da demək olmaz ki: “Hitlerin qəddarlığı dininə görə olmuşdur”, yaxud “Xristian dini zorakılığa çağırır, çünki Hitler xristian olmuşdur” və ya “Ateizm insanları kütləvi şəkildə qırmağı məcbur edir, çünki İosif Stalin on milyonlarla insan qətlə yetirmiş, özü də ateist olmuşdur..” Bu iddiaların hamısı obyektivlikdən, dəqiqlikdən və doğruluqdan uzaqdır.
- Neçə-neçə misallar vardır ki, hamı bunların gözəlliyi, əzəməti və tətbiqi sayəsində, şərqdə yerləşən Hind ölkələrindən qərbdəki İspaniyayadək dünyanın hər yerinə yayılmış, tarixin fəxr etdiyi İslam həqiqətinə, sülhün ruhuna, elmin inkişafına və ictimai tərəqqiyə şahid olmuşdur. Bunların nişanələri hələ də bizə görünməkdədir. Bunlar bu gün bizim yaşatdığımız mədəniyyətin çırağı və onun yolu olmuşdur. Həmçinin, bu gün tərəqqiyə çatmağa səy göstərən dövlətlərdən gələcək inkişafı nəzərdə tutan misallar da, göstərmək olar. Hələ elmin hər sahəsində və dünyanın müxtəlif ölkələrində olan fərdlərə aid ayrıca misalları demirik.
- Heç kəs tanıdığı pis həkimlərin naşı olduğunu bildiyinə görə, nə müasir tibb elminin gətirdiyi həqiqətləri inkar edir, nə də öz xəstəliyini müalicə etdirməkdən imtina edir. Habelə, heç kəs dərs vermə kimi şərəfli peşəyə ləkə gətirən tanıdığı pis məktəblərə və ya pis müəllimlərə görə, nə tədrisə qarşı mübarizə aparır, nə də övladlarını bundan məhrum edir. İbrət pis misallara aid edilənlərdə yox, işin öz həqiqətindədir.
- Təəccüblüsü budur ki, İslama nisbət edilənlərin və ya İslam düşmənlərinin bəzisi tərəfindən, bu dinin əleyhinə edilən çox şiddətli tənqidi hücumlarla yanaşı, insanların çoxu İslam dininin təmiz, doğru və əsl nüsxəsini görə bilir. Odur ki, insanlar indiyədək dünyanın bütün ölkələrində İslam dinini qəbul edirlər.



“Heç bir halda insanların xətalarını onların dinlərinin və məzhəblərinin üstünə atmaq olmaz.

“Heç kəs dərs vermə kimi şərəfli peşəyə ləkə gətirən tanıdığı pis məktəblərə və ya pis müəllimlərə görə, nə tədrisə qarşı mübarizə aparır, nə də övladlarını bundan məhrum edir.

## Yeni nöqteyi-nəzər

(Bir de görüm,) öz xeyrinə qərar vermək və fürsət əldə etmək xüsusunda neçə dəfə tərəddüd etmisən? Bu günə qədər də, o tərəddüdə görə özünü qınayırsan.

İnsan üçün ən böyük qürur, onun azadfikirli, həm də, qorxmadan və çətinlik çəkmədən öz xeyrinə olan işlərdə qərar verməyə qadir olmasıdır.

Baş verən qarşıdurmalarda sabit qalmaq, habelə, çətinliklərin və maneələrin öhdəsindən gəlmək şücaət sayılır, üstəlik, bunu edən adam tərif və təqdir edilir. Şübhəsiz ki, öz xeyrinə qərar verməkdə və özünə haqq bəlli olduğu zaman səhvləri etiraf etməkdə şücaət göstərmək, bundan da əzəmətli bir xüsusiyyətdir. Çünki bu, insanın öz nəfsinə qarşı şücaət göstərməsi, üstəlik, qürur və mənəm-mənəmliyinə qalib gəlməsidir. Bunun öhdəsindən gələn adam, sonradan bunun təsirini özündə və öz şəxsiyyətində hiss edir.

İslam dininin özəllikləri ilə öz mənbəyindən tanış olmaq üçün özünə fürsət verdiyin kimi, oxuduqların barədə də düşünüb təhlil etmək üçün əlindən gələni əsirgəmə.

İslam dininin parlaqlığı və gözəlliyi sənə bəlli olduqdan sonra onun mahiyyəti və üstünlükləri barədə daha çox araşdırmağa və sual verməyə ehtiyacın varsa, sənin önündə oxumaq, baxmaq, fikir mübadiləsi aparmaq və suallar vermək üçün böyük bir imkan var. Lakin bu andan etibarən ona başqa gözlə və fərqli nöqtiyi-nəzərlə baxmalısan.







Sənin bu kitabı oxuyub tamamlamağın bizim üçün böyük şərəfdir və ümid edirik ki, oxuduqların səndə ciddi suallar doğuraraq razı olub-olmayacağın müəyyən yeni fikirlərə təkan verəcək. Sənin mülahizə, sual və etirazlarını dinləmək bizim üçün xoşdur. Söz veririk ki, onlara diqqətlə yanaşaraq İslam barəsində digər məlumatları əldə etməyinə həris olacağıq.

İslam haqqında əlavə məlumatlar əldə etmək üçün:

LAUNCHING CURiOSiTY JUST SCAN IT.!!

**THISISLAM.net**

Öz təcrübəni bizimlə bölüş

info@modern-guide.com

AZARI







- Məgər ətrafındakı kütləvi informasiya vasitələrində ən çox müzakirə edilən dini daha aydın şəkildə görmək sənin üçün maraqlı deyilmi?

- Məgər bir anlıq dayanıb, beynəlxalq statistik məlumatlara əsasən ən çox yayılan və ən tez qəbul edilən yeganə dinin dərinliyini öyrənməyə dəyməzmi?

- Məgər həyat, din və kainatla bağlı başqalarının mədəniyyətini və onların fəlsəfi fikirlərini araşdırıb öyrənməklə rahatlıq tapmırsanmı?

- Niyə İslam dini haqqında doğru-düzgün məlumatları öz mənbələrindən əldə etmək, sonra da, buna dair öz məntiqin və öz ağlınla qərar vermək üçün özünə fürsət vermirsən?

**Əgər bu deyilənləri, yaxud bunların bir qismini mühüm və maraqlı hesab edirsənsə, bu kitab sənə istədiyini tapmağa kömək edəcək.**

9 786030 315055

LAUNCHING CURiOSiTY JUST SCAN IT.!!

MODERN GUIDE

THIS IS ISLAM

THISISLAM.info